# EVDƏ QAL, SAĞLAM QAL!

**Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçirəcək**



Bax 4

**İtaliya mətbuatı: Azərbaycan Ermənistanı küncə sıxışdırır**




Bax 4



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 082 (6047) 15 may 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## "Danışıqlar prosesində irəliləyişin olmaması Ermənistanın qeyri-konstruktiv fəaliyyəti ilə əlaqədardır"

Ermənistan öz aqressiv ritorikası ilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin Dağlıq Qarabağ münaqişəsinin ni-



Bax 3

zamlanması üzrə fəaliyyətinə zərbə vurur. AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "EurActiv" portalına müsahibəsində bildirib. Danışıqlarda....

# Prezidentdən icra orqanlarına daha bir mesaj:

## "Əgər əyri yoldan düz yola dönməsəniz, sonunuz pis olacaq"



*Dövlət başçısı cinayət törədənlərin bundan sonra da cəzalandırılacağını bildirib*

Bax 2



Bax 4

## Azərbaycanda daha 121 nəfər koronavirusa yoluxdu

Azərbaycan Respublikasında 121 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 44 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan Trend-ə bildirilib ki, hazırkı dövrədək ölkəmizdə 2879 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1833 nəfər müalicə olunaraq sağalıb, 35 nəfər vəfat edib...

## Ermənilərin Hitlerə və Holokosta rəğbətini ifşa edən yeni sənəd aşkarlandı!

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun ABŞ Konqresi arxivlərində apardığı araşdırma nəticəsində erməni daşnaklarının Hitlerə və Holokost soyqırımına rəğbət bəslədiklərini ifşa edən yeni tarixi sənəd aşkar edilib.




Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildirilib ki, 1945-ci il 4 may tarixində ABŞ Nümayəndələr Palatasının...

Bax 3

## İngiltərədə futbol nə vaxt başlayır?



*İngiltərə Premyer Liqası koronavirus pandemiyası üzündən dayandırılan 2019/20 mövsümünün bərpası üçün optimal tarix axtarır. SİA-nın xarici mətbuata istinadən məlumatına görə, çempionatın iyunun 12-də davam etdiriləcəyi...*

Bax 16

**"Gültəkin sosial şəbəkədəki səhifəsində üzr istəməyə məcbur olub"**



Bax 13

**"Futbolçu olaraq Messini çox sevirəm, Ronaldo da möhtəşəmdir"**



Bax 16

**Erməni müxalif lider fövqəladə vəziyyətin uzadılmasını qanunsuz sayır**



Bax 13



# Prezidentdən icra orqanlarına daha bir mesaj:

## “Əgər əyri yoldan düz yola dönməsəniz, sonunuz pis olacaq”

*Dövlət başçısı cinayət törədənlərin bundan sonra da cəzalandırılacağını bildirib*

### Rəsmi xronika

Prezident İlham Əliyev Tural Piriyevin Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Tural Qüdrət oğlu Piriyev Əmanətlərin Sığortalanması Fondunun İcraçı direktoru təyin edilir.

***

Prezident İlham Əliyev Azərbaycan Tibb Universitetinin 90 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***Bu gün ölkəmizdə insanların hüquq və azadlıqlarının qorunması dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin də başlıca hədəfləri, məhz ölkəmizin zəngin dövlətə çevrilməsi, əhalinin daha yaxşı yaşamasına nail olmaqdan ibarətdir. Belə ki, dövlət başçısının daim sosial proqramların geniş xarakter almasına baza yaradan sərəncamları hər il vətəndaşların yaşayış şəraitinin yaxşılaşmasında özünü göstərir.***

Prezident İlham Əliyev çıxışlarında da vurğulayır ki, sosial siyasətin dövlət siyasətinin ayrılmaz hissəsidir: “Sosial siyasət bizim siyasətimizin ayrılmaz hissəsidir. Mən dəfələrlə demişəm ki, biz bazar iqtisadiyyatı prinsiplərinə sadiqik və Azərbaycanın uğurları bunun əyani sübutudur. Ancaq bununla bərabər, biz güclü sosial siyasət aparılmadan inkişaf edə bilmərik. Çünki bizim bütün işimizin mərkəzində, təməlində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan vətəndaşının rahat, rifah içində yaşaması bizim başlıca borcumuzdur”. Elə Prezident İlham Əliyev mayın 13-də Kəlbəcər rayon icra hakimiyyətinin başçısı vəzifəsinə yeni təyin olunan Azər Qocayevlə videoqəbulda çıxışı zamanı bir neçə mühüm məqamalara toxunub.

### “Siz bu yüksək etimadı öz işinizlə doğrultmalısınız”

Keçirilən görüşdə dövlət başçısı bu gün gənclərə dövlətin göstərdiyi etimaddan və bu etimadı öz işləri ilə doğrultmaqdan danışıb: “Siz bu gün Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilirsiniz. Bu, sizə göstərilən böyük etimaddır. Siz bu etimadı doğrultmalısınız. Siz gəncsiniz, cəmi 34 yaşınız var. Sizin təyinatınız, eyni zamanda, onu göstərir ki, gənclərə bu gün çox böyük imkanlar yaradılır, onların fəaliyyəti üçün bütün şərait yaradılıbdır və gənclər məsul vəzifələrə təyin edilirlər”.

Dövlət başçısı gənclərin son illər ərzində ictimai həyatda çox fəal rol oynadığını və xüsusilə də, qısa müddət ərzində Azərbaycanda çox böyük, çoxminli könüllülər ordusunun yaradıldığını bildirib: “Könüllülər hərəkatı ASAN könüllülərdən başlamışdır. Bu gün ASAN könüllüləri, sözün əsl mənasında, Azərbaycan gəncliyinə xas olan ən gözəl xüsusiyyətləri özlərində birləşdirirlər, o xüsusiyyətləri təcəssüm etdirirlər. Hazırda digər sahələrdə də könüllülər kifayət qədər geniş fəaliyyət göstərirlər. Mən daim onların fəaliyyətini izləyirəm və onların fəaliyyətinə yüksək qiymət verirəm”.

### “Kəlbəcərin işğal altına düşməsinin səbəbkarı xəyanətkar AXC-Müsavat hakimiyyətidir”

Prezident İlham Əliyev bu gün Azərbaycanın gözəl guşələrindən olan Kəlbəcərin işğal altında olmasının səbəkarı xəyanətkar AXC-Müsavat hakimiyyəti olduğunu deyib: “Kəlbəcərin işğal altına düşməsinin səbəbkarı xəyanətkar AXC-Müsavat hakimiyyətidir. Məhz onların xəyanətkar və yarıtmaz fəaliyyəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşmüşdür, vətəndaşlarımız həlak olmuşdur və Kəlbəcərdən olan bütün soydaşlarımız məcburi köçkün şəraitində yaşamağa məcbur olmuşlar. Bu cinayət AXC-Müsavat hakimiyyətinin birinci cinayəti deyildi. Şuşanın və Laçının işğal altına düşməsində də AXC-Müsavat tandeminin çox böyük mənfi rolu olmuşdur. O vaxt onlar Azərbaycanda hakimiyyət davası aparırdılar”.

Dövlət başçısı bu xəyanətkarların əsas məqsədləri ancaq hakimiyyətə gəlməkdir və bu gün də özlərini radikal müxalifət adlandıran, əslində, indiki şəraitdə çox aciz durumda olan marginal qruplaşma nəyin bahasına olursa-olsun Azərbaycanda vəziyyəti pisləşdirmək, pandemiya dövründə apardığımız uğurlu siyasətə kölgə salmaq, xarici havadarlarının maraqlarını təmin etmək, satqın, xain təbəqə, “beşinci kolon” kimi xarici dairələrin əmrlərini yerinə yetirməkdir: “Onların əsas məqsədi nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək idi. Bu gün özünü radikal müxalifət adlandıran, əslində, indiki şəraitdə çox aciz durumda olan marginal qruplaşma nəyin bahasına olursa-olsun Azərbaycanda vəziyyəti pisləşdirmək istəyir. Təbii ki, onların buna nə gücü, nə də ağlı çatır. Ancaq onların niyyəti məhz budur: Azərbaycanı ləkələmək, ölkəmizin imicinə zərbə vurmaq, pandemiya dövründə apardığımız uğurlu siyasətə kölgə salmaq, xarici havadarlarının maraqlarını təmin etmək, satqın, xain təbəqə, “beşinci kolon” kimi xarici dairələrin əmrlərini yerinə yetirmək”.

“Azərbaycan xalqı bunu unutmamalıdır, xalq düşmənlərini unutmamalıdır”, - deyən dövlət başçısı beləlÉrini XƏYANƏTKAR adlandırıb: “Mən onları öz adları ilə çağırıram. Belə də olmalıdır. Çünki xalqa, dövlətə xəyanət edən xaindir. Xaricin maraqlarını burada təmin etmək istəyən, öz xalqına, öz xalqının, dövlətinin maraqlarına zərbə vurmaq istəyən düşməndir. Bunun başqa adı yoxdur. Hamı da bunu bilməlidir”.

### “Dövlət xətti ilə məcburi köçkünlərə çox böyük diqqət göstərilir”

Prezident ilk gündən dövlətin məcburi köçkünlərə çox böyük diqqət yetirildiyini, xüsusilə də 2003-cü ildən bu günə kimi, bu sahədə görülən işlər əsas xətt kimi davam etdirildiyini bildirib: “Siz gənc kadr kimi, ilk növbədə, məcburi köçkünlərə böyük diqqət göstərməlisiniz. Dövlət xətti ilə məcburi köçkünlərə çox böyük diqqət göstərilir. Fəaliyyətimizin bu istiqaməti 2003-cü ildə mənim Prezident kimi fəaliyyətə başladığım dövrdən əsas xətt kimi davam edir. Mən o vaxt demişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq. Ancaq biz buna dörd il ərzində nail ola bildik. 2007-ci ildə artıq Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamışdı. Onu da bildirməliyəm ki, çadır şəhərciyi, o acı mənzərə də AXC-Müsavat hakimiyyətinin məhsulu idi. Ondan sonra biz köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi istiqamətində daha fəal işlər apardıq. Bu gün 300 mindən çox məcburi köçkün evlərlə, mənzillərlə təmin edilib. Təkcə keçən il 5 min köçkün ailəsi üçün mənzillər tikilibdir. Bu il isə bu rəqəm 7 minə və ola bilər 8 minə çatacaq. Ona görə dövlət öz üzərinə düşən bütün vəzifələri icra edir. Keçən il mənim Sərəncamımla məcburi köçkünlərin maddi təminatı da yaxşılaşdırılmışdır. Onlara verilən müavinətin həcmi 50 faiz artmışdır”.

### “Xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə amansız olacaq”

Dövlət başçısı ilk öncə hər bir təyin olunan məmurun xalqın içində olmasını, onların problemlərinin həllinə çalışmasını bildirib. Prezident İlham Əliyev, həmçini son vaxtlar məmur özbaşınalığı və rüşvətxorluğundan danışaraq deyib ki, xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə bundan sonra da amansız olacaq: “Xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır. Bu mübarizə bu gün öz nəticələrini verir. Mən bunu bir neçə dəfə demişəm ki, xoşagəlməz hallara, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə amansız olacaq. Bugünkü mənzərə bunu göstərir. Artıq beş icra hakimiyyəti başçısı həbs olunub və bütün o videomateriallar, ondan sonra istintaq materialları göz qabağındadır. Yəni, kasıb insanın çörəyini kəsmək, ona çatacaq vəsaiti mənimsəmək ən böyük cinayət sayıla bilər. Pandemiya dövründə aztəminatlı təbəqəyə nəzərdə tutulmuş yardımı vəhşicəsinə mənimsəmək vicdansızlıq və cinayətdir. Tutulan o beş icra hakimiyyəti başçısının beşi də bu çirkin əməllərlə məşğul olub. Biz bu vəsaiti ona görə ayırırıq ki, bu gün özünə iş tapa bilməyən adam heç olmasa minimum əməkhaqqı səviyyəsində əməkhaqqı alsın, evinə çörəkpulu aparsın. Bunlar ona da göz dikiblər. Yəni, gözləri doymur. Bu, bir xəstəlikdir və bu xəstəliyin müalicəsi artıq işə salınıb. Mən bir neçə dəfə xəbərdarlıq etmişəm, açıq demişəm ki, əgər əyri yoldan düz yola dönməsəniz, sonunuz pis olacaq, cəza tədbirləri tətbiq ediləcək. Ancaq bəziləri hesab edirdi ki, bu, onlara aid deyil. Bəziləri hesab edirdi ki, onlar qanundan üstündür. Yaxud da hesab edirdilər ki, kimsə onlara kömək göstərəcək, onların havadarları, onlara uzun illər ərzində dəstək verən yüksəkvəzifəli şəxslər. Mən demişəm ki, bu, olmayacaq. Həyat da bunu göstərdi. Ödəniş kartlarının, sosial yardımın oğurlanması bu cinayətin hələ cüzi bir hissəsidir”.

### “Xalq da cinayətkarları, rüşvətxorları, gözü doymayanları yox, bizi dəstəkləyir”

Dövlət başçısı belə cinayətkarların xalq tərəfindən nifrətlə dövlətin apardığı siyasəti isə dəstəklədiklərini deyib. Həmçinin, vurğulayıb ki, xoşagəlməz hallar təkcə yerli icra orqanlarında deyil, mərkəzi icra orqanlarında da var, siqnallar var, məlumatlar daxil olub: “Hər addım cinayət, hər addım rüşvət. Buna son qoyulacaq! Heç kimdə şübhə olmasın! Bizim iradəmiz möhkəmdir, heç kim bizim iradəmizə təsir edə bilməz. Xalq da cinayətkarları, rüşvətxorları, gözü doymayanları yox, bizi dəstəkləyir. Mən bu dəstəyi hər gün hiss edirəm.

Mən, eyni zamanda, demişdim ki, xoşagəlməz hallar təkcə yerli icra orqanlarında deyil, mərkəzi icra orqanlarında da var, siqnallar var, məlumatlar daxil olub. Demişdim, xəbərdarlıq etmişdim, əl çəkin bu işlərdən, əl çəkin! Hesab edirdilər ki, bunlara aid deyil. İndi isə bunun acı nəticələrini yaşayırlar. Ona görə siz gənc kadr kimi icra başçısı vəzifəsində bu amilləri daim nəzərdə saxlamalısınız. Dürüstlük, şəffaflıq, ədalət hər bir dövlət məmurunun iş prinsipi olmalıdır. İş prinsipi bu olmalıdır, rüşvət yox, yalan yox, talançılıq yox, saxtakarlıq yox, vicdansızlıq yox! Dürüstlük, şəffaflıq, xalqa xidmət, ədalət - budur, prinsiplər! Bir daha deyirəm, əgər kimsə hələ də hesab edir ki, kimsə onlara kömək edəcək, səhv edir. Tutulan dövlət məmurlarının acı həyatını yaşamaq istəmirlərsə, düz yola qayıtsınlar”.

Beləliklə də, dövlət başçısı xalqa xidmət, təvazökarlıq, təkəbbürlü davranmamaq prinsiplərinin dövlət məmurlarının əsas həyat və fəaliyyət normasına çevrilməsinin zəruriliyini vurğulayıb. Prezident bu məsələdə heç kimə güzəştin olunmadığını və bundan hamının nəticə çıxarmalı olduğunu bildirib.

**RƏFİQƏ KAMALQIZI**

## "Azərbaycanda bütün resurslar koronavirusla mübarizəyə səfərbər edilib"



Mayın 14-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti onlayn iclası keçirilib. Milli Məclisdən SİA-ya verilən məlumata görə, komitənin sədri Siyavuş Novruzov iclası açaraq gündəlikdəki məsələləri diqqətə çatdırıb. Komitə sədri bildirib ki, deputatlara təqdim olunmuş "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" və "Bələdiyyələrin su təsərrüfatı haqqında" qanunlara dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi üçüncü oxunuşda müzakirəyə çıxarılır. Layihə barədə danışan Siyavuş Novruzov adları çəkilən sənədlərə təklif olunan redaktə xarakterli düzəlişlər barədə məlumat verib. Qeyd edilib ki, düzəlişlərə əsasən, ətraf mühitə təsirin qiymətləndirilməsi məsələlərinə diqqət daha da artırılır.

Onlayn iclasda iştirak edən komitənin sədr müavini Elşən Musayev, komitə üzvləri Nizami Cəfərov, Kamran Bayramov, Malik Həsənov, Fəttah Heydərov, Cavid Osmanov, Tahir Rzayev, Səbinə Xasayeva, Məzahir Əfəndiyev, Səttar Möhbalıyev, Aqil Məmmədov, Emin Hacıyev, Əliabbas Salahzadə layihə barədə fikirlərini bildirərək, dəyişiklikləri məqsədəuyğun hesab ediblər. Müzakirələrin sonunda qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub. Sonra onlayn iclasda cari işlərdən danışılıb, Regional məsələlər komitəsinin növbəti dövr üçün fəaliyyəti müzakirə edilib.

Siyavuş Novruzov çıxışında bildirib ki, Koronavirus (Covid-19) pandemiyasına qarşı mübarizədə respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük işlər görülür. Bütün resurslar səfərbər edilib. Prezidentin ehtiyat fondundan tibbi avadanlıqların, ləvazimatların alınması üçün təxminən 100 milyon manat vəsait ayrılıb və əlavə olaraq 150 milyon manat ehtiyatda saxlanılır, vətəndaşlara sosial dəstək göstərilir. İclasda çıxış edən komitə üzvləri Koronavirus pandemiyası ilə əlaqədar dövlət və Heydər Əliyev Fondu tərəfindən görülən işləri, həyata keçirilən sosial tədbirləri yüksək qiymətləndiriblər.

## Səməd Seyidov: "Bu qərar Avropadan Ermənistana növbəti zərbədir"



Mayın 11-də Avropa İttifaqı (Aİ) Şurasının 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı (ŞT) siyasəti ilə bağlı yekun qərarı dərc edilib. AZƏRTAC-ın müxbiri Avropa İttifaqına üzv dövlətlərin və Aİ Şurasının ŞT-nin gələcəyi ilə bağlı mövqeyini əks etdirən bu qərara dair şərh üçün Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidova müraciət edib.

Səməd Seyidov bildirib ki, hazırda dünyada baş verən və bir çox ölkələrin siyasi, iqtisadi nüfuzunu sarsıdan pandemiyanın informasiya gündəmini zəbt etməsi səbəbindən bəzi məsələlərə yetərincə diqqət yetirilmir. Lakin mayın 11-də Avropa İttifaqı Şurasının 2020-ci ildən sonra Şərq Tərəfdaşlığı siyasəti ilə bağlı yekun qərarı diqqətdən kənarda qalan məsələlər sırasında deyil. Belə ki, bu qərar çox ciddi əhəmiyyət kəsb etməklə yanaşı, həm də Ermənistana, eləcə də onun destruktiv siyasətinə Aİ tərəfindən güclü bir zərbə kimi qiymətləndirilməlidir. Söhbət Şərq Tərəfdaşlığı proqramı çərçivəsində ölkələrlə Avropa İttifaqının münasibətlərinin tənzimlənməsi və gələcəkdə ŞT üzv dövlətlərinin növbəti Zirvə görüşündə qəbul olunacaq sənədlərə dair tövsiyələrdən gedir.

Komitə sədri deyib: "Biz, Azərbaycan olaraq həmişə beynəlxalq təşkilatlarla münasibətlərdə qanunun aliliyinə, beynəlxalq qanunun, bu istiqamətdə Helsinki Yekun Aktının beynəlxalq sənədlərdə tətbiq olunmasına tərəfdar çıxmışıq. Azərbaycan olaraq heç bir siyasi konyekturadan asılı olmayaraq vahid yanaşma və ümumi beynəlxalq qanuna söykənən prinsiplərin mövcudluğunun əhəmiyyəti haqqında dəfələrlə çıxış etmişik və edirik. Məhz bu mövqe, bu yanaşma Aİ Şurasının 11 may tarixli qərarının 2-ci bəndində ŞT-nin siyasi və hüquqi əsasları, o cümlədən ən vacib fəaliyyət prinsiplərində əks olunur. Şura Avropa Qonşuluq Siyasətinin spesifik regional "ölçüsü" olan ŞT-nin strateji əhəmiyyətini bir daha vurğulayaraq, vahid demokratiya, rifah və sabitliyin ümumi məkanının qurulması ilə bağlı birgə öhdəliyi yenidən təsdiq edərək ərazi bütövlüyü, müstəqillik və suverenlik daxil olmaqla, beynəlxalq nizama, beynəlxalq hüquqa əsaslanan qaydalara söykənən Aİ ŞT-nin əsas prinsiplərini təsdiq edir. Bu, sadəcə, sözlər deyil, bu, Aİ-nın Şərq Tərəfdaşlığı proqramında olan ölkələrlə münasibətlərin tənzimlənmə prinsipləridir. Bu prinsiplər bu şəkildə təqdim edilirsə, bu, Azərbaycanın maraqlarına tam uyğundur, ermənilərə isə növbəti zərbədir".

Səməd Seyidov vurğulayıb ki, bu qərarda bir vacib məqama da diqqət yetirmək lazımdır. Paşinyan və onun ətrafında olan separatçılar uzun müddətdir ki, Qarabağ separatçılarının tərəf kimi danışıqlara cəlb olunmasına cəhd göstərirlər. Azərbaycan Prezidenti dəfələrlə bu siyasətin iç üzünü açaraq onun məntiqsizliyini dünya ictimaiyyətinə təqdim edib. Bu gün isə bu qərarla danışıqlar formatının razılaşdırılmış formada davam etdirilməsi Aİ tərəfindən bir daha təsdiq olunub. İndi özünüz qərar çıxarın, Aİ Şurası ali bir orqandır. Aİ hər hansı bir proqram, o cümlədən ŞT proqramına daxil olan ölkələrin ərazi bütövlüyünə müstəqilliyinə, suverenliyinə hörmətlə yanaşır. Bu, ilk növbədə, o deməkdir ki, bütövlüyü pozulmuş, münaqişə nəticəsində işğal olunmuş ərazilərin məsələsi həmin prinsiplər həyata keçirilməklə razılaşdırılmış formatda öz həllini tapmalıdır. İkincisi, bu, Azərbaycanın xarici siyasətinin dövlətimizin başçısının vurğuladığı məsələlərin bu beynəlxalq təşkilat tərəfindən dəstəklənməsi deməkdir. Nəhayət, Aİ Şərq Tərəfdaşlığının üzvü olan Azərbaycan ilə bütün sahələrdə geniş əlaqələr qurmaqda maraqlı olduğunu və bu əlaqələrin inkişaf etdirilməsinə səy göstərildiyini bəyan edib.

"Bir sözlə, ərazi bütövlüyünü tanıyan, razılaşdırılmış formatda danışıqları aparan Avropa İttifaqı ilə əlaqələrin təşkil olunması Aİ Şurasının sənədlərində də öz əksini tapıb. Bu, Ermənistanın yalan, böhtan əsasında aparılan destruktiv siyasətinə böyük zərbədir. Biz bu istiqamətdə səylərimizi davam etdirməli və Avropa təşkilatlarında, beynəlxalq qurumlarda Azərbaycanın milli maraqlarını ən yüksək səviyyədə müdafiə etməliyik", - deyə Milli Məclisin komitə sədri bildirib.

## Hikmət Hacıyev: "Danışıqlar prosesində irəliləyişin olmaması Ermənistanın qeyri-konstruktiv fəaliyyəti ilə əlaqədardır"



Ermənistan öz aqressiv ritorikası ilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə fəaliyyətinə zərbə vurur. AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "EurActiv" portalına müsahibəsində bildirib. Danışıqlarda irəliləyiş üçün Yerevanın konstruktiv fəaliyyətinin olmamasından təəssüfləndiyini bildirən Hikmət Hacıyev deyib ki, Ermənistan danışıqlar prosesindən geri çəkilir.

Prezidentin köməkçisi vurğulayıb ki, münaqişənin yeganə həlli yolu Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi, Ermənistan qoşunlarının həmin ərazilərdən çıxarılması və məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasından başlayaraq mərhələli nizamlanmadır. O qeyd edib ki, Dağlıq Qarabağda keçirilmiş qondarma "seçkilər" bir daha göstərdi ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejim cinayətkar birləşmədən, Ermənistanın siyasi rəhbərliyinin mafioz klanının tərkib hissəsindən başqa bir şey deyil. İşğal olunmuş Dağlıq Qarabağda gümüş mədənlərinin istismarı və qiymətli metalların qanunsuz ixracı artıq ənənəyə çevrilib. Bu sahədən qazanılan gəlir Ermənistanın siyasi rəhbərliyinin gizli fəaliyyətinin maliyyələşdirilməsi üçün istifadə olunur.

Prezidentin köməkçisi müsahibəsində Azərbaycanda koronavirusla mübarizə istiqamətində görülən işlərdən də danışıb. O, Azərbaycan hökumətinin gördüyü qabaqlayıcı tədbirlərin səmərəli nəticələr verdiyini diqqətə çatdırıb. Vurğulayıb ki, ölkədə epidemioloji vəziyyət nəzarət altındadır. Azərbaycanda testlərin aparılması üçün 24 laboratoriya fəaliyyət göstərir və gündəlik 7 minə yaxın test icra olunur. Səhiyyə sisteminin hazırlığının gücləndirilməsi üçün tədbirlər görülüb, xəstəxana çarpayılarının sayı artırılıb, tibbi heyət təlimə cəlb olunub.

COVID-19-un yaratdığı sosial-iqtisadi çətinliklərlə bağlı sualı cavablandıran Prezidentin köməkçisi zərərlərin qarşısının alınması üçün sosial-iqtisadi paket həyata keçirildiyini və bu məqsədlə 3 milyard manatdan çox vəsait ayrıldığını vurğulayıb. Hikmət Hacıyev Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssislərinin Azərbaycana dəvət edildiklərini, onların ölkədə vəziyyətlə tanış olaraq görülmüş işləri müsbət qiymətləndirdiklərini də qeyd edib. O, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusun Prezident İlham Əliyevə göndərdiyi məktubda Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirləri nümunəvi adlandırdığını diqqətə çatdırıb.

Hikmət Hacıyev bildirib ki, Azərbaycanın mövqeyi bundan ibarətdir ki, koronavirusla mübarizədə özünəqapanma deyil, qlobal həmrəylik səmərəlidir. Bu baxımdan o, Azərbaycanın hazırda sədrlik etdiyi Türk Şurasının və Qoşulmama Hərəkatının bu yaxınlarda keçirilmiş Zirvə görüşlərini xatırladıb.

## Ermənilərin Hitlerə və Holokosta rəğbətini ifşa edən yeni sənəd aşkarlandı!





Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun ABŞ Konqresi arxivlərində apardığı araşdırma nəticəsində erməni daşnaklarının Hitlerə və Holokost soyqırımına rəğbət bəslədiklərini ifşa edən yeni tarixi sənəd aşkar edilib.

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildirilib ki, 1945-ci il 4 may tarixində ABŞ Nümayəndələr Palatasının Miçiqan ştatından olan üzvü, konqresmen Frank Hook erməni daşnaklarının Hitlerə və Holokosta rəğbət bəsləmələri, irqçi meyilləri, habelə onların ABŞ ərazisində törətdikləri terror aktları barədə məqaləni Konqresin plenar iclasına təqdim edib. Həmin məqalə ABŞ Konqresinin qeydiyyat kitabçasına daxil edilərək ABŞ hökuməti tərəfindən dərc olunub.

Məqalədə daşnaklar uzun müddət terrorçu-faşist aktları həyata keçirən və yaxşı təşkilatlanmış "quldur dəstəsi" adlandırılır. Daşnakların yaranma tarixindən bəhs edilən məqalədə onların terrorizmi əsas siyasi alət kimi mənimsədikləri bildirilir.

Erməni daşnaklarının ABŞ-da "Daşnaksütyun" partiyasına ianə köçürməkdən imtina edən və ya onların radikal ideologiyasını paylaşmayan ermənilərə qarşı terror aktları törətdikləri qeyd olunan məqalədə bu səpkidə Amerikadakı Erməni Kilsəsinin rəhbəri arxiyepiskop Leon Tourianın 1933-cü ildə Nyu-Yorkdakı kilsədə Milad bayramı ibadəti zamanı daşnak terrorçular tərəfindən qətlə yetirildiyi diqqətə çatdırılır.

Daşnakların nasizmə rəğbət bəslədiklərinin vurğulandığı məqalədə onların ABŞ-ın Boston şəhərində nəşr edilən "Hairenik" qəzetinin 1936-cı il 17 sentyabr nömrəsinə istinad edərək, daşnakların hitlerizmi və faşizmi "bəşəriyyətə hədiyyə" və "Almaniya və İtaliyaya yeni həyat verən uğurlu sistemlər" hesab etdikləri qeyd olunur.

Məqalədə daha sonra daşnakların kəskin antisemit olduqları vurğulanır, onların bu mövzuda çoxlu məqalələr dərc etdirdikləri bildirilir və "Hairenik" qəzetinin 1936-cı ilin avqust sayında daşnakların Holokostu dəstəklədiyini göstərən aşağıdakı sitat təqdim olunur. Sitatda deyilir: "Bu zəhərli elementlər xroniki xəstəlik kimi dərin kök saldıqları üçün bəzən onların kökünü kəsmək çətindir. İnsanlar üçün qeyri-adi üsulla onların kökünü kəsmək zəruri olduqda bu cəhd və üsullar inqilabi hesab edilir. Cərrahiyyə əməliyyatı zamanı isə qanın axması normaldır... Bu cür şəraitlərdə diktatorluq xilaskar rolunu oynayır". Göründüyü kimi, erməni daşnakları altı milyon yəhudinin nasistlər tərəfindən öldürülməsini "zəhərli elementlərin kökünü kəsmək üçün cərrahiyyə əməliyyatı" adlandırır.

Sənəddə, həmçinin nasistlərə xidmət etmiş erməni Qaregin Njde haqqında məlumat verilərək, onun erməni irqçiliyini təbliğ edən Tseqakronizm nəzəriyyəsinin əsasını qoyduğunu və əsasən erməni gənclər arasında bu ideyanı yaydığını, habelə onun Hitlerin irqçi ideyalarını tərənnüm etdiyini və bu ideyaları özü üçün əsas götürdüyünü vurğulayır. Məqalədə, həmçinin Njde və onun erməni daşnak tərəfdaşlarının erməni gənclərinə bu irqçi ideyaları mənimsəmələri və bu ideyalara sadiq qalmaları ilə bağlı çağırışı özündə ehtiva edən və "Hairenik Weekly" qəzetinin 1935-ci il 11 yanvar sayında dərc edilmiş müraciəti təqdim olunur.

Qeyd edək ki, ABŞ-da Azərbaycana qarşı məkrli fəaliyyət göstərən əsas erməni lobbi təşkilatı Amerika Erməniləri Milli Komitəsi - daşnak təşkilatıdır.

# İtaliya mətbuatı: Azərbaycan Ermənistanı küncə sıxışdırır




İtaliyanın "La Verita", "L'Antidiplomatico", "Sardegnagol", "CIVG", "Giornale Diplomatico" kimi kütləvi informasiya vasitələrinin saytlarında Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin yazıları dərc olunub. SİA-nın verdiyi məlumata görə, yazılarında diplomat həmin kütləvi informasiya vasitələrinin bəzilərində Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər", Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə təhrif olunmuş və qərəzli məlumatları əks etdirən yazılara cavab olaraq münaqişənin tarixi-hüquqi aspektləri, işğal olunmuş ərazilərimizdəki vəziyyət, orada keçirilmiş qondarma "seçkilər"in qeyri-qanuniliyi, onların beynəlxalq ictimaiyyət tərəfindən pislənilməsi, beynəlxalq təşkilatlar tərəfindən münaqişə ilə bağlı qəbul edilmiş sənədlər, münaqişənin nizamlanmasına dair aparılan danışıqlar prosesi və bu xüsusda Azərbaycanın mövqeyi barədə məlumat verib.

Həmçinin İtaliyanın "Babilon magazine" və "Un mondo d'Italiani" online qəzetlərində də italyan jurnalist Domeniko Letizianın "Dağlıq Qarabağ: Azərbaycan Ermənistanı küncə sıxışdırır" və "Dağlıq Qarabağda seçkilər: Azərbaycan Ermənistanı küncə sıxışdırır" başlıqlı məqalələri dərc olunub. Məqalələrində italyan jurnalist Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma "seçkilər"in qeyri-qanuniliyinə diqqəti yönəldərək, həmin "seçkilərin" beynəlxalq ictimaiyyət tərəfindən sərt şəkildə tənqid edildiyini bildirib. Məqalələrdə jurnalist Rusiyanın xarici işlər naziri Sergey Lavrovun münaqişənin mərhələli həlli ilə bağlı fikirlərinə münasibətdə Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın açıqlamasına cavab olaraq Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun fikirlərinə geniş yer ayırıb. Məqalələrdə jurnalist Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzün ağır nəticələrindən də danışıb, habelə koronavirus epidemiyası ilə bağlı yaranmış mürəkkəb vəziyyətin iqtisadi çətinliklərdə boğulan Ermənistandan münaqişə ilə bağlı mövqeyini dəyişdirməsini və beynəlxalq təşkilatların sənədlərinə hörmət etməsini tələb etdiyini vurğulayıb.

Yazılarla aşağıdakı keçidlərdən tanış olmaq mümkündür: https://www.laverita.info/in-nagorno-karabakh-larmenia-viola-il-diritto-internazionale-2645980365.html https://www.lantidiplomatico.it/dettnews nagorno_karabakh_lettera_dellambasciatore_dellazerbaigian_-mammad_ahmadzada_a_lantidiplomatico/82_34744/

# Ermənistanın azərbaycanlılara qarşı törətdiyi cinayətlər faşizm qəddarlığından da sərt olub



"Ermənilər Azərbaycan torpaqlarına köçürüləndən bəri faşizm ideologiyası daima onların silahı olub". SİA-nın məlumatına görə, bunu açıqlamasında Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib. O bildirib ki, Ermənistanın Azərbaycana qarşı törətdiyi cinayətlər faşizm qəddarlığından da sərt və amansız olub: "Nikol Paşinyanın babasının isə faşizm ordusunun tərkibində vuruşması təəccüblü deyil. O zamanlar faşizm termini yox idi. Ancaq ermənilərin xalqımıza qarşı törətdikləri cinayətlər ən qatı faşistlərin belə əməllərindən daha qəddar olub. Ona görə də Nikol Paşinyanın babasının faşizmə xidmət etməsi o qədər də təəccüblü deyil. Elə bu gün Ermənistanın baş naziri statusunda olan Nikol Paşinyan hələ də Azərbaycan torpaqlarını işğal altında saxlamaqla əsl faşizm nümunəsi göstərir. İşğalçı Ermənistanın siyasi rəhbərliyi Qaregin Njde kimi faşistə heykəl qoymaqla bu gün də öz xilqətlərinə sadiq qaldıqlarını nümayiş etdirir. Bunu bütün dünya ictimaiyyəti görür. Ancaq təəssüf ki, münasibət hələ də adekvat deyil".

H.Babaoğlu qeyd edib ki, Paşinyan bir tərəfdən özünü demokrat kimi təqdim etməyə çalışır, digər tərəfdən isə işğalçılıq siyasətini davam etdirir: "O həmçinin danışıqlar prosesinə süni maneələr yaratmağa çalışır. Bəzi ekspertlər Paşinyanın faşizmə xidmət edən babası haqqında informasiyanın Ermənistan media məkanında informasiya dövriyyəsinə gətirilməsini də təsadüfi hesab etmirlər. Nikol Paşinyan bunu qəsdən etməklə əslində, erməni cəmiyyətində çoxluq təşkil edən faşizm pərəstişkarlarına gizli mesaj verərək onlarla birlikdə olduğunu örtülü şəkildə ifadə edir. Ancaq necə olursa olsun sonda bu cılız küçə demokratı ifşa olunacaq. Azərbaycan isə öz torpaqlarını işğaldan azad edəcək".

## Azərbaycanda daha 121 nəfər koronavirusa yoluxdu

Azərbaycan Respublikasında 121 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 44 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan Trend-ə bildirilib ki, hazırkı dövrədək ölkəmizdə 2879 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1833 nəfər müalicə olunaraq sağalıb, 35 nəfər vəfat edib, 1011 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 29 nəfərin vəziyyəti ağır, 38 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 214.291 test aparılıb.



# 190 manatlıq yardımın verilməsi mayın sonuna qədər yekunlaşacaq



190 manatlıq yardımın ikinci ay üçün ödənişi may ayının sonunadək veriləcək. SİA-nın məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) bildiriblər.

Qeyd olunub ki, cari ayın 12-dən etibarən birdəfəlik ödəmənin ikinci ay üçün ödənişinə başlanıb və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 50 min şəxsə dair birdəfəlik ödəniş vəsaitləri müvafiq banklara köçürülüb:"Həmin şəxslərə qeydiyyata alınmaq üçün müraciət edərkən qeyd etdikləri telefon nömrəsinə bu barədə SMS göndərilir. Şəxs əgər kartı müvafiq bankdan artıq alıbsa, o zaman mesajda göstərilən bankın istənilən bankomatından vəsaitini əldə edə bilər. Almayıbsa, mesajda göstərilən bank filalına yaxınlaşaraq əvvəlcə kartını və sonra kart vasitəsilə bankomatdan vəsaitini əldə edir. May ayının sonuna qədər ödənişlər bütün kartlara köçürüləcək".

# Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçirəcək



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən mayın 18-dən 22-dək Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq.

Keçirilən təlimlər zamanı döyüş hazırlığı, əməliyyatların planlaşdırılması və hərtərəfli təminatı, müxtəlif qoşun növləri və qismlərinin idarəetmə orqanlarının qarşılıqlı əlaqəsi, həmçinin təlimlərin şərtlərinə uyğun olaraq yaradılan zərbə qruplaşmalarının atəş və manevr imkanları yoxlanılacaq. Təlimin niyyətinə əsasən düşmənin əməliyyat düzülüşünün bütün dərinliyindəki müəyyən istiqamətlərdə qoşunların tətbiqi, kütləvi raket və artilleriya, aviasiya bomba-həmlə zərbələrinin endirilməsi, həmçinin silahlanmada olan yüksək dəqiqliyə malik vasitələrin istifadəsi nəzərdə tutulur. Müxtəlif təlim mərkəzləri və poliqonlarda qoşunların praktiki fəaliyyətləri yoxlanılacaq.

# "Xalqla Prezident arasında bağlar çox möhkəmdir"



Azərbaycan bəllidir ki, uzunmüddətli sabitlik zolağındadır və artıq onillərdir Azərbaycanda siyasi sabitlik hökm sürür və bu da təsadüfi deyil, çünki Cənab Prezident İlham Əliyevin xalqa yönəlik siyasəti ona səbəb olub ki, Azərbaycan xalqı həqiqətən də normal bir hakimiyyətin, normal idarəetmənin olduğunu qət edib. Bu fikirləri SİA-ya müsahibəsində siyasi şərhçi Azər Həsrət deyib.

Siyasi şərhçinin sözlərinə görə, təbii ki, söhbət burada dövlət başçısının şəxsi keyfiyyətlərindən gedir və ona görə də Azərbaycan xalqı hakimiyyətin ən zirvəsindəki Cənab Prezidentlə öz arasında hansısa bir problem görmür.

"Xalqla Prezident arasında hər hansı uçurum yoxdur və təbiidir ki, qarşılıqlı anlaşma, qarşılıqlı sayqı var, üstəlik də Cənab Prezident xalqa çox yaxın, bütün vəzifəlilərdən daha yaxın bir şəxsiyyətdir. Ona görə də insanlar ona öz ürəklərini aça bilir, yəni ürək qızdıra bilirlər. Belə bir şəraitdə siyasi münasibətlərin də yeni müstəviyə keçməsi təbiidir. Yəni, Azərbaycan hakimiyyəti, təbiidir ki, Cənab Prezident İlham Əliyev xalqın etimadını qazandığına görə, dəstək aldığına görə, onun hərhansı siyasi, xüsusən də müxalif partiyalardan, qüvvələrdən çəkinməsi üçün bir səbəb yoxdur. Çünki, qeyd etdiyimiz kimi xalqla Prezident arasında bağlar çox möhkəmdir. Belə bir şəraitdə siyasi müstəvidəki münasibətlərə də yenidən baxılması vacibdir. O baxımdan Prezident Adminstrasiyasında artıq siyasi müxalif partiyalarla görüşlərin keçirilməsi, müxtəlif danışıqların aparılması və belə görüşlərin davam etdirilməsi barədə səsləndirilən fikirlər ondan xəbər verir ki, Azərbaycan hakimiyyəti həqiqətən də ölkənin məhz bu istiqamətdə davam etməsində maraqlıdır. Əslində belə bir istiqamət həm də xalqın ürəyincədir. Bu həmçinin siyasi müxalifətin özünü ifadə edə bilməsi üçün əlavə imkanlar deməkdir.

Doğrudan da bizim ölkəmizdə siyasi mövqeyinə görə hərhansı yasaq qoyulmur. Bəzi qüvvər çıxıb guya belə bir şeylərin olduğunu iddia edirlər, amma sübut, fakt ortaya qoya bilmirlər. Ona görə də Azərbaycan hakimiyyətinin bu davranışı, bu cür istiqamətdə hərəkət etməsi mənə elə gəlir ki, bizə qarşı olanların, bədxahlarımızın birdəfəlik səsini kəsəcək. Yəni, Azərbaycan demokratik, plüralist bir ölkədir və bu ölkədə siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşa eyni münasibət bəslənilir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev şəxsən özü dəfələrlə bəyan edib və əməllərində də hər zaman göstərir ki, o siyasi mövqeyindən asılı olmayaraq hər bir azərbaycanlının prezidentidir, hər bir vətəndaş onun üçün eyni dərəcədə dəyərlidir. O baxımdan mən düşünürəm ki, indi baş verməkdə olan siyasi proseslər bu münasibətlərin daha da möhkəmlənməsinə əlavə töhfə verəcəkdir", - deyə Azər Həsrət bildirib.

# Vüqar Rəhimzadə: Ermənistan faşizm ideologiyasını dövlət siyasətinə çevirib



***Ermənistanda faşizm ideologiyasının, etnik təmizləmə və terrorizmin dövlət siyasətinə çevrildiyini təsdiqləyən faktlar saysız-hesabsızdır. Bu faktların çoxluğu fonunda dünya birliyi tərəfindən işğalçı dövlətə hələ də hansısa bir təzyiqin göstərilməməsi Ermənistan hakimiyyətinin gündən-günə daha da ərköyünləşməsinə, ən əsası bu istiqamətdə üzə çıxan yeni faktlardan zərrə qədər də narahat olmamasına, əksinə, nasizmi əməli işdə dəstəkləməsi kimi məqamların açıq-aşkar nümayişinə səbəb olur.***

Hakimiyyətə gəldiyi gündən qeyri-adekvat addımları ilə siyasətdən nə qədər uzaq olduğunu, tarixi faktları əcdadlarının xislətinə uyğun saxtalaşdırmaq yolunu tutduğunu, hətta İkinci Dünya müharibəsində faşizm üzərində böyük Qələbənin 75 illiyi ərəfəsində insanlığa qənim kəsilmiş nasizm ideologiyasının qızğın təbliğatçısı olduğunu, utanıb-qızarmadan faşistlərə xidmət edən erməni sələflərinin ünvanına mədhiyyələr yağdırdığını nümayiş etdirən "demokrat libasına bürünmüş" baş nazir Nikol Paşinyan yenə də növbəti olayla gündəmin mövzusuna çevrilib. Belə ki, bir çox insanların sosial mediada müharibədə iştirak etmiş ata-babalarına aid foto və məlumatlar paylaşması axınına qoşulan Ermənistanın baş naziri Nikol Paşinyan bu paylaşımı ilə nəinki dünya ictimaiyyətinin, hətta öz ermənilərinin də sərt reaksiyası ilə üzləşib. Həmin paylaşım araşdırmaların aparılmasına və belə bir faktın açıqlanmasına səbəb olub ki, Paşinyanın bu gün adını daşıdığı gorbagor babası 1943-cü ildə Qaregin Njdenin legionunda Almaniya cəbhəsində vuruşub.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

İşğalçı ölkənin indiki qaragüruhçu hakimiyyətinin tarixi həqiqətin üzə çıxmasından ciddi narahatlıq keçirdiyini diqqətə çatdıran Vüqar Rəhimzadə bildirib ki, Ermənistan Müdafiə Nazirliyinin saytında dərhal bu faktı inkar edən məlumatın dərc olunması dünya və erməni ictimaiyyəti arasında müxtəlif fikirlərin yaranmasına səbəb olmaya bilməz: "Həmin gülünc məlumatda bildirilir ki, Yenokovan kəndindən müharibədə iki Nikol Paşinyan adlı şəxs iştirak edib. Onlardan biri SSRİ ordusunda, digəri isə düşmən cəbhədə olub. Baş nazirin babası faşistlərin tərəfdarı olmayıb. Bax, bu da növbəti erməni riyakarlığı, növbəti erməni fitnə-fəsadı! Bu günə qədər tarixi torpaqlarımızı öz adlarına çıxıb, Dağlıq Qarabağın Ermənistana məxsusluğunu həyasızcasına dilə gətirib, hətta sonralar müstəqil dövlət kimi fəaliyyət göstərdiyini iddia edən işğalçı ölkənin hoqqabaz, diletant rəhbərindən nəhayət özü ilə bağlı əsl həqiqətin üzə çıxmasından sonra utanıb-qızarmasını, faşizm ideologiyasının qurbanlarının doğmalarından və yaxınlarından üzr istəməsini, hətta ən azı məcburiyyət qarşısında qalıb tarixi faktları təsdiq etməsini gözləmək sadəlövhlük olardı".

V.Rəhimzadə qeyd edib ki, son illərdə işğalçı Ermənistanın mərkəzində və digər bölgələrində faşist canilərinin - "Njde" ləqəbli Qaregin Ter-Arutyunyan və "Dro" ləqəbli Drasmat Kanayanın heykəllərinin qoyulması faşizmə olan rəğbətin bariz nümunəsidir: "O da məlumdur ki, Ermənistan rəhbərliyinin bilavasitə iştirakı ilə İrəvan şəhərinin mərkəzində nasist Njdenin heykəlinin açılış oldu. Halbuki bu üzdəniraq "qəhrəman"ların alman nasistləri ilə sıx əlaqələri haqqında çoxlu sayda faktlar xarici ölkələrin arxivlərində kifayət qədərdir."

Baş redaktor bildirib ki, dövlətimizin başçısı İlham Əliyev istər beynəlxalq səviyyəli tədbirlərdə, istərsə də dünyanın nüfuzlu mətbu orqanlarına verdiyi müsahibələrdə daim bu məsələyə xüsusi diqqət yönəldir: "Prezident İlham Əliyev bu günlərdə Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsində də bildirdi ki, İkinci Dünya müharibəsində ermənilər faşistlərlə yaxından əməkdaşlıq edib, Ermənistan açıq-aşkar şəkildə faşizm təlimlərini yayır, faşizm cəlladlarını qəhrəmanlaşdırır. "Ermənistanda faşist canilərinin qəhrəmanlaşdırılması həyat normasına çevrilir", - söyləyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, bir neçə il bundan əvvəl Ermənistanda faşist cəllad və cani, Njde ləqəbi ilə məşhur olan Qaregin Ter-Arutyunyana 6 metr hündürlüyündə heykəl qoyulub. Bu adamın cinayətləri sübut olunub. Qələbənin 75 illiyi ərəfəsində həm Rusiya Federasiyası Xarici İşlər Nazirliyi, həm də Rusiya Federasiyası Müdafiə Nazirliyi tərəfindən dərc edilmiş sənədlər də buna sübutdur. Bu adam müharibə dövründə bildirmişdir ki, Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur. Njdenin təxribatçılıq fəaliyyəti çoxsaylı insanın ölümünə gətirib çıxarıb".

Vüqar Rəhimzadə deyib ki, dövlətimizin başçısının bu bəyanatları işğalçı ölkədə ciddi narahatlığa səbəb olduğundan Ermənistanın Xarici İşlər Nazirliyi bəyanat verib. Yenə də reallığın inkarı. Əvvəldə də qeyd etdiyimiz kimi, illər boyu tarixi saxtalaşdırmaq yolunu tutan bir dövlətin hər hansı bir məsələ ilə bağlı bəyanatının yalan və uydurma faktlar üzərində qurulması da adi haldır. Bəyanatda əksini tapan fikirlər faşizm üzərində Qələbəyə ləkə olmaqla yanaşı, həm də çox gülünc görünür. İddia olunur ki, guya Azərbaycan Qələbənin 75 illiyi münasibətilə antierməni siyasətini bu kontekstdə istifadə edir. Daim fakt qarşısında aciz qalan işğalçı dövlət bu gün də həmin acizliyini belə sərsəm bəyanatlar səsləndirməklə örtbasdır etməyə çalışır.

Baş redaktor diqqəti ölkə Prezidenti İlham Əliyevin ötən il "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında, eləcə də MDB Dövlət Başçıları Şurasının Aşqabad Sammitində çıxışı zamanı ermənilərə ünvanladığı tutarlı faktlara yönəldib: "Möhtərəm Prezidentimiz "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında Dağlıq Qarabağın və Azərbaycanın digər 7 rayonunun 25 ildən çoxdur erməni işğalı altında olduğunu diqqətə çatdıraraq Ermənistanın əsassız ərazi iddialarını tarixi faktlara əsaslanaraq ifşa etmişdir. Cənab İlham Əliyevin "Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı işğalçı dövlətə tutarlı cavab oldu. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində, eyni zamanda, digər beynəlxalq qurumların və dövlətlərin qərar və qətnamələrində Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğu əsaslı şəkildə qeyd olunur, eyni zamanda, erməni işğalçılarının bu ərazilərdən qeyd-şərtsiz çıxarılması tələb edilir. Amma beynəlxalq ictimaiyyətin obyektiv tələbinə məhəl qoymayan işğalçı Ermənistan qondarma "Dağlıq Qarabağ respublikasında" dünya birliyi tərəfindən qəbul olunmayan, beynəlxalq hüquq normalarına, demokratik dəyərlərə zidd addım kimi dəyərləndirilən "seçkilər" keçirməklə özünə təsəlli verməyə çalışır ki, guya bu ərazi onlara məxsusdur. Artıq dünya həqiqətə həqiqət gözü ilə baxmağın zamanı olduğunu atdığı addımları ilə təsdiqləyir. Dövlətimizin münaqişənin həllində mövqeyi dəyişməzdir: Münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz ədalətli həllini tapmalıdır. Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının Sammitində Prezident İlham Əliyev işğalçı Ermənistanın faşist ideologiyasını dövlət siyasətinə çevirdiyini bir daha dünyaya bəyan etmişdir. Möhtərəm Prezidentimiz bu məqamı da təəssüf hissi ilə qeyd etmişdir ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət İrəvanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. Cənab İlham Əliyev bu çağırışı etmişdir ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur."

V.Rəhimzadə vurğulayıb ki, bu gün arxiv sənədlərinin də Nikol Paşinyanın babasının faşistlərin tərəfindən döyüşdüyünü təsdiqlədiyi halda Ermənistan rəsmilərinin bu faktı inkar yolunu tutmaları dövlətimizin başçısı İlham Əliyevin Aşqabad Sammitində söylədiyi faktların qarşısında Nikol Paşinyanın bu canini müdafiə etməsini xatırlamağı zərurətə çevirir. O, Njdenin həbs düşərgəsində olmasını belə əsaslandırmışdı ki, Soljenitsin də həbs düşərgəsində olub. Bu iki şəxsin arasında müqayisə aparmağın özü heç bir məntiqə sığan addım deyil. Dövlətimizin başçısı həmin çıxışında Soljenitsını faşistlərin əlaltısı ilə müqayisə etməyin həyasızlığın yüksək dərəcəsi olduğunu bəyan etmişdir.

V.Rəhimzadə bu təhlillər əsasında belə bir qənaətə gəlir ki, işğalçı ölkədə hakimiyyətin dəyişməsinə baxmayaraq, yenə də əvvəlki rejimin mahiyyəti dəyişməz olaraq qalıb: "Bu günümüzün əsas tələbi Ermənistana dünya ictimaiyyəti tərəfindən çox sərt şəkildə "dur" söylənilməsidir. Nə qədər ki, Ermənistan bu təzyiqlərdən uzaqdır, belə faktların aşkarlanması onlar üçün adi hal olmaqla yanaşı, nə qədər qəribə görünsə də, hətta qürurvericidir".

## Mariya Zaxarova: "Azərbaycanla Ermənistan arasında əsirlərin dəyişdirilməsi hər zaman gündəmdədir"



Azərbaycanla Ermənistan arasında əsirlərin dəyişdirilməsi Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında dair aparılan danışıqlarda hər zaman gündəmdədir. Trend-in məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə deyib. XİN rəsmisi bildirib ki, həbsdə olanların yaxın qohumları tərəfindən ziyarət edilməsi ilə bağlı ötən il Moskvada qərar qəbul edilib: "ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə digər həbsdə olanların taleyi ilə bağlı məsləhətləşmələr davam etdirilir. Biz bunu diqqətdə saxlayacağıq".

Xatırladaq ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Yerevanın girov saxladığı azərbaycanlıların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsinə rəsmi Bakının hazır olduğunu bildirib.

## Müdafiə Nazirliyi: Azərbaycan Ordusunun keçirəcəyi genişmiqyaslı təlimlər Ermənistanın hərbi-siyasi rəhbərliyini qorxuya salıb

Azərbaycan Ordusunun keçirəcəyi genişmiqyaslı əməliyyat-taktiki təlimlər heç şübhəsiz Ermənistanın hərbi-siyasi rəhbərliyini qorxuya salıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirilib ki, ordumuz təlimləri ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində keçirir və burada beynəlxalq sənədlərin tələblərinin pozulmasından söhbət gedə bilməz. Bir daha bəyan edirik ki, Azərbaycan öz sərhədləri çərçivəsində istənilən sayda canlı qüvvə və müxtəlif döyüş texnikasını cəlb etməklə təlimlər keçirmək hüququna malikdir.

BMT Baş katibinin ümumdünya atəşkəsinə riayət etmək çağırışına istinad edən Ermənistan tərəfinə xatırladırıq ki, rəsmi Yerevan ilk növbədə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması barədə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tələblərini yerinə yetirməlidir.

Qeyd edək ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələrinin mütəmadi təlimlər keçirməsi, beynəlxalq qurumların nəzarətindən yayınaraq külli miqdarda silah-sursat, döyüş texnikası və digər hərbi vasitələri gizlətməsi məhz rəsmi Yerevanın beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən Vyana sənədinin əsas tələblərini kobud surətdə pozmasıdır.

Bildiririk ki, keçiriləcək təlimlərə Ermənistanın bu cür reaksiya verməsi, bir işğalçı dövlət kimi dünya ictimaiyyətinin və beynəlxalq qurumların diqqətini özündən yayındırmaq məqsədini güdür. Müdafiə Nazirliyi bəyan edir ki, düşmən hər hansı bir təxribata cəhd göstərərsə Azərbaycan Ordusu Ermənistan tərəfinin bu hərəkətinin qarşısını güc tətbiq etməklə dərhal və qətiyyətlə alacaqdır.

## Türkiyəli professor COVID-19-a qarşı peyvəndin hazırlanacağı vaxtı açıqladı



Boğaziçi Universitetində Molekulyar Biologiya və Genetika üzrə professor doktor Nəsrin Özərən yaxın müddətdə koronavirusa arşı peyvəndlərin hazırlanması üçün hüceyrə və heyvanlar üzərində təcrübələrə başlayacaqlarını söyləyib. SİA xəbər verir ki, professor COVID-19-la əlaqədar peyvənd işləri ilə əlaqədar açıqlamalar verib.

Onun sözlərinə görə, ən yaxşı ehtimalda 2021-ci ilin ən yaxşı peyvənd nümunəsi hazır olacaq və tezliklə hüceyrə və heyvanlar üzərində təcrübələrə başlanılacaq. Artıq iyun ayının əvvəlində heyvanlar üzərində təcrübəyə başlanılacaq. 2021-ci ilin sentyabr ayında peyvənd üçün ən yaxşı namizədin hazırlanması ehtimal olunur.

Professor qeyd edib ki, bundan əvvəlki heyvanlar üzərində təcrübələrdə müvəffəq olublar və bu baxımdan nəticələrdə 80-90 faiz uğur əldə edəcəklərini bildirib. Almaniya və İngiltərədə də aparılan peyvənd işləri haqqında danışan Özərən qeyd edib ki, həmin ölkələr öz vətəndaşları üçün peyvəndlər hazırlayacaqlar və bütün dünya əhalisi üçün vaksinlər istehsal etmək asan deyil.

# Korrupsiyaya qarşı mübarizə Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətidir

***Son vaxtlar cəmiyyətdə ən çox müzakirə olunan məsələlərdən biri də korrupsiyaya, rüşvətxorluğa bulaşan, müxtəlif əliəyriliklərə yol verən, vəzifə səlahiyyətlərindən sui-istifadə edən bəzi icra başçılarının, məmurların həbs olunmasıdır. Bu da təbiidir. Çünki vətəndaşlarımızın əksəriyyətinin gündəlik həyatı, cari işləri bu və ya digər şəkildə icra hakimiyyətləri, müxtəlif rəsmi qurumlarla əlaqəlidir.***

Onların necə fəaliyyət göstərməsi hər bir vətəndaşımızın yaşam tərzində özünü ehtiva edir. Və vətəndaşlar Prezident İlham Əliyevin hər zaman qanunlara zidd addımlar atan, dövlətin və vətəndaşların deyil ancaq öz şəxsi mənafelərini güdən icra başçılarına, məmurlara qarşı sərt tədbirlər görməklə yanaşı, bu məsələ ilə bağlı dəfələrlə fikirlərini bildirib, məmurlara açıq mesajlar verib, ciddi xəbərdarlıq edib. Prezident İlham Əliyev mayın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edərkən dövlət başçısı böyük bir təəssüf hissi ilə bildirdi ki, "əfsuslar ki, mənim sözlərim bəziləri üçün dərs olmadı və bunun nəticəsində indi Dövlət Təhlükəsizliyi Xidməti bir neçə əməliyyat keçirərək rüşvətxorları, yüksək vəzifə sahiblərini ifşa etdi və onlar artıq cinayət məsuliyyətinə cəlb edilmişlər. Ağstafa, Biləsuvar, Yevlax, Neftçala rayonlarının icra başçıları həbs edilmişdir, ictimaiyyətə bu məsələ ilə bağlı ətraflı məlumat verilmişdir və bundan sonra da ətraflı məlumat veriləcəkdir".

Və bu həqiqət də həmin məmurlara dərs olmadı. Çünki dövlət başçısı hər bir icra başçısı vəzifəyə təyin olunanda cənab Prezidentin ona əsas tapşırığı bu olur ki, "get, vətəndaşlara xidmət et, get, vətəndaşlarla bir yerdə ol, təmiz işlə, rüşvət alma, vətəndaşları incitmə, kömək göstər, eyni zamanda, sahibkarlara kömək göstər, onların malını əlindən alma, onların fəaliyyətindən özünə pay istəmə".

Lakin nəticədə nə baş verir? İcra başçılarının bəziləri Prezidentin onlara verdiyi tapşırığı unudur və yerlərdə özlərini xan kimi, padşah kimi aparmağa başlayırlar, dərəbəylik edirlər, rüşvətxorluq bu adamlar üçün əsas prinsipə çevrilir. Onların bəzilərinin məsuliyyətsizliyi və insafsızlığı hətta o dərəcəyə çatır ki, bu gün bu ağır karantin dövründə dövlətin imkansız, işsiz vətəndaşlara verdiyi yardımları da, fəhlələrə nəzərdə tutulmuş maaşı da öz ciblərinə qoymağa, ictimai təşkilatların və Heydər Əliyev Fondunun imkansız ailələrə göndərdiyi ərzağı da oğurlamağa, mənimsəməyə çalışırlar. Özbaşınalıq, nəzarətsizlik və korrupsiya halları bir çox sıravi insanlarımızı dövlət tərəfindən verilən yardımlardan faktiki olaraq məhrum edir. Və yaxud da ki, həbs edilmiş icra başçılarının, icra nümayəndəsinin iş otaqlarından, onların ciblərindən həmin o kasıb insanlara çatacaq kartlar çıxır. Əlbəttə, bu kimi neqativ halların siyahısını uzatmaq da olar. Ölkə başçısı da son çıxışında bunları detalları ilə qeyd etdi. Bəs bütün bunlara nə ad vermək olar?

### "Biz belə ünsürlərə qarşı bundan sonra da amansız mübarizə aparacağıq"

Bunu Prezident İlham Əliyev mayın 7-də Bakıda modul tipli ilk xəstəxana kompleksinin açılışından sonra tibb işçiləri ilə görüşü zamanı çıxışında deyib. Prezident İlham Əliyev qeyd edib ki, həkimlər öz həyatını, sağlamlığını, yaxınlarının sağlamlığını risk altına qoyurlar, xəstələrə gecə-gündüz xidmət edirlər: "Biz həkimlərin fədakarlığını yüksək qiymətləndiririk. Bir daha Azərbaycan xalqı gördü ki, ən çətin dövrdə, bu pandemiya dövründə aparıcı şəxs, aparıcı adam insanların həyatını qoruyan həkimdir. Əlbəttə, bütün başqa amillərlə bərabər, dövlət lazımi tədbirləri görür. Amma son nəticədə xəstələri müalicə edən, onları həyata qaytaran həkimlərdir. Həkimlər gecə-gündüz işləyirlər, insanları xilas edirlər. Bu xəstəlikdən canını qurtaran bütün pasiyentlər, ilk növbədə, həkimlərə minnətdar olmalıdırlar. Bizim polis əməkdaşları, Daxili Qoşunların əməkdaşları gecə-gündüz küçələrdədir, həyatlarını risk altına atırlar, camaatı başa salmağa çalışırlar. İndi onların əməyini yerə vurmamalıyıq".

### "Bizim siyasətimizin əsas hissəsindən biridir ki, qanunun aliliyi, bərabərlik daim bərqərar olmalıdır"

Dövlət başçısı, həmçinin bildirdi ki, pandemiya qarşısında hamı bərabərdir: "Nəyə görə kimsə özü üçün hansısa xüsusi imtiyaz yaratmaq istəyir. Buna gəldikdə də bildirməliyəm, pandemiya bütün dünyaya göstərdi ki, bu xəstəlik qarşısında hamı bərabərdir. Heç kimə heç bir imtiyaz verilmir və verilməyəcək. Bu, bizim siyasətimizin əsas hissəsindən biridir ki, qanunun aliliyi, bərabərlik daim bərqərar olmalıdır. Ona görə heç kimə heç bir imtiyaz verilməyəcək. Odur ki, karantin rejimini pozan, vaxtını hansısa iaşə obyektində keçirmək istəyən adamlara qarşı da, - onlar müəyyən olunduqda, - ciddi cəza tədbirləri görülür, tətbiq olunur, o cümlədən vəzifəli şəxslərə qarşı. Karantin rejimini pozduqlarına görə artıq bir neçəsi cəzalandırıldı".

### "Əfsuslar olsun ki, biz bu vəziyyətdə milli xainlərin də üzünü gördük"

Prezident belə bir vəziyyətdə məmurların kasıb malına göz tikməsin vicdansızlıq, xəyanət adlandırdı: "Eyni zamanda, əfsuslar olsun ki, biz bu vəziyyətdə milli xainlərin də üzünü gördük. Kasıbın malına, ərzaq payına göz dikən xaindir, bunun başqa adı yoxdur. Bu, oğurluq deyil, bu, kiçik bir cinayət deyil. Heydər Əliyev Fondu tərəfindən göndərilən ərzaq paylarına sahib çıxmaq istəyən vəzifəli şəxslərin hərəkətinə nə demək olar? Ancaq xəyanət. Mən demişəm, bir daha demək istəyirəm ki, bir çoxları pandemiyanı müharibə adlandırırlar. Müharibə, əslində, göz qabağındadır. Bu şəraitdə belə adamlara nə ad vermək olar? Ona görə bu adamların cəzalandırılması qaçılmazdır. Eyni zamanda, indiki şəraitdə xüsusilə kasıb adamların maaşını mənimsəmək, ictimai işlərə cəlb edilən vətəndaşların ödəniş kartlarını götürüb ondan pul çəkmək, bu da xəyanətdir. Son müddətdə həbs olunan icra başçılarının beşi də bu bəd əməllərdə təqsirləndirilir. Son həbslər də onu göstərir. O icra başçılarının, onların yaxınlarının, köməkçilərinin iş otaqlarından yüzlərlə ödəmə kartı çıxıb, yüzlərlə. Mənə verilən məlumata görə, son tutulan icra başçısının iş otağından 140 ödəmə kartı çıxıb. Bu, nədir? Biz bu kartı özünə iş tapa bilməyənlərə veririk. Əvvəl də verirdik. Biz ildə otuz min, qırx min belə adamı ictimai işlərə cəlb edirdik - hansısa binanın rənglənməsi, yaxud da ki, onların bağçaya xidmət etməsi və digər işlərə. Onlar minimum əməkhaqqı səviyyəsində maaş alırdılar, bu gün 250 manat. Amma onlara çatacaq kartlar icra başçıları tərəfindən götürülür, sonra o pullar mənimsənilir. Kasıb adamlar da işsiz və pulsuz qalır. Bu, adi cinayətdirmi? Yox. Bu, xəyanətdir. Bunun başqa adı yoxdur. İndiki şəraitdə də bunu davam etdirirlər. Bu adamlarda vicdan deyilən şey yoxdur, vicdanı tam itiriblər. Biz belə ünsürlərə qarşı bundan sonra da amansız mübarizə aparacağıq. Bu gün cəmiyyətimizin bütün sağlam qüvvələri bir amal ətrafında birləşib ki, bu vəziyyətdən az itkilərlə çıxaq, insanları qoruyaq, xəstələri sağaldaq. Həkimləri qoruyaq ki, onlar insanları qorusunlar, özlərini qorusunlar. Ona görə belə bir vəziyyətdə belə çirkin addımların atılması tamamilə qəbuledilməzdir. Bir daha demək istəyirəm ki, bu addımları atanlar, bu cinayətləri törədənlər layiqli cəzalarını alacaqlar".

Göründüyü kimi, şübhəsiz ki, bu hərəkətlər həm cinayətdir, həm də böyük vicdansızlıqdır, mənəviyyatsızlıqdır, xəyanətdir. Və onların hər birinin öz layiqli cəzasını alacağı qeydsiz-şərtsizdir.

### Siyavuş Novruzov: "Mərkəzi icra hakimiyyəti orqanları ilə bağlı da addımlar olacaq, ölçü götürüləcək"



YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov belə məmurların cəzası ciddi olmalıdır. S.Novruzov onu da bildirib ki, həbs olunan icra başçıları ilə yanaşı, həmin rayonların hüquq-mühafizə orqanlarının əməkdaşları da məsuliyyətə cəlb olunmalıdır: "Mən hakimlərin təyinatı ilə bağlı müzakirələr olarkən də məsələ qaldırmışdım ki, qərarların verilməsində bir az diqqətli olsunlar. Mülkiyyət münasibətləri dəyişib. Bir nəfərin ərizəsi əsasında götürüb birinin mülkiyyətini başqasına vermək olmaz. Mülkiyyət çox ciddi məsələdir. Bu, ölkənin, xalqın ənənəsidir, irsən gələn məsələdir, bunu dəyişmək olmaz. Kiminsə qolu qüvvətlidirsə, zorla kiminsə əmlakını tutub ala bilməz. Amma bununla yanaşı, orada fəaliyyət göstərən hüquq-mühafizə orqanları ilk növbədə özlərinin rəhbərliyinə bu barədə geniş arayışlar təqdim etməlidirlər. Onlar bəhanə gətirə bilərlər ki, icra hakimiyyətinin başçısıdır, buna gücləri çata bilməz... Amma bunlar öz rəhbərliyini məlumatlandırmalıydılar. Rəhbərlik də ölkə başçısına məlumat verməliydi ki, filan rayonda bu hadisələr baş verir, əhalini ciddi şəkildə narahat edirlər, əhalini dövlətdən, dövlətin siyasətindən narazı salırlar. Bununla bağlı da lazımi ölçülər vaxtında götürülsəydi, nə o icra başçısı həbs olunardı, nə insanların haqqı o dərəcədə pozulardı. Biləsuvarda bir gündə bunları eləməyib, yaxud koronovirus dövründə olmayıb ki... O torpaqların alınması yəqin illər boyunca olub. 150 sahibkar iddia edir. İndi onların neçəsi haqlıdır, neçəsi haqsızdır, bununla bağlı araşdırmalar gedir. Bəlkə də eləsi var ki, torpağını satıb, indi deyir başçı əlimdən alıb. Belə hallar olur. Şikayətlər daxil olur, araşdırırsan ki, oğul gedib torpağı hansısa sahibkara, ya başqasına satıb, atası, ya qardaşı gəlib şikayət edir. Ortaya nəticə çıxır ki, vəsaiti bölə bilməyiblər. Amma bununla yanaşı, belə neqativ hallar var idisə, hüquq-mühafizə orqanlarının bir funksiyası da dərhal ölkə rəhbərliyini məlumatlandırmaq idi".

S.Novruzov onu da deyib ki, dövlət başçısı da çıxışında cəzalandırılanların yalnız icra başçıları olmayacaqlarını bildirib: "Təbii ki, mərkəzi icra hakimiyyəti orqanları ilə bağlı da addımlar olacaq. Cənab Prezident baş prokuroru təyin edəndə bu məsələ ilə bağlı tövsiyələrini verdi. Çatan siqnalları da qeyd elədi ki, mərkəzi icra hakimiyyəti orqanlarında müxtəlif şirnikləndirmə ilə işə götürürlər, başqa-başqa addımlar atırlar. Bununla bağlı da siqnallar daxil olduğunu qeyd etdi. Yəqin ki, bu məsələlərlə bağlı ölçülərin götürülməsinin şahidi olacağıq. ...Prezident hələ bir neçə il bundan qabaq müşavirələrin birində qeyd etdi ki, bu cür işləyən adamlar təkcə işdən çıxarılmayacaq, həm də ciddi şəkildə cəzalandırılacaq. Bu gün də onun nəticəsini görürük".

### Məşhur Məmmədov: "Ölkəmizdə korrupsiyaya qarşı ciddi mübarizə var, heç kim qanundan üstün deyil"

Bu fikri Milli Məclisin deputatı Məşhur Məmmədov bildirərəkən qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yeni Baş prokuror Kamran Əliyevi qəbul edərkən prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi və islahatların dərinləşməsi istiqamətində konkret istiqamətləri diqqətə çatdırdığını və hüquq mühafizə orqanlarını da bu məsələdə ciddi olmağa səslədi: "Cənab Prezident hər zaman bildirir ki, bu səhvə yol verənlərə güzəşt edilməyəcək, kimsə nəyəsə, kimsə və ya əvvəlki xidmətlərinə arxayın olmamalıdır. Prezident İlham Əliyev Baş prokuror Kamran Əliyevi videoformatda qəbulunda da bu məsələyə toxunaraq nazirliklər, icra orqanlarında bu kimi siqnalların olduğunu və hazırda bu istiqamətdə yoxlamaların aparıldığını bildirdi. Və hər bir məmur Prezident İlham Əliyevin xəbərdarlıqlarına riayət etməli, qanunları pozmamalıdırlar. Çünki edilən hər hansı bir cinayət sonda cəzasız qalmır".

Deputat onu da bildirib ki, ölkə başçısının tapşırığı ilə Dövlət Təhlükəsizliyi Xidmətinin həyata keçirdiyi əməliyyatlar, Neftçala, Biləsuvar, Ağstafa, Yevlax, imişli rayonlarının icra başçılarının həbs edilməsi bir daha göstərdi ki, ölkəmizdə korrupsiyaya qarşı ciddi mübarizə var, heç kim qanundan üstün deyil: "Ölkə başçısı çıxışlarında dəfələrə qeyd edib ki, yerli icra hakimiyyəti orqanlarının başçılarının bir vəzifəsi var - vətəndaşlara xidmət etmək, onların problemlərinə qulaq asıb, həll etmək. Lakin hər



hansı vəzifəyə təyin olunan məmur nə edir? Şəxsi maraqlarını dövlət maraqlarından üstün tuturlar. Buna görə Prezidentin siyasətinə kölgə salanları heç bir dostluq, tanışlıq və ya keçmiş xidmət məsuliyyətdən qurtarmayacaq. Hesab edirəm ki, bütün vəzifəli şəxslər ölkə başçısının çıxışından bir daha nəticə çıxarmalı və onun göstərdiyi prinsiplərə uyğun fəaliyyətlərini qurmalıdırlar. İndiki dönəmdə, ölkə başçımızın qeyd etdiyi kimi, bəzi məmurlar qanunsuzluqlara yol verir, hətta imkansız ailələr üçün ayrılmış ərzaq yardımlarını mənimsəməkdən belə çəkinmirlər. Həqiqətən də belə hərəkətlər vicdansızlıqdır. Bu yolun yolçuları layiq olduqları cəzanı almalıdırlar və alırlar. Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva modul tipli xəstəxana kompleksinin açılışında tibb işçiləri ilə görüşü zamanı karantin vəziyyətdə milli xainlərin cinayət əməllərindən danışaraq belə ünsürlərə qarşı bundan sonra da amansız mübarizə aparılacağını dedi: "Bu adamlarda vicdan deyilən şey yoxdur, vicdanı tam itiriblər. Biz belə ünsürlərə qarşı bundan sonra da amansız mübarizə aparacağıq. Bu gün cəmiyyətimizin bütün sağlam qüvvələri bir amal ətrafında birləşib ki, bu vəziyyətdən az itkilərlə çıxaq, insanları qoruyaq, xəstələri sağaldaq. Həkimləri qoruyaq ki, onlar insanları qorusunlar, özlərini qorusunlar. Ona görə belə bir vəziyyətdə belə çirkin addımların atılması tamamilə qəbuledilməzdir. Bir daha demək istəyirəm ki, bu addımları atanlar, bu cinayətləri törədənlər layiqli cəzalarını alacaqlar".

Göründüyü kimi, bu cür kütləvi hal almış rəzil əməllər həm cinayətdir, həm də böyük vicdansızlıqdır, mənəviyyatsızlıqdır və. Və bu cür kütləvi hal almış rəzil əməllər cəzasız qala bilməz. Onların hər birinin öz layiqli cəzasını alacağı qeydsiz-şərtsizdir və heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Çünki qanun şahdır, şah qanun deyil.

***Rəfiqə Kamalqızı***

# Qənirə Paşayeva: "Dövlətimizin könüllülük hərəkatına dəstəyi gənclərimiz üçün yeni imkanlar yaratdı"



Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli kadrların yetişdirilməsindən, gənclərin cəmiyyətin bütün sferalarında iştirakından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətini Prezident İlham Əliyevin uğurla davam etdirməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirak edirlər.

Bu sözləri AZƏRTAC-a Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib. Qənirə Paşayeva qeyd edib ki, ölkəmizdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, sağlamlığının qorunmasına xüsusi diqqət və qayğı ilə yanaşılır. Prezident İlham Əliyev gənclərə malik olduqları qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verərək onlara daim böyük diqqət və qayğı göstərir. Ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha dolğun istifadə edilməsi, həmçinin bunun üçün əlverişli şəraitin yaradılması gənclər siyasətinin əsasını təşkil edir.

Mədəniyyət komitəsinin sədri diqqətə çatdırıb ki, gənclər siyasətinin bariz nümunələrindən biri də Azərbaycanda sürətlə inkişaf edən könüllülük hərəkatıdır. 2020-ci ilin Azərbaycan Prezidentinin Sərəncamı ilə "Könüllülər ili" elan olunması heç də təsadüfi deyil. Gənclərimiz bu hərəkatda çox fəal iştirak edir, öz töhfələrini verirlər. 2012-ci il dekabrın 29-da 1 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışı zamanı bir qrup ASAN könüllüsü ilə görüşən Prezident İlham Əliyev "ASAN" könüllülük hərəkatına öz xeyir duasını verdi. Bir könüllülük hərəkatı olaraq bu fəaliyyət ASAN-dan başlayır. Dövlət başçısının da qeyd etdiyi kimi, "ASAN xidmət"i könüllülər hərəkatından ayırmaq mümkün deyil. Azərbaycan Prezidenti tərəfindən bu nəcib fəaliyyətə göstərilən dəstək ölkəmizdə könüllülük hərəkatının inkişafına təkan verdi, gənclərə böyük imkan və fürsətlər yaratdı.

Deputat bildirib ki, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına cavab olaraq, ölkəmizdə fəaliyyət göstərən könüllü təşkilatları və hərəkatları tərəfindən Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzinin (AKƏM) yaradılması da bu istiqamətdə aparılan işlərin nəticəsidir. Yeni növ koronavirus infeksiyasının yarada biləcəyi təhlükə ilə mübarizədə dövlət tərəfindən həyata keçirilən tədbirlərin dəstəklənməsi məqsədilə 27 mart 2020-ci il tarixində formalaşan mərkəz xəstəliklə mübarizədə aktiv fəaliyyət göstərir. Mərkəzin işinin əlaqələndirilməsi Gənclər Fondu tərəfindən həyata keçirilir.

AKƏM-in fəaliyyətini yüksək qiymətləndirən deputat qeyd edib ki, mərkəzin himayəsi ilə keçirilən aksiyalar çərçivəsində könüllülər tənha yaşlılara, aztəminatlı ailələrə baş çəkir, onların zəruri ehtiyaclarının qarşılanmasına kömək göstərir, həmçinin koronavirus infeksiyası ilə əlaqədar yaranmış qan qıtlığının aradan qaldırılması və təcili qana ehtiyacı olan şəxslərin həyatının xilası üçün fədakarlıq göstərirlər. Qısa zamanda AKƏM tərəfindən respublikanın demək olar ki, bütün şəhər və rayonlarında könüllülər səfərbər olunub, onların əlaqələndirilməsi və lazımi fəaliyyətlərə yönləndirilməsi həyata keçirilib.

Ahıllara qayğının xalqımızın nəcib keyfiyyətlərindən biri olduğunu diqqətə çatdıran Qənirə Paşayeva bu ənənənin gənclər tərəfindən davam etdirildiyini vurğulayıb. Bildirib ki, gənc könüllülərimiz "Böyüklərimizi qoruyaq!" devizi altında paytaxt və regionlarda minlərlə tənha ahılların, aztəminatlı ailələrin, şəhid ailələrinin, fiziki məhdudiyyəti olan şəxslərin evlərinə baş çəkərək tələbatlarının ödənilməsində kömək göstəriblər. Ümumilikdə ölkəmizin 28 şəhər və rayonunda minə yaxın könüllü fəaliyyətə cəlb olunaraq həssas kateqoriyadan olan 6254 ailəyə dəstək göstərilməsində iştirak edib.

Deputat qeyd edib ki, aprelin 8-dən start verilən "Könüllü qonşu" aksiyası çərçivəsində 44 şəhər və rayonda könüllülər tərəfindən məhəllə və binaların girişində xüsusi elanlar vasitəsilə əlaqə nömrələri paylaşılıb, ehtiyacı olan şəxslər barədə məlumat verilməsi xahiş edilib. Daxil olan zənglər əsasında könüllülər vətəndaşların öz vəsaiti hesabına gündəlik ərzaq məhsullarının, dərman vasitələrinin alınmasına və kommunal ödənişlərinin həyata keçirilməsinə yardım ediblər.

AKƏM çərçivəsində digər bir layihə ölkədə qan qıtlığı səbəbindən talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən, təcili əməliyyata və bununla əlaqədar qana ehtiyacı olan şəxslərin həyatı üçün yaranan təhlükənin aradan qaldırılmasında könüllülərin iştirakı ilə bağlıdır. Könüllülər aprelin 8-dən Milli Hematologiya və Transfuziologiya Mərkəzi - Qan Bankı ilə birlikdə "Könüllü donor" aksiyasına qoşularaq fəal iştirak ediblər.

"Könüllülüyün həqiqətən də könül işi olduğunu sübut edən gənclərin fəaliyyəti bununla yekunlaşmır. Onlar əhali arasında pandemiya ilə bağlı maarifləndirmə işlərinin aparılması, küçədə maskasız gəzən şəxslərə tibbi maskaların paylanması, həmçinin günümüzün görünməyən qəhrəmanları olan polis və tibb işçilərinə könüllülər adından təşəkkür mesajlarının çatdırılmasında da böyük həvəslə iştirak edirlər. Gənclərimiz bizim ümid yerimiz və gələcəyimizdir", - deyə Qənirə Paşayeva bildirib.

# Azərbaycanın və Belarusun Xarici İşlər nazirləri arasında telefon danışığı olub



Mayın 13-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov və Belarus Respublikasının Xarici İşlər naziri Vladimir Makei arasında telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, hazırkı qlobal vəziyyətə toxunan nazirlər COVID-19 qlobal pandemiyası ilə mübarizə çərçivəsində ölkələr tərəfindən həyata keçirilən tədbirlər üzrə fikir mübadiləsi aparıb və bu xüsusda, beynəlxalq həmrəyliyin əhəmiyyətini vurğulayıblar.

Telefon danışığı zamanı tərəflər ikitərəfli münasibətlərin gələcək inkişaf perspektivlərini müzakirə edib və iki ölkə arasında mövcud olan siyasi münasibətlərin yüksək səviyyəsini məmnunluqla qeyd ediblər. Pandemiyaya baxmayaraq, ticari-iqtisadi münasibətlərin saxlanılması və daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Həmçinin nəqliyyat, logistika və enerji sahələrində birgə layihələrin həyata keçirilməsi və qarşılıqlı fəaliyyət məsələlərinə toxunulub.

Nazirlər beynəlxalq təşkilatlar çərçivəsində BMT, MDB, həmçinin Avropa İttifaqı ilə, o cümlədən Şərq Tərəfdaşlığı çərçivəsində münasibətlər daxil olmaqla, həyata keçirilən əməkdaşlıq və birgə addımları müzakirə ediblər. Söhbət zamanı müxtəlif səviyyələrdə ikitərəfli əlaqələrin gələcək gündəliyi müzakirə olunub. COVID-19 pandemiyası ilə bağlı bütün məhdudiyyətlərin aradan qaldırılmasından sonra təmasların gələcəkdə davam etdirilməsinə dair razılıq ifadə olunub.

# Arzu Nağıyev: "Gənclərimiz Prezidentin çağırışına qoşularaq könüllülük fəaliyyətində aktiv iştirak edirlər"



Gənclərimiz Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışına qoşularaq könüllülük fəaliyyətində aktiv iştirak edirlər. Bunu Trend-ə Milli Məclisin deputatı Arzu Nağıyev deyib.

Millət vəkili bildirib ki, bu, çox mühüm bir məsələdir. Bu çağırışlara cavab olaraq ölkəmizdə fəaliyyət göstərən könüllü təşkilatları və hərəkatları tərəfindən Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi (AKƏM) yaradılıb və bu mərkəz fəaliyyətini davam etdirməkdədir: "Koronavirus pandemiyası vaxtı karantin rejimində könüllülərin fəaliyyəti müxtəlif istiqamətlərə yönəldilib və "ASAN Könüllüləri" Gənclər Təşkilatı, "Regional İnkişaf" İctimai Birliyi, "Bir Tələbə-Könüllü" Proqramı və digər çoxsaylı könüllü təşkilatları aktiv fəaliyyət göstərib. Azərbaycan könüllüləri AKƏM vasitəsilə tənha yaşlılara köməklik göstərir, koronavirus infeksiyası ilə əlaqədar yaranan qan qıtlığı nəticəsində qana ehtiyacı olan şəxslərin həyatı üçün təhlükənin aradan qaldırılmasına mühüm töhfələr verir, aztəminatlı ailələrə baş çəkir. Yəni qısa bir zamanda bu mərkəz tərəfindən respublikanın demək olar ki, bütün şəhər və rayonlarında könüllülər səfərbər olunublar. Onlar müxtəlif istiqamətlərdə aktiv fəaliyyət göstərirlər. Könüllülər "böyüklərimizi qoruyaq" devizi altında istər rayonlarda, istərsə də Bakıda fiziki məhdudiyyəti olan insanların ünvanına baş çəkir, aztəminatlı və şəhid ailələri ilə görüşüb, onlara müxtəlif ərzaq və gündəlik tələbat məhsullarından ibarət bağlamalar çatdırırlar. Bu gün 28 şəhər və rayonda minə yaxın könüllü 6 250-dən çox ailəyə dəstək göstərilməsində iştirak ediblər.

Eyni zamanda "Könüllü qonşu" aksiyası çərçivəsində 40-dan çox rayonda könüllülər tərəfindən məhəllə və binaların girişində xüsusi elanlar vasitəsilə əlaqə nömrələri paylanılıb ki, kim istəsə onlara müraciət edə bilsin. Həmçinin zənglər əsasında könüllülər vətəndaşların öz vəsaiti hesabına gündəlik ərzaq məhsulları alıb onlara verə bilərlər".

Deputat əlavə edib ki, AKƏM çərçivəsində digər bir layihə ölkədə qan qıtlığı səbəbindən talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən, təcili əməliyyat olunmalı və bununla əlaqədar qana ehtiyacı olan şəxslərin həyatı üçün yaranan təhlükənin aradan qaldırılmasına könüllülərin iştirakı ilə bağlı oldu: "Təhlükənin aradan qaldırılmasında könüllülərin iştirakı ilə bağlı olub. 8 aprel tarixində Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi ilə Milli Hematologiya və Transfuziologiya Mərkəzi-Qan Bankı birlikdə "Könüllü Donor" aksiyasına start veriblər. Qan Bankının paytaxtda və regionlarda yerləşən bölmələrində bu aksiyalar təşkil olunub və könüllülər burada fəal iştirak ediblər.

Bu gün gənclər pandemiya ilə bağlı maarifləndirmə işləri də aparırlar və burada əsas məqsəd bu vəziyyətdən daha az itki ilə çıxmaq, insanların rifahı üçün çalışmaq və könüllülər vasitəsilə həssas təbəqədən olan insanlara köməklik göstərməkdir".

# "Hər bir erməni faşist təfəkkürünün daşıyıcısı olub və indi də elədir"



"Ermənilərin faşistlərlə əlaqələri dünya tədqiqatçılarının ən çox araşdırdığı məsələlərdən biridir və bu barədə çoxlu kitablar, tədqiqat əsərləri yazılıb. Hətta ABŞ və Avropa ölkələrində də bu barədə xeyli mənbələrdən məlumat əldə etmək olar. Paşinyanın babasının faşistlərlə əməkdaşlığı təəccüblü deyil. Hər bir erməni faşist təfəkkürünün daşıyıcısı olub və indi də elədir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Nəzakət Məmmədova deyib.

O bildirib ki, faşizmin milliyyəti yoxdur və bu əqidəyə qulluq edən hər bir toplum faşistdir: "Bu baxımdan II dünya müharibəsi zamanı ermənilərin faşist legionlarında qulluq etməsi faktı xüsusilə indiki zamanda aktualdır, çünki faşist təfəkkürünün daşıyıcısı olan terrorçu ermənilər torpağımızı işğal ediblər və bununla fəxr edirlər. İndiki Ermənistan rəhbərliyi də demokratiya şüarı ilə hakimiyyətə gəlməsinə baxmayaraq, öz siyasətini həmin ideoloji xətt üzərində həyata keçirir. Ermənistanın istər sovet, istər kağız üzərində müstəqil olduğu 1991-ci ildən bəri hakimiyyətdə olmuş bütün qüvvələri bu ideologiyaya xidmət edir".

Politoloq söyləyib ki, yalnız Paşinyan istisna təşkil etdiyini sübut etməyə çalışsa da, bu günlərdə məlum oldu ki, ən böyük faşist elə onun öz əcdadlarıdır və o da bu yolu davam etdirir: "Heç Hitler və Yeva Braun cəsarət edib almanların işğal etdiyi ərazilərə gedib Paşinyanın bugünkü Şuşada etdiyi həyasızlığı etmirdi, nəinki Paşinyan və onun sülhdən dəm vurub sonra da hərbi paltar geyinib yallı gedən arvadı Anna Akopyan". N. Məmmədova qeyd edib ki, öz xalqının gözünə kül üfürmək üçün Paşinyan və arvadı Şuşada yallı getmək, hərbi paltarla işğal olunmuş bölgəmizə gəlmək kimi ucuz piarla öz reytinqini qaldırmağa çalışır: "İndi məlum oldu ki, Köçəryan və Sarkisyan müasir erməni faşizminin icraçılarıdırsa, Paşinyan da bu nəsildən gələn ənənədir və o, bunu davam etdirir. Njdeyə abidə qoyan ölkənin faşist nəslinin davamçısı Paşinyan kimi baş nazirinin olması elə Ermənistana yaraşan məsələdir".

***Nailə Məhərrəmova***

# Sağlam ailə cəmiyyətin əsasını təşkil edir

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyevanın yap.org.az-a musahibəsi

***- Aynur xanım, bu gün dünyada ailə institutu bir böhran yaşayır. Ölkəmizdə bu vəziyyəti müqayisə etsək, hansı mənzərəni müşahidə edə bilərik?***

- İlk növbədə onu demək istəyirəm ki, ailə hər bir cəmiyyətin, dövlətin özəyi olmaqla yanaşı, həm də milli-mənəvi dəyərlərin daşıyıcısıdır. Hazırda qloballaşma şəraitində ailənin sosial statusu haqqında bir çox müxtəlif fikirlər yaranmışdır. Belə ki, ailə lazımdırmı, ailənin mahiyyəti nədən ibarətdir, ailə şəxsiyyətin və cəmiyyətin inkişafına necə təsir göstərir və bu təsir nədən ibarətdir, bu və digər suallar ən çox müzakirə edilən məsələlərdəndir. Əgər biz Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə istinad etsək, görərik ki, bu bəyannamə hər bir insanın eyni hüquqlara sahib olması fikrinə əsaslanan ilk beynəlxalq sənədlərdən biridir. Və bu sənədin əsas məqsədi dünyada sülhə nail olmaqdır ki, buna hazırda bütün bəşəriyyətin ehtiyacı var. Sülh isə ailədən başlayır. Əgər ailə sağlam təməl, qarşılıqlı hörmət və məhəbbət üzərində qurulursa, hər bir ailə üzvünün hüququna anlayışla yanaşılırsa, əlbəttə ki, bu ailədə doğulan, təlim-tərbiyə alan insan əxlaqlı, savadlı, mədəni, qurucu olacaqdır. Belə insan ailəsinə və dövlətinə layiqli şəxsiyyət və vətəndaş olacaqdır. Lakin əgər ailə başqa məqsədlər əsasında qurulursa, davamlı olaraq qarşılıqlı ittihamlar, zorakılıqlar baş verərsə, əlbəttə ki, burada böyüyən insan da qurucu deyil, dağıdıcı olacaqdır, o nə özü, nə ailəsi, nə də dövləti üçün fayda verməyən varlığa çevriləcəkdir. Bu fikirləri qeyd etməkdə məqsədim bir daha ailənin insan üçün, cəmiyyət üçün nə qədər önəmli olduğunu vurğulamaqdır.

Bu gün dünyaya nəzər salsaq görərik ki, ənənəvi ölkələrdə ailə dəyərləri daha davamlı və möhkəmdir. Digər ölkələrdə isə məsələn Qərb ölkələrində bu gün boşanmaların sayının artması, təkvalideynli ailələr, övladsız ailələr, artıq bir çox ölkələrdə hüquqi razılıq verilən həmcinsli "ailələr" cəmiyyətin gələcəyini böyük sual altına qoyur və ailə dəyərlərinin mənəvi aşınmasına səbəb olur. Artıq demoqraflar bir sıra Avropa ölkələri üçün həyacan təbili çalırlar. Əfsuslar olsun ki, bəzən bütün dünyada bu mənfi tendensiyaların genişləndirilməsinə səy göstərilir və bu tendensiyadan yan qaçmaq istəyən və alternativ yollar axtaran ölkələrə təzyiqlər edilir. Bu təhlükələri daha geniş və tam dərinliyi ilə görən cənab Prezident İlham Əliyev BDU-nun 100 illik yubileyi mərasimində bu məsələni xüsusi olaraq vurğulamışdır. Ölkə başçısı proqram xarakterli çıxışında qeyd etmişdir ki, "Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə eləməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözlər çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, "Stop İslam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır..." Bu vətəndaşlarımıza bir çağırışdır, bu bir müraciətdir ki, biz öz dəyərlərimizə sahib çıxmalıyıq, qorumalıyıq.



***- Dövlətin ailə siyasəti ailələrimizin uzunömürlü və uğurlu olmasında nə kimi rol oynayır?***

- Ailə məsələləri ilə bağlı dövlət siyasətinin əsas prinsipləri Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən olunmuşdur. Bu siyasət bu gün də uğurla davam etdirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın milli dəyərləri və müasirliyi özündə birləşdirən ailə modelinin yorulmaz təbliğatçısı kimi bu sahədə fəaliyyəti örnəkdir.

Azərbaycan dövləti ailə institutunun qorunması istiqamətində güclü qanunvericilik bazasına malikdir. Azərbaycanın iqtisadi imkanlarının artması isə ailələrin rifah halının yüksəlməsi istiqamətində mühüm dövlət proqramları, sosial layihələrin həyata keçirilməsinə şərait yaratmışdır. İmzalanan fərman və sərəncamlar əsasında reallaşdırılan böyük sosial tədbirlər paketi bütün kateqoriyalardan, xüsusən də həssas kateqoriyalardan ailələrdən olan vətəndaşlarımızın rifah halının yaxşılaşmasına səbəb olmuşdur. Sosial infrastrukturun inkişafı göz önündədir. Nə qədər məktəb, tibb müəssisəsi, idman və gənclər mərkəzləri əsaslı təmir edilib və ya yenidən tikilib. Azərbaycanın inkişafını beynəlxalq reytinq təşkilatları da təsdiq edirlər. Ən mötəbər hesabatlarda Azərbaycanı islahatçı ölkə olaraq irəliləməsi dediklərimizin əyani sübutudur. Açılan iş yerləri, yaradılan müasir infrastruktur, həyata keçirilən sosial islahatlar, vətəndaşların rifah halının yaxşılaşdırılması ailələrin daha da güclənməsinə gətirib çıxarmışdır. Ana və uşaq ölümünün, küçə uşaqları, erkən nikah və uşaqlara qarşı zorakılıq faktlarının azalması dövlətin apardığı uğurlu siyasətin nəticəsidir.

Hazırda hər bir dövlət COVİD-19 pandemiyası ilə mübarizə aparır və çalışır ki, öz vətəndaşını maksimim ağır vəziyyətdən minimum itkilərlə çıxarsın. Prezident İlham Əliyevin rəhbərliyi ilə hökumətimiz koronavirus infeksiyasının yayılmasının qarşısını almaq, onun iqtisadiyyata və insanların sosial vəziyyətinə vurduğu zərəri qarşılamaq üçün vaxtında çevik və uğurlu tədbirlər hazırlayaraq həyata keçirir. Elə bu layihələrin də əsasında insan, onun rifahı, sosial cəhətdən müdafiəsi dayanır. Cənab Prezident Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradaraq özü və Birinci vitse-prezident bir illk maaşını həmin Fonda köçürdülər. Ümumiyyətlə, cənab İlham Əliyev həm ölkə rəhbəri kimi, həm də bir vətəndaş kimi bu mübarizənin önündə dayanaraq digər ölkə rəhbərlərinə də bir nümunədir.

Dövlət başçısının 19 mart 2020-ci il tarixli sərəncamı ilə büdcədən dəstək tədbirlərinin icrasına 1 milyard manat, aprelin 17-də isə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrılıb. Dövlət sərt karantin tədbirləri nəticəsində qeyri-formal iş yerini itirən və əvvəlcədən işsiz olan şəxslərin sosial rifah halının yaxşılaşdırılması sahəsində də tədbirlər həyata keçirir. Belə ki, hökumət tərəfindən hazırlanmış sosial proqramın bir istiqaməti bu şəxslərə ölkə üzrə yaşayış minimumu səviyyəsində (190 manat) aylıq ödəmənin verildi. Əvvəlcə belə ödəmənin 200 min nəfərə verilməsi nəzərdə tutulsa da, Prezident İlham Əliyevin verdiyi tapşırıqla bu say 3 dəfə artırılaraq 600 minə, ödəmələrin sayı isə 2 dəfəyə qaldırıldı. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bu il həssas qruplarla bağlı nəzərdə tutulmuş bütün sosial proqramlar, eləcə də sosial müdafiə və aktiv məşğulluq proqramlarının genişləndirilməsi ilə bağlı planlar tam icra olunacaq. Xüsusi karantin rejimi bitdikdən sonra şəhid ailələrinə və müharibə əlillərinə yeni mənzillərin verilməsinə başlanacaq, bu il onlara 1500 mənzil verilməsi davam edəcək. Həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqının dövlət tərəfindən ödənilməsi qərara alınıb. Elektrik enerjisindən istifadədə limit artırılıb. Həmçinin,ünvanlı dövlət sosial yardımı proqramının genişləndirilməsi işləri davam edir. Təkcə aprel ayında əlavə olaraq 10 min ailə bu proqramla əhatə olunub, ünvanlı yardım alan ailələrin sayı 80,5 minə (335 min ailə üzvü) çatıb və bu artım dinamikası davam edir. Bununla bərabər, ünvanlı yardımın təyinatı şərtlərinin yumşaldılması, sosial yardımın alınması ilə bağlı müraciət prosedurunun aztəminatlı ailələr üçün daha rahat və sadə olması üçün qanunvericiliyə dəyişiklik layihələri də artıq aidiyyəti üzrə təqdim edilib. Dövlət başçısının tapşırığı ilə ödənişli ictimai işlər proqramı da genişləndirilir - bu işlərə cəlb edilənlərin sayının 2,4 dəfə artırılaraq 37 mindən 90 minə çatdırılması təmin edilir. Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti və Onun komandasının çevik hərəkətə keçməsi nəticəsində vaxtında verilən qərarlar və ölkəmizin virus təhlükəsindən izolyasiyası ilə bağlı atılan addımlar nəticəsində ölkəmiz bu gün bizə "demokratiya", "insan hüquqları" dərsi keçməyə çalışan dövlətlərə də nümunə oldu. Təbii ki, bütün bunların arxasında Azərbaycan Prezidentinin Öz xalqına sevgisi və siyasi iradəsi dayanır. Bu danılmaz böyük bir həqiqətdir və bunu da dünya bir daha gördü.

***- Aynur xanım, böhranlı dövr demişkən, xüsusi karantin rejimində görülən işlər həqiqətən dövlətin apardığı siyasətin mərkəzində Azərbaycan vətəndaşının olduğunu nümayiş etdirdi. Bəs təmsil olunduğunuz Dövlət Komitəsi ailələrə bu çətin dövrdə necə dəstək oldu?***

- Bu virus və elan olunmuş pandemiya sanki bütövlükdə Yer planetinin əhalisinin bir anlıq dayanaraq ətrafda baş verənlərə nəzər salmaq üçün bir fürsətdir. Əfsuslar olsun ki, sürətli və templi həyat bizi ailəmizdən, doğmalarımızdan, hətta özümüzdən uzaqlaşdırdığının fərqində deyilik. Xüsusilə də, vaxt çatışmamazlığı, işlərin çoxluğu səbəbindən bəzən valideynlər övladlarına, eləcə də ər-arvad bir-birinə zaman ayıra bilmirlər. Bu günlərdə ənənələrimizin, ailə dəyərlərimizin əsasını təşkil edən sağlam ailədaxili münasibətlərin, böyüklərə ehtiram, kiçiklərə qayğı, qarşılıqlı hörmət, ailəyə, adətlərimizə bağlılıq, sevgi, paylaşmaq kimi yüksək dəyərlərin, eyni zamanda, ailə üzvləri ilə birgə vaxt keçirməyin nə qədər önəmli, vacib olduğu bir daha özünü qabarıq şəkildə göstərdi.

Bu çətin günlərdə milli - mənəvi dəyərlərimizin qoruyub saxlanması, yaşadılması olduqca mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, hazırkı durumu həmçinin pozitiv nöqteyi-nəzərdən qiymətləndirərək, insanların evdə keçirəcəyi boş vaxtı da səmərəli dəyərləndirmək mümkündür. Karantin müddətində ailə üzvləri ilə səmərəli ünsiyyət qurmaq, asudə vaxt keçirmək üçün yeni imkanlar yaranır. Biz bu dövrdə sosial təcrid qaydalarına əməl etməklə ailələrə yönəlik, uşaq hüquqlarına aid müxtəlif layihələrə start verdik. Ailənin psixoloji iqliminə, yeniyetmə və gənclərin ailədə şəxsiyyət kimi formalaşmasına təsir edən amillərin müzakirəsi məqsədi ilə "Onlayn psixoloq xidməti" adlı layihəyə start verilib. İlk webinar "Pandemiya dövründə ailələrdə yaranan psixoloji problemlər və onların həlli yolları" mövzusunda keçirilmişdir. Digər layihəmiz isə "Ailələrimizi tanıyaq" adlanır. Layihə çərçivəsində cəmiyyətdə hörmət qazanan, nümunəvi ailələrlə görüşlər keçiriləcək. Layihə çərçivəsində faşizm üzərində qələbənin 75 illik yubileyi ərəfəsində Böyük Vətən Müharibəsi iştirakçısı, Laçın rayonundan məcburi köçkün və hazırda Şəkidə məskunlaşan 108 yaşlı Əhmədov Şahverdi Behbud oğlunun ailəsi ilə keçirilmiş webinar görüşün videoyazısı Komitənin

# Sağlam ailə cəmiyyətin əsasını təşkil edir

## *Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyevanın yap.org.az-a musahibəsi*

facebook səhifəsinə yerləşdirilmişdir. Dövlət Komitəsi tərəfindən aprelin 6-dan daha bir layihəyə-"Ailəm" müsabiqəsinə start verilmişdir. Müsabiqənin keçirilməsində əsas məqsəd ölkə Prezidenti cənab İlham Əliyevin COVID-19 infeksiyası ilə mübarizə çərçivəsində elan etdiyi "Biz birlikdə güclüyük!" şüarına dəstək olmaq, həmçinin xüsusi karantin rejimi ilə əlaqədar ailələri ev şəraitində asudə vaxtını səmərəli və faydalı keçirməyə stimullaşdırmaqdır.

Həmçinin "Həyati bacarıqlara yiyələn!" , "Uşaqların asudə vaxtının səmərəli təşkili", "Uşaqların internet təhlükəsizliyi və onun təmin olunması yolları", "Uşaq və gənclərin uğurlu ixtisas və peşə seçimi", "Pandemiya dövründə ailələrdə yaranan psixoloji problemlər və onların həlli yolları", "Karantin vəziyyətində sağlamlıq imkanları məhdud uşaqların psixoloji reabilitasiyası", "Uşaqların inkişafında oyunun vacibliyi", "Ailədə uşaqlarla uğurlu ünsiyyət və birgə fəaliyyətin vacibliyi" mövzularda rəsmi "Facebook" səhifəmizdə Komitənin əməkdaşları və dəvət olmuş ekspertlər tərəfindən canlı yayım formasında təlimlərlər keçirilmişdir. Koronavirusla mübarizə kampaniyası çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən "ailələrə zəng" kapmaniyası aparılmış, məlumat vərəqələri paylanılmış, ərzaq yardımı edilmiş, psixoloji yardım edilmiş, tibbi maska paylanılmış, uşaqlar onlayn məşğələ keçirilmişdir.

Komitə tərəfindən keçirilən "Ailədən ailəyə" dəstək aksiyası çərçivəsinsə 75 ailə tərəfindən həssas təbəqədən olan 594 ailəyə yardım göstərilmişdir. COVİD-19 pandemiyası ilə bağlı ölkədə keçirilən sosial izolayasiya tədbirləri və xüsusi karatin rejiminin tətbiqi nəticəsində ailələrdə yaranmış vəziyyəti ölçmək və qiymətləndirmək üçün həm onlayn, həm də telefon vasitəsilə sorğu keçirilmişdir. Hazırda məlumatların emalı aparılır və yaxın günlərdə təhlil yekunlaşdırılacaqdır. Fikrimizcə, aparılan bu tədbirlər, aşkarladığımız hallar, təhlillərimiz bizə həm də post pandemiya dövrü üçün yeni istiqamətləri müəyyələşdirir."Ailələrə zəng" kampaniyası zaman bir daha müşahidə olundu ki, böhranlı vəziyyətlərdə insanların, ailələrin psixoloji dəstəyə böyük ehtiyacı var. Bu baxımdan ailə psixoloqu məsələsi bir daha aktuallıq kəsb edir. Regionlarda və Bakıda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək və Qadın Resurs Mərkəzləri tərəfindən həssas və risk qrupundan olan ailələr və onların üzvlərinə psixoloji, hüquqi xidmətlər göstərilir, vətəndaşlar adiyyatı dövlət qurumlara yönəldilir.

Eyni zamanda, sosial təcrid dövründə məişət zorakılığına və ya gender əsaslı zorakılığa məruz qalmış insanların hüquqlarının müdafiəsi ilə bağlı iş aparılır. Davamlı olaraq icra hakimiyyətləri yanında fəaliyyət göstərən Monitorinq Qrupları, müvafiq hüquq-mühafizə orqanları, zorakılığa məruz qalan qadın və uşaqlara sığnacaq verən qeyri-hökumət təşkilatları ilə əlaqəli şəkildə fəaliyyət davam etdirilir və faktlar üzrə operativ iş aparılır.

Komitənin 2017- ci ildə BMT-nin Əhali Fondu ilə birgə keçirdiyi "Kişilərin gender bərabərliyinə münasibətinə dair Tədqiqat" (IMAGES)-ın nəticələrinə əsasən kişilər tərəfindən zorakılığın istənilən formasının törədilməsini ardıcıl qaydada bir neçə amillə əlaqələndirmək olar: öz analarına qarşı zorakılığın şahidi olma və uşaqlıqda fiziki zorakılığa məruz qalma halları ilə rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxs tərəfindən törədilən zorakılıq arasında bağlılıq müşahidə olunur və bu nəticə dünyanın müxtəlif yerlərində zorakılığın nəsillərarası zərərli təsiri ilə bağlı aparılmış tədqiqatların nəticələri ilə üst-üstə düşür. Gender bərabərliyini daha az dəstəkləyən və xüsusilə də qadınlara qarşı zorakılıq barədə bəzi stereotiplərin tərəfdarı olan kişilər rəsmi və ya qeyri-rəsmi nikahda olduğu şəxslərə qarşı daha çox zorakılıq törədən şəxslərdir. Qeyd etmək lazımdır ki, bu tədqiqat kişi və qadınların gender normaları ilə bağlı təcrübəsi və bu məsələlərə dair yaşama tərzi, gender bərabərliyi siyasətinə münasibət, qayğı göstərmə və kişilərin ata qismində iştirakı da daxil olmaqla ev təsərrüfatındakı dinamika, ailə daxili zorakılıq, sağlamlıq və iqtisadi təzyiq kimi məsələləri əhatə edən ən müfəssəl araşdırma hesab olunur. Belə bir təhlil 16 ölkədə keçirilmiş və verilən tövsiyələr həmin ölkələrin siyasətində öz əksini tapmışdır. Qadınlara qarşı zorakılıq qadınlar və onların ailələri, habelə icmalar və cəmiyyətlər üçün əhəmiyyətli miqyasda iqtisadi yük yaradır. Beynəlxalq tədqiqatlar göstərir ki, qadınlara qarşı zorakılığın iqtisadi dəyəri qlobal ÜDM-in 2 faizinə yaxın ola bilər. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin BMT-nin Əhali Fondu ilə birgə apardığı təhlil əsasında məlum olmuşdur ki, Azərbaycanda qadınlara qarşı zorakılığın doğurduğu iqtisadi xərclərin təqribi məbləği ümumiləşdirildikdə (latentlik səviyyələrinə görə korrektə edilmiş simulyasiya modeli ilə), 2017-ci ildə qadınlara qarşı zorakılıq cəmiyyətə ümumilikdə təqribən 764 milyon ABŞ dollarına başa gəlmişdir. Bu baxımdan qadınların iqtisadi cəhətdən gücləndirilməsi, onların iş həyatına qoşulması, təhsillərini artırmaq üçün imkanların daha da genişləndirilməsi zəruri məsələlərdən biridir. Erkən nikah və təhsildən yayınma hallarının aradan qaldırılması sahəsində maarifləndirmə işləri aparılıb və müsbət nəticələr də var. 15-17 yaşlı qadınlar tərəfindən doğulan uşaqların sayı da 2011-ci ildə 4392 idisə, 2018-ci ildə bu rəqəm azalaraq 2129 olub. Göstəricilərdə azalma müşahidə olunsa da, statistikanın daha da azalması üçün bu sahədə işlər davam etdirilir.

***- 15 may " Beynəlxalq Ailə Günü" ərəfəsində Komitə tərəfindən ailələrə yönəlmiş müxtəlif maraqlı layihələr, tədbirlər həyata keçirilirdi. Hazırki şəraitdə karantin rejimi həmin layihələrə necə təsir göstərib?***

- İlk öncə qeyd edim ki, biz bütün layihələrimizi onlayn formatda həyata keçiririk və bu layihələri mütləq şəkildə davam etdiririk. Çünki,dövlət ailə siyasətinin həyata keçirilməsi istiqamətində milli-mənəvi dəyərlərə söykənən ailə institutunun qorunub saxlanılması və möhkəmləndirilməsi üçün kompleks tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir. Bu gün dünyada ailə dəyərlərinin aşınması fonunda ölkəmizdə ailə institutu özünün sosial təyinatı və milli-mənəvi missiyasını daha tam və dolğun şəkildə qoruyub saxlandığını görürük. Buna görə də məqsədimiz bu sahədə görülən işləri sistemli və ardıcıl şəkildə davam etdirməklə yanaşı, eyni zamanda, ailələrimizi qorumaq, ailədə rahat psixoloji iqlim şəraiti yaratmaqdır. Bunun həll yollarından biri günahkarın məsuliyyətə cəlb olunması, qurbanın hüquqlarının qorunmasıdırsa, digər mühüm yol isə maarifləndirmədir. Ancaq gəlin razılaşaq ki, bu çətin bir prosesdir. Çünki qatı stereotiplərə malik bir insanın düşüncəsinə, onun təfəkkürünə təsir etmək o qədər də asan deyil. Buna görə də rayon və kənd əhalisi arasında, məktəblərdə, ali təhsil müəssisələrində, hərbi hissələrdə ailə münasibətlərinin formalaşması, yeni keyfiyyətlərin müsbət və mənfi təsiri haqqında seminarlar keçirir, yaşlı nəsllə gənc nəslin dialoqunu təşkil edirik. "Ailə Akademiyası", "Ailəlikcə kitabxanaya", "Azərbaycan ailəsi" adlı filmlər festivalı keçirilir.

Azərbaycan 2008-ci ildən başlayaraq "Ailə bayramı" keçirilir. Bu bayramlarda hər bir rayonu təmsil edən nümunəvi ailə iştirak edir. Ölkəmizin əksər rayonlarından bu tədbirə toplaşmış nümunəvi ailələr müasir Azərbaycan cəmiyyətinin yüksək inkişaf səviyyəsinin təcəssümüdür. 2009-cu ildən etibarən Komitə, Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə "Azərbaycan ailəsi" film festivalı keçirir. Festivalın və 2014-cü ildən festival çərçivəsində "Həyatdan şəklə" adlı fotomüsabiqənin əsas məqsədi kinematoqrafiya və fotoqrafiya sənəti vasitəsilə ailə və milli-mənəvi dəyərlərin təbliği, onların qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, cəmiyyətdə mövcud olan ailə problemlərin işıqlandırılması, gənclərdə yaradıcılıq qabiliyyətinin aşkarlanması, eləcə də ailə məsələlərini əks etdirən video və foto materiallardan ibarət fondun zənginləşdirilməsi və filmlərin maarifləndirmə məqsədilə nümayiş olunmasıdır. Ötən 11 il ərzində müsabiqədə 345 rejissor tərəfindən 386 film iştirak edib, o cümlədən 42 xarici film (Türkiyə, Rusiya, Belarusiya, Ukrayna, İran, Bolqarıstan, Özbəkistan, Almaniya, Macarıstan, İsveç, Qırğızıstan, Mərakeş və Fransa) və 144 fotoqraf tərəfindən 527 foto-şəkil təqdim olunub. Bu layihə müxtəlif ölkələrin, o cümlədən Azərbaycan ailə mədəniyyətinin təbligi, ümumi və fərqli cəhətlərinin araşdırılması baxımından da xüsusi əhəmiyyət kəsb edir.

Festivalın beynəlxalq nüfuz qazanması bir daha göstərir ki, bu gün dünyada ailə institutunun möhkəmləndirilməsi artıq qlobal məqsədlərdən birinə çevrilmişdir. Azərbaycanda mənəvi dəyərlərə söykənən uzunömürlü ailələr, onların uğurlu ailə təcrübələri haqqında məlumatların toplanması və təşviq olunması da ailələrimizin güclü təməl üzərində qurulmasına dəstəkdir. Bununla bağlı Komitə tərəfindən "Azərbaycan ailəsi (sosial-mədəni baxış)" kitabı çap olunmuşdur. Eyni zamanda, 65 ildən çox birgə ömür sürən ailələrin kartotekası hazırlanmışdır və mütəmadi olaraq bu ailələr təbliğ edilir. Milli, maddi və mənəvi dəyərlərimizi gənc nəsillərə təbliğ etmək və ötürmək, xalqımızın gələcəyini qorumaq qədər dəyərlidir.

***- Aynur xanım, sonda ailələrlə hansı fikirlərinizi bölüşmək istərdiniz?***

- Ailə bir sistem olaraq özündə çoxtərəfli münasibətləri ehtiva edir. Bu, ayrı-ayrılıqda həm valideynlər, həm də övladlar arasındakı münasibətləri, həmçinin valideyn-övlad münasibətlərini ifadə edən, nənə və babaların, müxtəlif nəslin nümayəndələrinin, qohumların da daxil olduğu geniş bir sistemdir. Müasir dünyada ailə institutu sosial, mədəni və siyasi dəyişiklikləri əks etdirən dinamik sosial təsisat kimi çıxış edir. Bu səbəbdən zamanın çağırışlarına uyğun olaraq ailə institutunun funksiyalarına mütəmadi olaraq yeni elementlər daxil olur. Son dövrlərdə qloballaşma şəraitində baş verən bir sıra proseslər, o cümlədən,mədəni dəyərlərin inteqrasiyasının güclənməsi, informasiya texnologiyalarının sürətli inkişafı nəticə etibari ilə cəmiyyətdə bir sıra ənənəvi dəyərlərin itirilməsinə, klassik ailə modelinin aşınmasına və ailələrin cəmiyyətdəki sosial statusunun zəifləməsinə səbəb olur. Bu isə ailəyə, ailədaxili münasibətlər sisteminə yeni baxış, mövcud müsbət ailə təcrübəsinin yeni formatda təqdim edilməsinə zəmin yaradır.

Bu gün qloballaşma və modernləşmə dövründə valideynlərin üzərinə çox böyük məsuliyyət düşür. Ailələr texnoloji və iqtisadi inkişaflar və xüsusilə qloballaşmanın gətirdiyi yeniliklər və təhlükələrlə üz-üzədir. Milli və mənəvi dəyərlərimizi qurban verməməliyik. Yad təsirlər sevgini, hörməti, etibarı, ümumi mənafeni qısqanclığa, ikiüzlülüyə, xəyanətə, eqoizmə çevirir. Sədaqət, ədalət, məhəbbət və mərhəmət hissləri azaldıqca, insanların bir yerdə sakit, sülh, əmin-amanlıq və hörmət içində yaşamaları da problemə çevrilir. Bu isə boşanmaların sayının artmasına, ailə daxilində məişət və gender əsaslı zorakılığın artmasına, təkvalideynli ailələrin artmasına və digər ağır fəsadlara gətirib çıxarır. Bütün bunların fonunda Azərbaycanda da ailə institutunun möhkəmləndirilməsi, ailədaxili münasibətlərin tənzimlənməsi, daha da inkişaf etdirilməsi, qorunub saxlanılması gündəmdə dayanan əsas məsələlərdəndir. Bu gün cəmiyyətimiz layiqli, sosial-mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal, güclü ailələrin formalaşmasında maraqlıdır.

Mən bu bayram ərəfəsində bir daha ailələrimizi təbrik edir, onların hər bir üzvünə möhkəm can sağlığı, firavanlıq, xoşbəxtlik, səadət dolu günlər, illər arzulayıram.

# Heydər Əliyev mövqeyi

***Bütün böyük və müdrik dühalar kimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də yaşadığı dövrün real mahiyyətini dərindən görmüş, özünün aydın siyasi mövqeyi, möhkəm iradəsi və uzaqgörənliyi ilə zamanı irəli aparmaq qüdrətinə malik olmuşdur.***

Bu görkəmli dövlət xadimi heç vaxt zamanın arxası ilə getməmiş, əksinə, zamanı öz arxasınca aparmağı bacarmışdır. Heydər Əliyevin fəth etdiyi zaman tarixə çevrilmiş və həm də növbəti sabahlara yol açmışdır. Bu mənada Ulu Öndər Heydər Əliyev epoxası sadəcə Azərbaycan xalqının və dövlətinin yalnız fərqli tarixi deyil, həm də daha işıqlı sabahı deməkdir.

Heydər Əliyev Azərbaycan xalqının əbədiyyət günəşidir. Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan həm milli iftixar duyğusu, həm də bugünümüzün və sabahımızın mahiyyətidir, hərəkətverici qüvvəsidir. Qüdrətli tarixi şəxsiyyət olan Heydər Əliyevin müstəqil dövlətçilik idealları Azərbaycan xalqının əbədiyyət yoludur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətçilik yollarındakı dönməz mövqeyi, yaradıcı dühası, yorulmaz fəaliyyəti ilə Heydər Əliyev epoxasını tamamlamış və yeni tarixi era yaratmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin əbədiyyət rəmzi, Prezident İlham Əliyev isə qüdrətli lideri və uzaqgörən sükançısıdır. Heydər Əliyev özünün çoxillik tarixi xidmətləri ilə tarixdə şəxsiyyətin böyük rolunu isbat etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mənsub olduğu xalqı və rəhbərlik etdiyi müstəqil dövləti daim qabağa aparmağı bacarmış, müasir tarixin yeni üfüqlərini müəyyən etmiş, dönmədən bu yolla gedərək böyük əməlləri ilə daha böyük zəfərlər qazanmağın mümkünlüyünü meydana qoymuşdur.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin nadir simasıdır. Heydər Əliyev ölkəsinin inkişafı və xalqımızın taleyi baxımından böyük tarix yaratmış görkəmli tarixi şəxsiyyətdir. Heydər Əliyev tarixin ən çətin və məsuliyyətli zamanlarında da tarix yaratmağın əsl nümunəsini göstərmişdir.

Böyük dövlət xadimi Heydər Əliyevdə tarixi şəxsiyyətlər üçün zəruri olan bütün keyfiyyətlər cəmləşmişdir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, möhkəm siyasi iradə, aydın dövlətçilik mövqeyi və ümummilli mənafe bu böyük tarixi şəxsiyyətin həyatının və mübarizəsinin əsas istiqamətlərini müəyyən etmişdir. Heydər Əliyevin şəxsiyyətində və fəaliyyətində dəmir kimi möhkəm general iradəsi ilə əsl liderin aydın və qəti mövqeyi, habelə uzaqgörənliyi birləşir. Heydər Əliyev üçün möhkəm iradə ilə aydın siyasi mövqe onun çoxcəhətli fəaliyyətinin qoşa dəmir yolu kimi ən mühüm zəruri faktorlarından biri idi. Bunlardan hər hansı biri olmazsa, lokomotivin hərəkəti mümkün olmadığı kimi, liderin də lokomotivə çevrilmək şansının baş tutması mümkün deyildir. Görkəmli dövlət xadimi kimi Heydər Əliyevin qüdrəti onun aydın siyasətində, qətiyyətli dövlətçilik mövqeyində, ümummilli maraqlara və bəşəri dəyərlərə əsaslanan dönməz iradəsində idi. Və yaxud da əksinə, Heydər Əliyevin möhkəm siyasi iradəsi onun aydın siyasi və dövlətçilik mövqeyini həyata keçirməsini, habelə ümummilli maraqlarını cəmiyyətdə gerçəkləşdirməsini təmin etmişdir. Qüdrətli dövlət xadimi və böyük siyasi lider kimi Heydər Əliyevin simasında aydın siyasi mövqe ilə dönməz müstəqil dövlətçilik maraqlarına təminat verən möhkəm iradə bir-birini üzvi surətdə tamamlamışdır.



*İsa HƏBİBBƏYLİ,*
*Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti,*
*Milli Məclisin deputatı, akademik*

Naxçıvanda sadə bir dəmiryolçu ailəsində ilkin zəruri təməlləri atılmış, Dövlət Təhlükəsizlik orqanlarında formalaşmış, Azərbaycan Sovet Respublikasına rəhbərlik edərkən böyük sınaqlardan uğurla çıxmış Heydər Əliyevin siyasi və dövlətçilik mövqeyi, möhkəm iradəsi Sovetlər İttifaqının baş qərargahı olan Siyasi Büroda cərəyan edən Kreml “döyüşlərində” özünü isbat etmişdir. Beləliklə, aydın siyasi və dövlətçilik mövqeyi görkəmli dövlət xadimi Heydər Əliyev üçün hədəf olaraq qəbul etdiyi ideyanı müəyyən edən strategiya, möhkəm iradə isə həmin düşünülmüş strategiyanı həyata keçirmək baxımından seçilmiş taktika idi. Tərcümeyi-halının bütün mərhələlərində Ulu Öndər Heydər Əliyevin dövlətçilik strategiyasının baş məqsədi Azərbaycan xalqına sədaqətlə xidmət etməkdən və müstəqil dövlət qurmağa nail olmaqdan ibarət olmuşdur. Bu düşünülmüş, əqidə kimi qəbul edilmiş ümummilli mövqe və müstəqil dövlətçilik strategiyası Heydər Əliyev tərəfindən seçilmiş ən ağıllı və məqsədəuyğun taktika ilə dönmədən həyata keçirilmişdir. Buna görə də haqlı olaraq Heydər Əliyev dünya miqyasında böyük siyasətin qrossmeysteri və siyasi strateq kimi qəbul olunur. Hətta Azərbaycan xalqının Ümummilli Liderinə məxsus olan “mövqeyini bildir” ifadəsi Azərbaycanın siyasi və mənəvi mühitində atalar məsələnə çevrilmişdir. Ümumiyyətlə, bütün məqamlarda aydın və konkret mövqe nümayiş etdirmək tələbi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlət idarəçiliyi məktəbinin açıq dərsidir. Bu, hər bir insanın cəmiyyət qarşısındakı vətəndaşlıq missiyasını yerinə yetirməyə borclu olduğunu, bununla proseslərin aydınlaşdırılmasına və ya inkişaf etdirilməsinə xidmət etdiyini müəyyən edən mənəvi məsuliyyətinin ifadəsidir.

Azərbaycan Sovet Respublikasını geridə qalmış bir respublikadan hərtərəfli şəkildə inkişaf etmiş ölkəyə çevirmək Heydər Əliyevin siyasi məqsədi, strategiyası idi. Bu uzunmüddətli strategiyanı mərhələ-mərhələ həyata keçirmək üçün SSRİ rəhbərliyində apardığı danışıqlar, müzakirələr, bunların əsasında ümumittifaq miqyasında və respublika səviyyəsində qəbul etdirməyə nail olduğu qərarlar görkəmli dövlət xadimi Heydər Əliyevin konkret və aydın mövqeyinin ifadəsi idi. Tarix üçün çox da böyük olmayan 1969-1982-ci illər ərzində Azərbaycan Sovet Respublikasını keçmiş SSRİ-də bütün istiqamətlər üzrə inkişaf etmiş bir ölkə səviyyəsinə çatdırmaq Heydər Əliyevin yorulmaz fəaliyyətinin və böyük iradəsinin nəticəsi idi. Bundan başqa, sovet dövrünün çətin, sərt siyasi-ideoloji mühiti çərçivəsində Azərbaycanda həm də milli maraqların inkişaf etdirildiyi bir dövlətçilik sistemi formalaşdırmaq Heydər Əliyevin müəyyən olunmuş mövqeyi və düşünülmüş strategiyası idi. Həmin ümummilli strategiyanı gerçəkləşdirmək üçün seçilmiş Sovet dövlətinin siyasi-ideoloji prinsiplərinin əleyhinə getmədən müdrik bir taktika ilə ölkədə ədəbiyyat və incəsənətin inkişaf etdirilməsi vasitəsilə məqsədinə çatmaq yollarında atdığı qətiyyətli addımlar yalnız və yalnız Heydər Əliyevin sarsılmaz iradəsinin sayəsində mümkün olmuşdu. Nəinki böyük Azərbaycan şairi Nizami Gəncəvinin və Mirzə Fətəli Axundzadənin, hətta yalnız xalq həyatı ilə bağlı olan ustad Aşıq Ələsgərin də yubileylərini həm respublikada, həm də ümumittifaq miqyasında yüksək səviyyədə qeyd edilməsinə nail olmaq yolu ilə Azərbaycanda milli mədəniyyətin, milli-mənəvi dəyərlərin və nəticə etibarilə milli şüurun inkişaf etdirilməsinə nail olan Heydər Əliyev Sovetlər İttifaqının tərkibində olan digər respublikalarda bu işin həyata keçirilməsinə yol açmışdır. Sovet dövründə erməni-bolşevik qruplaşması tərəfindən məqsədli şəkildə “millətçi” damğası vurulmuş görkəmli dövlət xadimi və böyük yazıçı Nəriman Nərimanova əzəmətli heykəl ucaltmaq niyyətini həyata keçirmək məqamında da Heydər Əliyevin siyasi mövqeyi ilə iradəsinin sarsılmaz vəhdəti onu qələbəyə çatdırmışdı. Fikrimizcə, sovet hakimiyyətinin ən güclü olduğu, hətta Sovetlər İttifaqının tərkibindəki xalqları manqurtlaşdırıb əridərək vahid sovet xalqı formalaşdırmaq siyasətinin həyata keçirildiyi çətin bir şəraitdə Azərbaycan dilini Respublikanın Konstitusiyasına dövlət dili kimi daxil etdirməsi görkəmli dövlət xadimi Heydər Əliyevin apardığı ümummilli siyasətin qələbəsi idi. Dövrün özünəməxsus siyasi-ideoloji çətinliklərini nəzərə almaqla, 1978-ci ildə Azərbaycan dilinin Respublika Konstitusiyasında dövlət dili kimi ayrıca maddədə öz ifadəsini tapması əsl dövlət xadiminin yerinə yetirdiyi qəhrəmanlıq hadisəsidir. Və bu təkrarsız qəhrəmanlıq hadisəsi də görkəmli dövlət xadiminin aydın siyasi və dövlətçilik mövqeyi ilə möhkəm iradəsinin nəticəsində baş vermişdir.

Azərbaycanın dövlət müstəqilliyi dövründə də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin aydın və qəti siyasi mövqeyi ilə möhkəm iradəsi xalqımıza və dövlətimizə uğur və qürur gətirmiş, müstəqilliyimizin daha da inkişaf etdirilib möhkəmləndirilməsinə xidmət etmişdir. Bu məqamda ali məqsədlərinə çatmaq üçün sovet dövründə siyasi rejimin dəmir sədlərini aşmağın çətinliklərini yaşamış Heydər Əliyev yeni mürəkkəb tarixi şəraitdə Sovet İmperiyasının dağılması dalğasında meydana çıxmış və kütlə psixologiyasından uzağa gedə bilməyən naşı, başabəla “kiçik padşahların” yaratdıqları süni maneələri dəf etmək vəzifələrini həyata keçirməli olmuşdur. Azərbaycan xalqı, həmişə olduğu kimi, bu taleyüklü həlledici məqamda da dırnaqarası bəyləri deyil, bütün sınaqlardan uğurla çıxmış Heydər Əliyev mövqeyini dəstəkləmişdir. Heydər Əliyevin ikinci dəfə Azərbaycanda böyük siyasətə qayıdışı, dövlət rəhbərliyinə gəlməsi mənsub olduğu xalqın dönməz mövqeyinin ifadəsi idi. Bu məqamda ölkəsinə, xalqına, vətəninə, torpağına xidmət etməyi mənəvi borcu hesab edən Heydər Əliyevin siyasi mövqeyi ilə xalqın milli mənafeləri üst-üstə düşmüşdür.

Sovet dövləti rəhbərliyindən istefaya göndərilməsindən sonra 21 yanvar 1991-ci ildə görkəmli dövlət xadimi Heydər Əliyev Moskvadakı Azərbaycan Daimi Nümayəndəliyinə gələrək, Bakıda 20 Yanvar 1990-cı il faciəsini törətdiyinə görə SSRİ rəhbərliyini sərt tənqid etməklə doğma xalqını müdafiə etməsi Ulu Öndərin kəskin mövqeyini bəyanat səviyyəsinə qaldırmışdır.

Dövlət müstəqilliyi illərində hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ikən SSRİ-nin saxlanılmasına “yox” deməsi, Naxçıvanda həmin məqsədlə ölkə üzrə təşkil edilmiş referendumda Naxçıvan əhalisini iştirak etməməyə çağırması və buna nail olması Heydər Əliyevin siyasi mövqeyinin əməli təzahürü idi.

Hələ SSRİ-nin mövcud olduğu dövrdə Sovetlər İttifaqının bayrağını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin binası üzərindən endirərək, üçrəngli Azərbaycan bayrağını dövlət rəmzi kimi rəsmi şəkildə qəbul etdirməsi Heydər Əliyev mövqeyinin və iradəsinin qələbəsi idi.

Azərbaycan Respublikasının Prezidenti kimi 1994-cü ildə “Əsrin müqaviləsi” Neft Kontraktının beynəlxalq birlik tərəfindən imzalanması vəzifəsini qətiyyətlə həyata keçirməsi Heydər Əliyevin siyasi mövqeyinin və möhkəm iradəsinin təntənəsi idi. “Əsrin müqaviləsi”ni beynəlxalq miqyasda qəbul etdirmiş görkəmli dövlət xadimi Heydər Əliyev zamanı qabaqlayaraq əsrin Prezidenti mövqeyinə yüksəlmişdir. Bunun ardınca dövlətlərarası böyük maraqların arasında ortaq mövqe tapmaqla Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərini çəkdirməyə nail olmaq Heydər Əliyevin siyasi mövqeyi və möhkəm iradəsi olmadan heç cür baş tuta bilməzdi. Azərbaycanın üçrəngli dövlət bayrağını Avropa İttifaqının önündə, dünya ölkələrinin bayraqlarının cərgəsində dalğalandırmaq üçün də xalqımıza və müstəqil dövlətimizə uzaqgörən, müdrik və qətiyyətli Heydər Əliyev mövqeyi və iradəsi lazım idi.

XX əsrin doxsanıncı illərində Bakıda və Naxçıvanda xarici siyasi-hərbi qüvvələrin dəstəyi ilə müxalifət qüvvələri tərəfindən törədilmiş dövlət çevrilişi cəhdlərindən Heydər Əliyev mövqeyi və iradəsi olmadan çıxmağın mümkün ola bilməsi müsbət cavabı olmayan ritorik sualdır. Heydər Əliyev mövqeyi və iradəsi Azərbaycanda müstəqil dövlətçiliyin taleyini həll edən de-faktdır. Ulu Öndər xalq və dövlətçilik mənasında əsl xilaskarlıq missiyasını həyata keçirmiş liderdir. Məhz Heydər Əliyev mövqeyi və iradəsi siyasi hakimiyyətdə olduğu dövrdə Azərbaycan xalqını və müstəqil Azərbaycan dövlətini neçə-neçə böyük imtahanlardan çıxarmış, böyük xilaskarlıq missiyasını həyata keçirməyin, ölkəni qoruyub saxlamağın və inkişaf etdirməyin əsl yoluna çevrilmişdir.

Aydın siyasi və dövlətçilik mövqeyi, sarsılmaz iradə Heydər Əliyevin simasında geniş dünyagörüş və zəngin həyat təcrübəsi ilə zənginləşdirilmiş və bütövləşmişdir. Böyük tarixi şəxsiyyət və görkəmli dövlət xadimi olmağın düsturu olan bu xüsusiyyətlərə malik olması Heydər Əliyevi Azərbaycan xalqının və dövlətçiliyinin çoxəsrlik tarixinin əbədiyyət qazanmış, nadir tarixi şəxsiyyəti səviyyəsinə yüksəltmişdir.

Müstəqil Azərbaycan görkəmli dövlət xadimi Heydər Əliyev mövqeyinin və iradəsinin şah əsəridir. Heydər Əliyevin mövqeyi və iradəsi onun böyük şəxsiyyətinin meyarlarıdır. Konkret mövqe ifadə etmək və aydın siyasi-mənəvi iradəyə malik olmaq Ulu Öndər Heydər Əliyevin nümunəsində sınaqlardan çıxmış dəyərlərdir. Bu da böyük siyasətdə Heydər Əliyev dövlətçilik məktəbinin ibrətamiz dərsləridir.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanın tarixində də, sabahında da iştirak edən, xalqımızın və ölkəmizin yollarına daim işıq salan tarixi şəxsiyyətdir. Möhkəm müstəqil dövlətçilik mövqeyi, dönməz iradə və ümummilli ideallar Heydər Əliyevi Azərbaycan xalqının Ümummilli Lideri mövqeyinə çatdırmışdır. Heydər Əliyevin qazandığı ümummilli liderlik ucalığı Azərbaycan xalqının siyasi və mənəvi ucalığının rəmzidir.

*Ardı Səh. 11*

# Heydər Əliyev mövqeyi

Əvvəli Səh. 10

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya dövlətləri içərisində özünəməxsus aydın mövqeyi və möhkəm siyasi iradəsi, konkret dövlətçilik strategiyası və taktikası olan beynəlxalq səviyyədə həm də qlobal baxışları ilə səciyyələndirilən qüdrətli liderdir. Prezident İlham Əliyev müstəqil Azərbaycan dövlətinin mövqeyini heç nə ilə dəyişməyən, əksinə, hər dəfə inkişaf etdirib möhkəmləndirən görkəmli dövlət xadimidir. Azərbaycan Respublikasının bütün istiqamətlər üzrə inkişaf etdirilərək dünyanın böyük dövlətlərinin orbitinə gətirib çıxarmaq İlham Əliyevin siyasi iradəsinin möhtəşəm yekunudur. Bu gün dünya dövlətləri arasında müstəqil Azərbaycan Respublikasının, ölkələrin və xalqların cərgəsində isə Azərbaycan xalqının yerinin, nüfuzunun, sözünün qüvvətləndirilməsi Prezident İlham Əliyevin aydın siyasi mövqeyi ilə möhkəm iradəsinin mühüm yekunudur.

Azərbaycan Respublikasının müstəqillik tarixi ərzində bütün məqamlarda dövlət rəhbəri ilə daim həmrəylik nümayiş etdirməsi artıq Azərbaycan xalqının mövqeyinin ifadəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin koronavirusla mübarizə dövründə ölkə daxilində dövlət səviyyəsində həyata keçirdiyi tədbirlər, vaxtında atdığı qətiyyətli addımlar ölkəmizdə illərdən bəri formalaşmış birlik və həmrəyliyin daha da inkişaf etdirilərək möhkəmləndirilməsinə təkan vermişdir. Pandemiya günlərində Azərbaycan Respublikası Prezidentinin koronavirus bəlasına qarşı birlikdə mübarizə aparmaq mövqeyi beynəlxalq birlik tərəfindən də dəstəklənmişdir. Türk Dövlətləri Əməkdaşlıq Şurasına üzv olan dövlətlərin prezidentləri və Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin başçıları, bir sıra beynəlxalq təşkilatların rəhbərləri ilə Prezident İlham Əliyevin keçirdiyi onlayn Zirvə görüşləri Azərbaycan dövlətinin mövqeyini bəyan edən və qlobal çağırışları meydana qoyan nadir tarixi hadisələrdir. Ümumdünya Səhiyyə Təşkilatı kimi nüfuzlu bir beynəlxalq qurumun sədrinin Azərbaycan Respublikası Prezidentinin çoxcəhətli fəaliyyətinə verdiyi yüksək qiymət nəticə etibarilə dövlət başçısının timsalında Azərbaycan dövlətinin tarixin bu məsuliyyətli dövründə nümayiş etdirdiyi mövqeyin dünya miqyasında dəstəklənməsi deməkdir. Sözün əsl mənasında, koronavirusla mübarizə günlərində Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına məxsus ali keyfiyyətlərə malik olduğunu nümayiş etdirir.

Ölkə daxilində koronavirusa qarşı aparılan mübarizənin "Biz birlikdə güclüyük!" və Qoşulmama Hərəkatı səviyyəsində beynəlxalq miqyasda nümayiş etdirilən mövqeyin "COVID-19-a qarşı birlikdə" adlandırılması Prezident İlham Əliyevin səylərinin və təşəbbüslərinin mahiyyətini və mənasını dolğun şəkildə ifadə edir. Bununla da Azərbaycan Respublikasının Prezidenti öz ölkəsi ilə dünya dövlətlərinin mövqelərini yaxınlaşdırmaq, birləşdirmək üçün konkret və aydın mövqe meydana qoyur. Vaxtilə görkəmli dövlət xadimi Heydər Əliyevin Sovetlər İttifaqı və Azərbaycan masştabında göstərdiyi siyasi mövqeyin sərhədləri daha da genişləndirilərək beynəlxalq miqyas səviyyəsinə qaldırılmış olur. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəsini və xalqını dünya miqyasına çıxarmaq istiqamətindəki dönməz mövqeyinin növbəti qələbəsidir.

Dünya ölkələrində siyasi hakimiyyətlərin böhranla üzləşdiyi çətin zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doxsan beş faiz reytinq nümayiş etdirməsi dövlət başçısına qədirbilən xalqımızın bəslədiyi aydın mövqeyinin konkret əməli təzahürüdür. Bu məqamda xalqını və dövlətini inkişaf etdirmək üçün var qüvvəsi ilə çalışaraq böyük nailiyyətlərə imza atmış Prezident İlham Əliyevin mövqeyi ilə onu ürəkdən dəstəkləyən xalqın mövqeyi üst-üstə düşür və vəhdət təşkil edir.

Azərbaycan dövlətçiliyini çətin sınaqlardan çıxarmış Heydər Əliyevin mövqeyi Prezident İlham Əliyevin ölkə daxilində və beynəlxalq aləmdə nümayiş etdirdiyi aydın siyasi mövqe və möhkəm iradə ilə birlikdə xalqımıza və ölkəmizə böyük nüfuz qazandırır, daha geniş üfüqlərə doğru addımlamaqda güc və qüvvət verir.

# "Prezident demokratik prinsiplərin, sabitliyin, həmrəyliyin tərəfdarıdır"

***"Dövlətimizin başçısı cənab İlham Əliyev ilk dəfə, 2003-cü ildə prezident seçilərkən, nəinki ölkə vətəndaşlarına, bütövlükdə bütün dünyaya bəyan etdi ki, mən sülhün, əminamanlığın, birliyin, həmrəyliyin tərəfdarıyam və hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam". Bu sözləri SİA-ya müsahibəsində Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev deyib.***



Komitə sədri vurğulayıb ki, artıq verilən vədin nəticələri göz önündədir və ölkə rəhbəri ilk gündən bu günə kimi sözünə sadiqliyini öz fəaliyyəti ilə doğruldur: "Cənab Prezident demokratik prinsiplərə, siyasi partiyaların fəaliyyətinə, söz, mətbuat azadlığına, siyasi sistemin təkmilləşdirilməsinə, partiyaların, ictimai-siyasi təşkilatların, qeyri-hökumət təşkilatlarının, jurnalistlərin, politoloqların ölkənin mənafeyi naminə vahid mövqedən çıxış etmələrinə, milli birliyin və vətəndaş həmrəyliyinin təmin olunmasına, respublikada sabitliyin qorunmasına, hər bir insanın hüquq və azadlıqlarının mühafizəsinə böyük önəm verir. Nəinki önəm verir, bunu öz fəaliyyəti ilə reallığa çevirir. Çünki, bu ölkənin inkişafı, beynəlxalq aləmdə tanınması, vətəndaşların xoşbəxtliyi və gələcəyi üçün çox vacibdir".

Komitə sədri bildirib ki, cənab Prezident dünyada baş verən hadisələri, reallıqları qiymətləndiməyi bilən və qarşıya çıxa biləcək problemləri qarşılayıb aradan qaldırmaq bacarığına malik olan bir rəhbər, xalqını, vətənini ürəkdən sevən, onun qayğısı, sevinci və kədəri ilə yaşayan bir liderdir: "O, tariximizi yaxşı bilir. Başımıza gətirilən bəlaların hardan qaynaqlandığını düzgün qiymətləndirməyin, qarşıda duran vəzifələrin vacibliyinin fərqindədir. Siyasi müdrikliyə malik olan bu insan Ulu Öndər Heydər Əliyev məktəbini keçib. Xalqımızın faciələrini, dərəbəyliyin, özbaşınalığın, siyasi savadsızlığın törətdiyi bəlaları öz gözləri ilə görüb. Onun ağrılarını yaşayır və bu gün də yaşamaqdadır. Məhz buna görə də Cənab İlham Əliyev demokratik prinsiplərə hər bir kəsin əməl etməsinin, qayda-qanunun təmin olunmasının, hüququn aliliyinin gözlənilməsinin, sabitliyin, birliyin, həmrəyliyin tərəfdarıdır. Çünki, sabitlik, azad söz, siyasi yetkinlik, həmrəylik olmayan ölkədə inkişaf, tərəqqi yoxdur. Əgər Azərbaycan bu gün dünyada inkişaf edən bir dövlət kimi tanınırsa bu məhz Azərbaycan Prezidentinin hüquqa, ali dəyərlərə, insanlığa sadiqliyinin, xalq-iqtidar birliyinin, vətəndaş həmrəyliyinin nəticəsidir. Ölkə rəhbərinin uğurları xalqdan, insanların Cənab Prezidentə olan inam və etimadından qaynaqlanır. Qarşılıqlı hörmət və etimad isə ölkəmizi inkişaf etdirir".

***İnam Hacıyev***

# "Azərbaycan korrupsiya ilə mübarizədə qətiyyətli və israrlıdır"

"Azərbaycan korrupsiya ilə mübarizədə qətiyyətli və israrlıdır". Bu sözləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü deputat Aydın Hüseynov deyib. Onun sözlərinə görə, aparılan islahatlar şəffaflığın və hesabılılığın güclənməsinə səbəb olur: "Azərbaycanda müasir dövlət quruculuğu strategiyası uğurla davam etdirilməkdədir. Prezident İlham Əliyevin müdrik və məqsədyönlü siyasəti ölkəmizin yeni inkişaf mərhələsinə keçməsinə, yeni demokratik mexanizmlərin yaradılması və xalqa xidmət müstəvisində səmərəli və şəffaf, müasir idarəetmə modelinin, vətəndaş - dövlət qulluqçusu münasibətlərində yeni düşüncə tərzinin, kadr potensialının formalaşdırılmasına və korrupsiya yaradan halların aradan qaldırılmasına güclü zəmin yaradıb. Bu gün inkişaf edən Azərbaycanın demokratik idarəçiliyinin bütün sahələrində şəffaflıq təmin edilir. Təəssüf ki, bir sıra hallarda dövlətin bu iradəsinə qarşı çıxan, siyasi və iqtisadi islahatlara xəyanət edən insanlara da rast gəlinir. Ancaq onların bu əməlləri tez bir zamanda ifşa edilir və onlar layiqli cəzalarını alırlar".



Millət vəkili son dövrlərdə ölkəmizdə korrupsiya ilə mübarizə sahəsində görülən ardıcıl və qətiyyətli tədbirləri şərh edərkən qeyd edib ki, Azərbaycan Prezidenti tərəfindən bütün dövlət orqanlarının əməkdaşlarına, icra qurumlarının rəhbərlərinə çox açıq və konkret mesajlar, tapşırıqlar verilib: "Dövlətimizin başçısı bütün dövlət məmurlarını xəbərdar edir ki, öz işində düzəlişlər etsin, işinin müasir şəffaf idarəçiliyin tələblərinə uyğun qursun, əgər bunu bacarmırsa, qoy özü könüllü şəkildə dövlət işindən istefa versin. Ancaq əfsuslar ki, bəzi icra orqanları üçün bu dərs olmadı və nəticə də göz qabağındadır. Ona görə də, artıq korrupsiya halları ilə mübarizənin qarşısıalınmaz bir prosesə çevrilməsi onu göstərir ki, Azərbaycan hakimiyyəti ən demokratik meyarları, şəffaflıq prinsiplərini gücləndirməkdə qətiyyətli və israrlıdır".

Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələrinin vətəndaşlar tərəfindən yüksək qiymətləndirildiyini əlavə edən Aydın Hüseynov vurğulayıb ki, islahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir: "İslahatlar ölkəmizi gücləndirir və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndirir. Eyni zamanda, aparılan çoxşaxəli islahatlar şəffaflığın təmin olunmasına, dövlət büdcəsinə əlavə vəsaitlərin daxil olmasına imkan yaradır. Həmin vəsaitlər isə Cənab Prezidentin qeyd etdiyi kimi yürüdülən siyasətimin mərkəzində dayanan Azərbaycan vətəndaşının sosial rifahının yaxşılaşdırılmasına yönəldilir. Azərbaycan iqtisadiyyat güclətndikcə əhalinin müdafiəsi və təminatı da güclənir".

# "Azərbaycan İrəvanın hiyləsindən xəbərdardır"

"Ermənilərin bu təxribatlarının qarşısında Azərbaycan kifayət qədər soyuqqanlılıq nümayiş etdirir. Çünki, Azərbaycan İrəvanın hiyləsindən xəbərdardır". Bu sözləri SİA-ya açıqlamasında Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov Ermənistanın Baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağa səfərini şərh edərkən deyib.



Onun sözlərinə görə, Ermənistanın bundan əvvəlki siyasi rəhbərləri tərəfindn bu kimi hallar nadir hallarda baş versə də, Nikol Paşinyan tərəfindən Dağlıq Qarabağa və ətraf rayonlara səfərlər etmək müntəmadi hal alıb: "Bu səfər Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindn Dağlıq Qarabağa edilən ilk səfər deyil. Bundan əvvəl də Nikol Paşinyan mütəmadi olaraq Dağlıq Qarabağa səfərlər edirdi. Eyni zamanda Qarabağın ayrı-ayrı rayonlarına, həmçinin Qarabağın ətraf rayonlarına da səfərlər təşkil edirdi. Ermənistanın bundan əvvəlki prezidentləri tərəfindən bu kimi hadisələri biz nadir hallarda görürdük. Ümumiyyətlə bu məsələ təbii ki, Azərbaycan tərəfindən neqativ qarşılanır və qarşılanmalıdır da, çünki, təəssüflər olsun ki, Ermənistan arxalandığı havadarlarına güvənərək və onların köməyi ilə Azərbaycan ərazilərini işğal altında saxlamağa davam edir. Bu təbii ki, uzun müddət belə davam edə bilməz. Ermənilərin bu kimi davranışlarına son qoymağın vaxtı gəlib çatmışdır".

Ekspert, Ermənistanın son vaxtlar təxribatlarını genişləndirməsindən də danışıb. Belə ki, o beynəlxalq təzyiq qarşısında Ermənistanın belə bir addım atma ehtimalına da aydınlıq gətirib: "Ermənistanın sərhəddə təxribatlarını genişləndirməsi əslində yalnız bir məqsədə istiqamətlənib, bu da Azərbaycanı təxribata cəlb etmək. Təsadüfi deyil ki, ermənilərin bu təxribatlarının qarşısında Azərbaycan kifayət qədər soyuqqanlılıq nümayiş etdirir. Çünki, Azərbaycan İrəvanın hiyləsindən xəbərdardır. Bu təxribatlara da nəzər salsaq görərik ki, bunlar ən çox Dağlıq Qarabağın birbaşa sərhəd xəttindədir".

***Nigar Məmmədova***

# "Yəhudi xalqı İkinci Dünya müharibəsi zamanı 20 minlik erməni legionunun qəddarlığını heç vaxt unutmayacaq"

***Dünya birliyi bir neçə gün bundan əvvəl ağır pandemiya şəraitində müasir dünya tarixində mühüm hadisə olan faşizm üzərində Böyük Qələbənin 75 illiyini qeyd etdi. Bizim hamımızı ümumi keçmiş birləşdirir və biz babalarımızın, ulu babalarımızın müharibə illərində özlərini qurban verərək göstərdikləri qəhrəmanlıqlara layiq olmalıyıq.***



AZƏRTAC xəbər verir ki, bu barədə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut bildirib.

İsrailli ekspert deyib: "Böyük Qələbənin bizim əcdadlarımıza nəyin bahasına başa gəlməsini, həmçinin bizim və uşaqlarımızın əmin-amanlıq şəraitində yaşamağımızdan ötrü çiyin-çiyinə vuruşaraq onu necə əldə etmələrini unutmağa ixtiyarımız yoxdur. Neçə il keçsə belə, bu müharibə və Böyük Qələbə haqqında xatirə xalqın qəlbində yaşamalıdır ki, dövlərin əlaqəsi kəsilməsin".

Arye Qut qeyd edir ki, o, bir israilli və sovet ordusunun zabitinin nəvəsi kimi öz babasına görə fəxarət hissləri keçirir. "Lakin mənim babam qazanılan qələbə ilə yanaşı, yəhudi xalqı üçün qorxunc və dözülməz faciəyə çevrilən dəhşətli Holokost soyqırımının da şahidi olub. Həyatımda ilk dəfə olaraq, hələ uşaq yaşlarında mən Holokost barədə məhz babamdan öyrəndim. Mənim babam bu soyqırımı zamanı bütün ailəsini, hazırkı Ukraynanın ərazisində yaşayan bütün doğmalarını itirib. O, cəbhədə olduğuna görə sağ qalmışdı. O, Vətənini müdafiə edərək, Zaporojyedən Berlinədək getdi, lakin öz doğmalarını qoruya bilmədi. Evinə qalib kimi dönürsən, lakin sənin evin boş, bütün doğma-yaxınların isə həyatda yoxdur. Bu, elə ağrılıdır ki... Bu, vəhşiləşmiş və qudurğan faşist rejimi tərəfindən yəhudi xalqının kütləvi şəkildə məhv edilməsi, ağrı-acı, iztirab, alçaldılma, təhqir, vəhşilik, barbarlıqdır", - deyə Arye Qut vurğulayır.

Ekspert qeyd edir ki, ən maraqlısı bir neçə gün bundan əvvəl, Ermənistanın hazırkı baş naziri öz babasının şəklini "Facebook" səhifəsində qoyanda baş verdi.

"Xatırladaq ki, 9 Mayın ərəfəsində Ermənistanın baş naziri Nikol Paşinyan özünün babası - Nikol Paşinyanın şəklini paylaşaraq bu sözləri yazıb: "Nikol Paşinyan, 1913-1943. 138-ci atıcı diviziyasının 554-cü atıcı alayında xidmət edib. Vətən uğrunda ölənlərə əbədi eşq olsun".

Məlum olub ki, Ermənistanın baş naziri Nikol Paşinyanın babası İkinci Dünya müharibəsi zamanı faşistlərlə və nasistlərlə əməkdaşlıq edən kollaborasionist olub. Ermənistanın baş nazirinin sosial şəbəkədə öz babasına həsr etdiyi postdan sonra erməni jurnalistlər tərəfindən onun babasının şəxsiyyətini araşdırılması nəticəsində əldə edilmiş məlumatlar ictimaiyyətə təqdim olunub.

Məsələn, "Iravunk.com" saytı bu mövzuya "Düşmənlə əməkdaşlıq edib, həlak olub": baba Nikol Paşinyan haqqında məlumatlar" adlı məqalə həsr edib. Lakin baş nazirin dərcinin altında Nikol Vartanoviç Paşinyanın nasist ordusunun sıralarında, məhz Qaregin Njdenin rəhbərlik etdiyi legionda vuruşması barədə dərhal şərhlər əmələ gəlməyə başlayıb.

Arye Qut burada Azərbaycan Prezidenti İlham Əliyevin MDB-nin Aşqabad Sammitində dediyi sözləri və Paşinyanın faşist Njdeni sovet dissidenti Soljenitsın ilə müqayisə etmək cəhdini xatırladır. Lakin orada da Ermənistanın "demokrat lideri" müvəffəqiyyətsizliyə uğrayır. Azərbaycan Prezidenti deyib: "Əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur".

Prezident İlham Əliyev Rusiya XİN-in Njdenin nasistlərlə əlaqəsinin və onun sovet hakimiyyət orqanları tərəfindən həbs olunmasını təsdiqləyən hesabatından də sitat gətirib.

Beynəlxalq münasibətlər sahəsində israilli ekspert, ictimai xadim Arye Qut yazır: "Hesab edirəm ki, İlham Əliyev öz ölkəsinin əsl lideri kimi hərəkət etdi. Yeni MDB-yə üzv ölkələrin prezidentləri arasında ilk dəfə olaraq o, Ermənistanın baş nazirinin üzünə onun ölkəsinin artıq illərdir faşist və antisemit Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə məşğul olmasını dedi".

Arye Qutun sözlərinə görə, xalqların öz tarixlərini, tarixi keçmişini təfsir etmək və özlərinin milli qəhrəmanlarının xatirəsini əbədiləşdirmək kimi suveren hüquqlarına heç kim qarışmır. O vurğulayıb: "Lakin biz susmamalıyıq - Prezident İlham Əliyevin MDB Sammitində əsl həqiqəti dediyi kimi. Dəhşətli Holokost cinayətlərində əli olan adamlar milli qəhrəmanlar kimi qələmə veriləndə biz susmamalıyıq. Nasistlərlə əlbir olmuş, faşist və antisemit Qaregin Njdeyə üç il bundan əvvəl Yerevanda abidə ucaldılmasına biz israillilər necə reaksiya verməliyik? Bəşəriyyətə qarşı cinayətdə təqsirləndirilən faşist cinayətkarı ölkə necə özünün qəhrəmanı adlandıra bilər? Erməni faşist və antisemit general Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi - biabırçılıq və Holokost qurbanlarının xatirəsinə təhqir deməkdir. Şəxsən mənim üçün, babasının bütün ailə üzvləri Ukraynada faşistlər tərəfindən məhv edilən bir insan üçün bu, mənim qəlbimdə dözülməz bir ağrıdır".

"Bu gün artıq sirr deyil ki, faşizm ideologiyası, faşist Almaniyası ilə sıx əməkdaşlıq edən erməni faşist və nasistlərin qəhrəmanlaşdırılması Ermənistanda dövlət səviyyəsində təbliğ edilir, onlara abidələr qoyulur, küçələrə, təhsil müəssisələrinə, strateji mərkəzlərə onların adı verilir. Faşizmin, antisemitizmin və terrorizmin populyarlaşdırılması Cənubi Qafqazın bu ölkəsində dövlət siyasətinin ayrılmaz hissəsinə çevrilib. Ən dəhşətli və ürəkbulandırıcı odur ki, faşizm ideologiyası "Njdeizm" adı altında Ermənistanda tədris müəssisələrinin proqramına salınıb və gənc nəsil bu "dəyərlər" ruhunda tərbiyə olunur", - deyə israilli ekspert qeyd edir.

Qutun sözlərinə görə, dünya birliyi müasir Ermənistanın ən monoetnik ölkə olması, burada şovinizmin, millətçiliyin, faşist və antisemitlərin yüksəkliklərə qaldırılmasının istər köhnə Sarkisyan rejimi, istərsə də Paşinyanın qondarma "demokratik rejim"i üçün dövlət siyasətinin ayrılmaz hissəsi olması barədə çox gözəl məlumatlandırılıb. Bunu da qeyd etmək yerinə düşər ki, bu qaniçən faşist və antisemitlərə sitayiş hansısa marginal siyasi qruplaşma qüvvələri tərəfindən icra edilmir. Bu fəaliyyətin və aksiyaların arxasında dövlət dayanır, daha dəqiq desək, müasir Ermənistan Respublikasının hazırkı rəhbəri və siyasi isteblişmenti dayanır.

Faşist və antisemit general Qaregin Njdeyə ucaldılan heykəlin açılış mərasimində Ermənistanın sabiq prezidenti Serj Sarkisyan və sabiq müdafiə naziri Seyran Ohanyanın iştirakı faktı, üstəlik hələ Paşinyanın özünün faşist-kollaborasionist olmuş babasının şəklini Qələbə Günündə üzə çıxarması bir daha sübut edir ki, Ermənistanın həm sabiq, həm də hazırkı liderləri özlərini erməni faşistləri və antisemit Njde və Dronun əsl və həqiqi varisləri hesab edirlər.

"Yaradıcılarından biri faşist Njde olan 20 minlik erməni legionunun İkinci Dünya müharibəsi zamanı törətdiyi qəddarlıqları tarix və yəhudi xalqı heç vaxt unutmayacaq. Arxiv sənədləri ilə təsdiqlənən tarixi faktlar mövcuddur. Başda general Njde olmaqla erməni legionunun məqsədi yəhudilərə və alman ordusu üçün "yararlı olmayan" digərlərinə qarşı basqınlar törətmək, onları məhv etmək idi.

Məhz erməni legionunun fəaliyyəti nəticəsində Simferopol, Yevpatoriya, Aluşta, Kerç və Feodosiya, həmçinin Qərbi Krımın digər rayonları yəhudilərdən tamamilə təmizlənib. Bütün bunlardan sonra biz müasir Ermənistanda erməni faşisti və antisemitinin milli qəhrəman dərəcəsinə qaldırmalarına etinasız baxa bilərikmi? Və bundan sonra ermənilər biz israillilərə vicdan, əxlaq və ədalət dərsi öyrətmək istəyirlər. Və bundan sonra Ermənistanın bəzi "yəhudi" liderləri mənə sübut edəcəklər ki, Ermənistanda yəhudilərə və israillilərə qarşı antisemitizm və ədavət yoxdur", - deyə Arye Qut bildirib.

İsrailli ekspert qeyd edir ki, müasir Ermənistanın bu siyasətini gec açılan bomba adlandırmaq olar. Çünki bu ideologiya ilə böyüyən gənclik gələcəkdə faşizmi və terrorizmi davam etdirəcək.

"Ermənistan hökumətinin maliyyə dəstəyi ilə "Qaregin Njde və onun təlimi" adlı kitab nəşr olunub, həmçinin onun haqqında bir neçə milyon ABŞ dollarına başa gələn film çəkilib. ABŞ və Rusiyanın maliyyə yardımını Ermənistanda bax belə yerlərə - nasizmin, faşizmin və terrorizmin populyarlaşdırılmasına sərf edirlər. Ermənistanın bu dövlət siyasəti İkinci Dünya müharibəsində faşizmlə mübarizədə həlak olan milyonlarla insanın, onların yaxınlarının və veteranların, xüsusən faşizm üzərində qələbəyə nail olunmasında misilsiz xidmətləri olan keçmiş SSRİ-nin vətəndaşlarının xatirəsinə qarşı ifrat hörmətsizliyin nümunəsidir. Burada belə sual meydana çıxır - görəsən ermənilərin Njde, Dro kimi faşistlərdən başqa qəhrəmanları yoxdurmu?", - deyə Arye Qut ritorik sual verir.

# Evdə otur, evdə qal

*Cənab Prezidentimiz İlham Əliyevə ithaf olunur*



**Ramiq Muxtar**

Lövbərini evə sal
Evdə otur, evdə qal.
İnsanları səslədi,
Prezidentin şüarı.
Xalq səsinə səs verdi,
Alqışladı qərarı.
Rəhbər geşə yatmayır
Oyaqdır sübhə qədər.
Xoş xəbər ümidlidir
Sağalıbdır xəstələr.
Birlikdədir gücümüz
Bu sözlər İlhamındır.
Bir də xalqın xevgisi
Rəhbərə inamıdır.
On milyon insanın
Gözü dikilib ona.
Hamı qurbanlıq deyib
İlham Heydər oğluna.
İnanırıq tezliklə
Bu bəla sovuşacaq
Korona virusları
Torpaqda dəfn olacaq.
Təzədən toy-büsata
Bürünəcək yurdumuz
Təki Vətən sağ olsun
Budur istək, arzumuz.




## ÜST açıqladı:
## Koronavirus heç vaxt yox olmaya bilər

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Covid-19 epidemiyasına səbəb olan virusun endemik hala gələ biləcəyini açıqlayıb. SİA bunu xarici KİV-lərə istinadən xəbər verir. Virusun nə vaxt bitəcəyini proqnozlaşdırmağın doğru olmadığını deyən təşkilat QİÇS-ə səbəb olan HİV virusu kimi Covid-19 səbəb olan virusa qarşı peyvənd tapılsa belə, əsla yox ola bilməyəcəyini vurğulayıb. Epidemiyanın qarşısını almaq üçün "sıx səylərin" davam etdirilməli olduğunu bildirən ÜST-nin təcili yardım mütəxəssisi Mayk Rayan, "Bunu masaya qoymalıyıq. Bu virus cəmiyyətlərimizdə bir endemik hala gələ bilər və heç vaxt yox olmaya bilər" deyib. Doğru deməyin vacibliyinə işarə edən ekspert, "Bu xəstəliyin nə vaxt bitəcəyini heç kim deyə biləcəyini düşünmürəm. Düşünürəm ki, bu sahədə veriləcək sözlər və tarixlər yoxdur. Xəstəlik uzunmüddətli bir problemə də çevrilə bilər və ya əksinə" deyə bildirib.

### 'Peyvəndi tapmaq, xəstəliyin sona çatacağı demək deyil'

Dünyada 100-dən çox vaksin tədqiqatı və klinik testlər aparılır. Lakin mütəxəssislər xəbərdarlıq edirlər ki, peyvəndi tapmaq virusun yox olacağı mənasına gələ bilməz. Qızılca xəstəliyini misal gətirən Rayan, bu xəstəliyə qarşı istehsal olunan vaksinlərin virusu məhv etmək üçün yetərli olmadığını vurğulayır. Endemik, müəyyən bir ərazidə və ya müəyyən bir populyasiya arasında proqnozlaşdırılan dərəcədə baş verən bir epidemiya olaraq təyin olunur.

**Aysel Məmmədova**

# “Milli Şura” REAL-dan qurtarıb, geylərə keçdi?

*Və ya tükənən siyasətdən cinsi azlıqlara doğru...*

***“Milli Şura”nın sözdə yuxarı eşalonu hesab edilən üzvlərinin “zoom” toplantıları bu dəfə də səs-küysüz ötüşməyib. Belə ki, artıq uzun müddətdir REAL partiyası ilə hərc-mərclik edən qurumun koordinasiya mərkəzinin təmsilçiləri - xüsusilə Gültəkin Hacıbəyli, Eldəniz Quliyev və əlbəttə ki, Əli Kərimli və Cəmil Həsənli, eləcə də digərləri siyasi mövzunu dəyişərək, geylərin üzərinə yönəldib. Daha dəqiq desək, “Milli Şura”nın virtual iclasında işlədilən ifadələr və videonun həmin hissəsinin sosial şəbəkədə ictimailəşməsi böyük qalmaqala səbəb olub.***



### Cinsi azlıqları hədəfə almaqla, onlardan pənah umurlar?

Məsələni daha da dəqiqləşdirməklə qeyd edək ki, “Milli Şura”nın funksioneri G.Hacıbəyli sözügedən iclas zamanı xaricdə yaşayan jurnalist İsmayıl Cəlilovu hədəf alaraq, cinsi azlıq nümayəndələrini sərt şəkildə təhqir edib. Qeyd edək ki, İ.Cəlilov əsasən, REAL partiyasına dəstəkləri ilə yadda qalıb və zaman-zaman AXCP və “Milli Şura” rəhbərliyini hədəfə alaraq, onları müxalifəti parçalamaqda, intriqaçılıqda ittiham edib. Xüsusilə, REAL partiyasının sədri İlqar Məmmədovun azadlığa çıxmasından sonra başlayan kampaniya bu yaxınlarda onun və tərəfdarı Rəsul Cəfərovun bəraət almalarından sonra daha da qızışıb. Hətta vəziyyət sosial şəbəkələrdə sərt ittihamlardan təhqirlərə qədər inkişaf edib.

Maraqlı məqam isə budur ki, G.Hacıbəyli müxtəlif ittihamları və təhqirləri ilə İ.Cəlilovun timsalında bütün geyləri təhqir etməklə yanaşı, ona VHP-nin ali məclisinin sədri Rafiq Manaflı da dəstək göstərib. “Mən təəssüf edirəm ki, Hitler o vaxt geyləri qırıb qurtarmadı” deyə, o bildirib.

Əslində, hər kəsin öz fikri var və söz yox ki, həmin fikirləri dəstəkləyib-dəstəkləməmək də insanların öz işləridir. Ancaq məsələnin daha bir tərəfi budur ki, belə uğursuz məsələlərin özlərini “müxalifətin əsas gücü” kimi təqdim edən fərdlər tərəfindən qabardılaraq siyasi müstəviyə keçirmələri anlaşılmazdır. Onlar sanki pənahlarını cinsi azlıqlardan alırlar, əlbəttə ki, onları ittiham etməklə.

### Gültəkin Hacıbəyli üzrxahlığı Əli Kərimliyə görə edib?

Məsələn, xatırlada bilərik ki, əxlaqsızlıq bir sözdür və bu sözün altında onlarla qəbulolunmaz, həmçinin milli dəyərlərimizə sığmayan müxtəlif hərəkətlər dayanır. Görünür, bu gün Ə.Kərimlini özünə lider seçən G.Hacıbəyli AXCP sədrinin də adının bu kimi məsələlərdə hallanmasını unudub. Hətta 2003-cü ildə saxlanılarkən, Ə.Kərimlinin müdafiəsinə məhz geylər qalxmışdı. Üstəlik, onlar AXCP-nin o zamankı qərargahı qarşısında “Əli Kərimlidən əl çək!” şüarı ilə piket də keçirmişdilər. G.Hacıbəylinin bunu unutması isə, yəqin ki, onun tarixi unutmasının göstəricisidir. Görünür, o sonradan nə qədər səhvə yol verdiyini anladıqdan sonra, özünün Facebook səhifəsində üzrxahlıq edib. Yəni dolayısı ilə liderinə “qələt eləmişəm” deyib.

### Bu məsələ Xədicə İsmayılın da xətrinə dəyibmiş...

Ancaq gey məsələsinin siyasi məqsədlər naminə qabardılması son illər “Milli Şura”ya qarşı düşmənçilik mövqeyi sərgiləyən Xədicə İsmayılın da xoşuna getməyib. Özünü gah jurnalist, gah QHT rəhbəri, gah da feminist və cinsi azlıq tərəfdarı kimi təqdim edən X.İsmayıl sözügedən məsələyə sərt mövqe bildirib: “Salam verilməyəcək bir qrup adam. “Milli Şura”nın sədri Cəmil Həsənli, bir zəhmət, silahdaşlarının lüğətinə və düşüncə tərzinə aydınlıq gətirsin. Dostlar dedi, diqqətlə baxdım. Özü də orada imiş. Həm də buna niyə rahat qulaq asdığını izah etsin”.

Beləliklə, müxalifətin sözügedən cinahının REAL partiyasının ardınca, indi də geyləri hədəfə almaqla gündəmdə qalmaq cəhdləri artıq həmin ünsürlərin sözü qurtaran və “dala-dalay” deyən aşıq təsiri bağışlamaqdadır. Hər halda, baş verənlər də zatən şey göz önündədir...

*Rövşən RƏSULOV*

## Koronavirusa yoluxan xəstələrin iybilmə qabiliyyəti niyə itir?



ABŞ alimləri bildirib ki, koronavirusun ən çox görülən əlamətlərindən biri - iybilmə qabiliyyətinin zəifləməsi və itməsidir.

Xarici mətbuat xəbər verir ki, alimlər iybilmə qabiliyyətinin itirilmə səbəblərini aydınlaşdırıb. Siçanlar üzərində aparılan təcrübələr göstərib ki, COVID-19 iylərin tanınmasına kömək edən zülalların köməyi ilə bədənə nüfuz edir. Bu maddələr burun boşluğunda ifraz olunur, üstəlik gəmiricilərin yaşlı nümayəndələri gənclərdən daha çox formalaşır. Alimlər belə bir mexanizmin insanlar üçün də keçərli olduğunu istisna etmir. Bundan əlavə, araşdırma yaşlı insanların koronavirusa daha həssas olma səbəblərini göstərib. Bundan əvvəl Pasteur Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunun direktor müavini Aleksandr Semyonov COVID-19-un təkcə tənəffüs sisteminə deyil, ürək-damar sisteminə də təsir etdiyini bildirmişdi./publika.az

## Erməni müxalif lider fövqəladə vəziyyətin uzadılmasını qanunsuz sayır



“Ermənistanda fövqəladə vəziyyət rejiminin uzadılması qanunaziddir və siyasi məqsəd daşıyır”. “Report” “Aysor”a istinadən xəbər verir ki, bunu “İşıqlı Ermənistan” parlament fraksiyasının lideri Edmon Marukyan “Facebook” səhifəsində yazıb. O bildirib ki, Ermənistan konstitusiyasının “Fövqəladə vəziyyət rejimi haqqında” 5-ci maddəsinə əsasən, bu rejim 30 gündən, əlahiddə yerlərdə 60 gündən artıq ola bilməz. Müxalifət lideri deyib ki, müddət başa çatandan sonra fövqəladə vəziyyət rejimi dayandırılmalıdır. Qeyd edək ki, Ermənistanda fövqəladə vəziyyət rejimi mayın 14-də başa çatırdı.

# “Gültəkin sosial şəbəkədəki səhifəsində üzr istəməyə məcbur olub”



“Biabırçılıq və rəzillikdir. Bir siyasətçi adına qətiyyən yaraşmayan haldır, rüsvayçılıqdır, səviyyəsizlikdir. Ayıb olsun. Görün hakimiyyət iddiasında olan adamlar hansı leksikonla, jarqonla danışırlar. Görün qadın olan tədbirdə kişi hansı söyüşü dilə gətirir. Görün bunlar hara qədər eniblər ki, artıq küçə söhbətlərini düzənlədikləri rəsmi tədbirlərə transfer ediblər”. Bunu SİA-ya açıqlamasında Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev radikal müxalifətin cəmləndiyi “Milli Şura”nın Koordinasiya Mərkəzinin dünən keçirilən videokonfransında səslənən ifadələrə münasibət bildirərkən söyləyib.

E.Musayevin sözlərinə görə, videokonfransda Gültəkin Hacıbəylinin səsləndirdiyi anormal fikirlərə hamı məsxərə ilə yanaşır və gülürlər: “Hamı bu haqda danışır. Saytlar, sosial şəbəkələr, fərdi səhifələr. Hamı və hamı! Hər kəs Gültəkinin ağzından çıxan sözlərdən, başqa birinin dilindən səslənən söyüş qarşılığında yenə həmin Gültəkinin gülüşlə, qəhqəhə ilə verdiyi cavabdan danışır. Hər kəs bunların rəzalətindən, bitmişliyindən, primitivliyindən, adiliyindən danışır. Hər kəs “Milli Şura”nın rəhbərliyinin üfunət qoxan, təhqir saçan, küçə sözləri ilə cilalanan müzakirəsindən, dialoqundan danışır. Sonra da orda-burda yekə-yekə deyirlər ki, filan qlobal məsələ ilə bağlı tədbir keçirdik. Budur sizin qloballığınız? Budur sizin mövzu predmetiniz? Lağlağıya, qaraguruh sərsəmləmələrinə siz tədbir deyirsiz? Görün vəziyyət nə yerə gəlib ki, kompleksli, dikbaş, özündən müştəbeh Gültəkin video yayılandan sonra sosial şəbəkədəki səhifəsində üzr istəməyə məcbur olub. Deyib ki, emosional, gərgin durumda olduğum üçün belə ifadə işlətmişəm. Ay qız, nə emosionallıq, nə gərginlik? Davamlı qəhqəhəndən ağız söyləyəni qulaq eşitmirdi. Hamı gözləyirdi ki, gülüb qurtarasan, sonra video konfrans əhli öz ənənəvi söyüş ritorikasına davam eləsin. Və ya sənin hələ emosional, gərgin vəziyyətin budursa qeyri-emosional halın nədir, necə olur bəs, ay Gültəkin Hacıbəyli? Həqiqətən sözün bitdiyi yerdir. Artıq leksikonumuzda bu ünsürləri təsvir edəcək kəlmə belə qalmayıb. Bata bildikcə batırlar. Ucuzlaşa bildikcə ucuzlaşırlar və nə qərib ki, özlərindən başqa hamı bunun fərqindədir”.

*Gülyana*

# Pandemiyadan sonra dünya iqtisadiyyatını nə gözləyir?



“Hazırda dünya iqtisadiyyatı kəskin böhran içərisindədir. İstehsal sahələrinin dayanması, iqtisadi aktivliyin sıfır həddinə düşməsi dünya iqtisadiyyatının bütün aparıcı ölkələrində işsizliyi kəskin artırır”. Bu fikirləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Pərviz Heydərov deyib. O bildirib ki, neftin dünya bazarında qiymətinin ucuzlaşması ilə əlaqədar istehsalçı ölkələrdə energetika sektorunda işsizlik daha yüksək sürətlə çoxalır: “ABŞ hökuməti bu prosesin qarşısıalınmaz hala gəlməsindən ehtiyatlanaraq koronavirusa görə qadağaları mümkün qədər tez aradan qaldırılmasına, iqtisadi aktivliyin bərpa olunmasına çalışır. Məhdudiyyətlər götürülsə belə, iqtisadi bərpanın ləng gedəcəyi gözlənilir ki, bunun da nəticəsində işsizlik artımı dünyada hələ avqust-sentyabra qədər davam edəcək”.

Azərbaycana gəlincə, ekspert qeyd edib ki, hazırda ölkədə işsiz sayının reallıqda nə qədər olduğunu söyləmək çətindir: “Bəziləri 190 manat müavinət verilən 600 min nəfərin hamısının işsiz kimi qəbul olunmasını təklif edirlər. Lakin bu, düzgün yanaşma deyil. Çünki o yardımı alanların içərisində qeyri-rəsmi məşğul olanlar, müxtəlif özünüməşğul şəxslər də var. Yəni bu müavinəti almaq hələ işsiz olmaq demək deyil. Koronavirusla bağlı vəziyyət belə deməyə əsas verir ki, ölkədə işsizlərin sayı 200 min nəfər civarındadır”.

P. Heydərov vurğulayıb ki, iqtisadiyyatın bərpası bir anda baş verəcək proses deyil: “Xüsusilə pandemiyadan ən çox zərər çəkmiş sahələrdə bu proses aylarla vaxt tələb edəcək. Buna görə də ictimai iş yerlərinin sayı artırılır, özünüməşğulluq proqramının əhatə dairəsi genişləndirilir, həmçinin ünvanlı sosial yardım proqramına cəlb olunanların da sayı artırılır. Yəni hökumət yeni tam iş yerlərinin yaradılması istiqamətində vəziyyətin gərgin olduğunu nəzərə alaraq, digər yollarla iş yerini itirmiş, gəlirlərindən məhrum olmuş şəxslərə dəstək verməyə çalışır”.

*Nailə Məhərrəmova*

# Tramp qubernatorlara səsləndi: “Məktəbləri açın”



ABŞ Prezidenti Donald Tramp ölkədə koronavirusun yayılmasına baxmayaraq, ştatların qubernatorlarınıməktəbləri açmağa səsləyib. “HaberGlobal” məlumat verir ki, dövlət başçısı Ağ Evdə Kolorado və Şimali Dakota qubernatorları ilə görüşdən sonra jurnalistlərə açıqlama verib: “Düşünürəm ki, qubernatorlar mütləq məktəbləri açmalıdırlar. Virus gənclərə az təsir edir. 65 yaşdan yuxarı müəllimlər özlərini qorumaq istəyə bilər, amma düşünürəm ki, məktəblər tezliklə mütləq açılmalıdır”.

# Satqınların sonu, aqibəti belə olmalıdır!

*Əli Kərimli haraya qədər?*

**Harınlaşmaq, qudurğanlıq etmək heç bir yerə sığmaz. Radikal müxalifət adlı bir toplumun bu 30 illik getdikləri yola nəzər yetirdikdə. Nə qədər qurğan, nə qədər mənəviyyatsız və əxlaqsız olduqlarının şahidi olursan. Belə bir deyim var, insanın savadsızlığına da, mədəniyyətsizliyinə də, cahilliyinə də göz yumub birtəhər susmaq olar, amma əxlaqsızcasını aşırı dərəcədə olan böhtanları eşidib ona laqeyd qala bilmirsən.**

Çünki bu gün özlərini "vətənpərvər", "demokrat", "xalqın qeydinə qalan" kimi göstərənlərdən xəbərsiz olan, meydan qəhrəmanları və tribuna hərislərini tanımayaraq onlara inanmaq istəyən gənclər üçün əli kərimlilərin, isa qəmbərlərin öz dilindən bəzi faktları diqqətə çatdırmaq yerinə düşər. SİTAT: 1992-1993-cü illərdə Azərbaycan prezidenti olmuş Əbülfəz Elçibəy: "RÜŞVƏT ALANDA MİLYONLARLA DOLLAR ALIRSINIZ, ALIRSAN, HEÇ OLMASA YÜZ MİNLƏRLƏ AL, BEŞ MANAT AL, İNSAFLA AL. Deyirlər, 200 min dollar verməlisən, yoxsa səni gömrükdən buraxmayacam, çünki sən 400 min dollar qazanacaqsan. Gəl qazancı yarı bölək...".



P.S. Buyurun, Əli Kərimlinin hər gün bəh-bəhlə haqqında danışdığı o illərin real vəziyyəti. Sizcə, Əli Kərimli, İsa Qəmbər... kimilərin bu gün danışmağa mənəvi haqqı varmı?

## AXC-Müsavat qruplaşmasının faciəsi: Xəyanət, şəxsi mənafe, radikallıq...

Prezidenti İlham Əliyev mayın 13-də Azər Qocayevi Kəlbəcər rayon icra hakimiyyətinin başçısı vəzifəsinə təyin olunması ilə əlaqədar videoqəbulda çıxışı zamanı bir çox məqamlara toxunarkən bu gün radikal müxalifətin bu 27 il ərzində xəyanətkar, cinayətkar əməllərini bu gün də davam etdirdiklərini bildirib: "Kəlbəcərin işğal altına düşməsinin səbəbkarı xəyanətkar AXC-Müsavat hakimiyyətidir. Məhz onların xəyanətkar və yarıtmaz fəaliyyəti nəticəsində 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşmüşdür, vətəndaşlarımız həlak olmuşdur və Kəlbəcərdən olan bütün soydaşlarımız məcburi köçkün şəraitində yaşamağa məcbur olmuşlar. Bu cinayət AXC-Müsavat hakimiyyətinin birinci cinayəti deyildi. Şuşanın və Laçının işğal altına düşməsində də AXC-Müsavat tandeminin çox böyük mənfi rolu olmuşdur".

Dövlət başçısı onu da vurğulayıb ki, ovaxt da, bu gün də bu cinayətkarlar hakimiyyət davası edib: "Bu gün özünü radikal müxalifət adlandıran, əslində, indiki şəraitdə çox aciz durumda olan marginal qruplaşma nəyin bahasına olursa-olsun Azərbaycanda vəziyyəti pisləşdirmək istəyir. Təbii ki, onların buna nə gücü, nə də ağlı çatır. Ancaq onların niyyəti məhz budur: Azərbaycanı ləkələmək, ölkəmizin imicinə zərbə vurmaq, pandemiya dövründə apardığımız uğurlu siyasətə kölgə salmaq, xarici havadarlarının maraqlarını təmin etmək, satqın, xain təbəqə, "beşinci kolon" kimi xarici dairələrin əmrlərini yerinə yetirmək".

## "Xalqa, dövlətə xəyanət edən xaindir"

Prezident çıxışı zamanı radikal müxalifətin exəyanətkar xain olduğunu bildirərərk xalqın onların bu xəyanətlərini unutmamağı dedi: "Azərbaycan xalqı bunu unutmamalıdır, xalq düşmənlərini unutmamalıdır. Mən onları öz adları ilə çağırıram. Belə də olmalıdır. Çünki xalqa, dövlətə xəyanət edən xaindir. Xaricin maraqlarını burada təmin etmək istəyən, öz xalqına, öz xalqının, dövlətinin maraqlarına zərbə vurmaq istəyən düşməndir. Bunun başqa adı yoxdur. Hamı da bunu bilməlidir".

Və bu gün dövlət başçımızın hər görüşdə dediyi bu sanballı faktlardan sonra AXCP-Müsavat hansı xəyanət axtarışını edir?. Və özlərini "lider" adlandıran Əli Kərimli ən birinci cinayətkar və xəyanətkar deyilmi? Məşhur fransız ədibi Viktor Hüqo dediyi kimi: "Vətənini rüsvay etmək - ona xəyanət etmək deməkdir".

Bu gün bütün dünyanı ağuşuna alan kornavirusa qarşı ən düşünülmüş addamı atan dövlətimizin apardığı uğurlu nəticələrə qarşı çıxaraq düşünürsünüz ki, sosial şəbəkələrdə süni səs-küy, böhtanlar yacdırmaqla xalq, millət sevgisi qanacaqsınız?. Əsla!!!Elə zənn edirsiniz ki, ağ-qara deməklə elədiyləriniz unudulacaqmı? Əsla!!! Haraya qədər?. Artıq sonunzdur. Sizin kimi satqınların yeri artıq 2003-cü ildən tarixin zibillikləridir, xalq o yeri sizin kimi satqınlara göstərib. Əgər sosial şəbəkələrdə Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı və...bu sosial şəbəkə virusları cinayəti demokratiya, əxlaqsızlığı şəxsi həyat, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməyi "siyasi mübarizə" adlandıraraq özlərini "əsl müxalifətçi" hesab edirlərsə, o zaman susmaq haraya qədər?

## Satqınların sonu...

Və bu günlərdə bu viruslardan olan Əli Kərimli sosial şəbəkədə bildirir ki, "hətta mobil telefonum da ev dustağına" çevrilib deməsinə "qüvvət" verən satqınların "emblemi" Gültəkin Hacıbəyli də bildirir ki, "hazırda hamımız ev dustağıyıq, mən də. "Konslagerdə" yaşayırıq" deməlgri həyasızlığın, daha doğruzu xəyanətkarların novbəti xəyanəti deyilmi? Onlardan geri qalmayan satqın, mənəviyyatsız Sevinc Osmaqızıdır ki, məqsədi həmişə Azərbaycanın inkişafı, tərəqqisi, insanlarımızın inkişaf etmiş Qərb dövlətlərindəki kimi yaşaması deyil. Qətiyyən, o tam əksini arzulayır: qiyam, üsyan, vətəndaş müharibəsi, qan gölü. Özü də son zamanlar dünyanı ağuşuna alan koronavirusun tüğyan etdiyi bir zamanda "Osmanqızı TV" kanalında etdiyi etdiyi çağırışlarında da aydın şəkildə vətəndaş müharibəsinin olması arzusunda olduğunu aydın şəkildə bilddirir. Ancaq bu arzu da arzu olaraq qalacaq və bu virusla birlikdə o dünyalıq olacaqsan, İnşallah!

Lakin şər, böhtan, qarayaxma üslübü ilə seçilən radikal düşərgə elə zənn edir ki, bu yola nəyəsə nail olacaqlar... Bax, budur əxlaqsızlıq, satqınlıq.

## Qabil Hüseynli: "AXCP-Müsavat uzun illər kiçilə-kiçilə bu günümüzə gəlib çatıblar"

Müxalifət düşərgəsindəki son proseslər, partiyalararası münasibət, "liderlər"in qarşılıqlı ittihamları və sair məsələlərlə bağlı politoloq Qabil Hüseynli Müsavat və AXCP arasında yaşanan gərginliyin səbəbini müxalifət funksionerlərinin qarşılıqlı ittihamlarıda gördüyünü bildirib: "Bu, çox ciddi surətdə müxalifətin indiyə qədər uğur qazanmamasının səbəblərini göstərən amil xalqın onlara inamımının olmasıdır. Bir də müxalifətə başqa düşmən lazım deyil, içindədir düşmənləri. Bir də satqınların sonu, aqibəti belə olmalıdır. Çünki Əli Kərimli, İsa qəmbər, Arif Hacılı, Cəmil Həsənli və onların ətrafındakılar satqınlıq mayası ilə mayalanan xəyanətkarlardır".

## Sərdar Cəlaloğludan Əli Kərimliyə İTTİHAM

ADP sədri Sərdar Cəlaloğlu epidepmiyadan yararlanmaq istəyən AXCP sədrinin son vaxtlar minbir oyundan çıxmasına qarşı çıxaraq bildirib ki, səbrim tükəndi: "Bu böhtan, şantaj, araqarışdıranlıq etməyə adət edən AXCP sədri Əli Kərimlinin bütün meymunluğunu, satqınlığını görmüşük. İndii nədir belə bir zamanda düşüb ortaya, "dustağam", "inteneğtim kəsilib" nə bilim daha nələr... Artıq bəhanələrin, böhtanların zamanı keçib, ay "bəy"!. Bu gün xalq kimlərin Azərbaycanda intriqa apardıqlarını, satqınlıqlarını yaxşı bilir. Və xəyanətkar axtarışı da etməyə ehtiyac yoxdur. Belə bir söz var, oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı. Əli Kərimli və ətrafı məhz oğru, satqın və xəyanətkardır. Barı ayıbına kor olub dilini dinc qoy...".

Bəli, əgər abır deyilən hissiyat varsa. Ancaq alqı-satqı obyekti olaraq, bu məfhum çox işlədilib. İşlənmiş əşyalara isə nə Azərbaycan siyasəti, nə Azərbaycan hakimiyyəti, nə də beynəlxalq təşkilatlar ehtiyac duymurlar. Milli xəyanətkarların yeri isə tarixin zibilliyidir və onlar sona qədər həmin zibillikdə qalacaqlar. Çünki satqınların sonu belə olmalıdır!!!

**Rəfiqə HÜSEYNOVA**

# Müsavatçıların "Milli Şura"dan tələbi nədir?

*"İyrənc fikirlər səslənib, üzr istəməlidirlər"*

"Milli Şura"nın koordinasiya mərkəzinin "zoom" torpantısı yalnız məlum cinsi azlıq qalmaqalı ilə müşahidə olunmayıb. SİA-ya daxil olan məlumata görə, sözügedən virtual toplantıda məhz AXCP sədri Əli Kərimlinin özəl sifarişi əsasında qurumun sədri Cəmil Həsənli Müsavat partiyasını və onun başqanını, eləcə də funksionerlərini hədəfə alan fikirlər bildirərək, qarşı tərəfi "demokratik düşərgəyə" xəyanət etməkdə suçlayıb. O cümlədən, qurumun digər üzvləri də səs-səsə verərək, müsavatçıları alçaldan fikirlər irəli sürməklə, qarşı tərəfi təhqirlərə məruz qoyublar.



Görünür, AXCP sədri və onun "Milli Şura"dakı əlaltıları, habelə müqəvva sədr təsiri bağışlayan C.Həsənli hələ də, Müsavat partiyasının onları qapını çırparaq tərk etməsi hadisəsini unutmayıblar və hazırda da, müsavatçılara qarşı nəinki kin, o cümlədən nifrət bəsləyirlər.

## Fərəc Kərimli: "İyrənc fikirlər səsləndirilib"

Ancaq bu məsələnin daha bir ilginc tərəfi budur ki, "Milli Şura" qapalı virtual iclas keçirəcəyini xəbər vermişdi və həmin iclasın canlı şəkildə efirə getməsi ilə əvvəlcədən edilmiş xəbərdarlıq üst-üstə düşmür. Daha dəqiq desək, onların fikirlərini guya hakimiyyət tərəfindən ictimailəşdirilməsi iddiası əslində alt-üst olur. Əbəs deyil ki, Müsavat partiyasının başqan müavini Fərəc Kərimli sözügedən məsələyə və əsasən də, "Milli Şura" funksionerlərinin onları təhqir etməsinə münasibət bildirərkən deyib ki, iclasın davamında daha iyrənc fikirlər səsləndirilib. SİTAT: "Müsavat partiyası "Milli Şura"nın sədri tərəfindən, koordinasiya kərkəzinin üzvləri tərəfindən təhqir edilib. Cəmil Həsənli və digərləri Müsavat partiyasından, cəmiyyətdən dərhal üzr istəməlidir. Bu biabırçılıqdan fikir yayındırmaq üçün hələ bir status da yazıb ki, guya iclas qapalı olub və hakerlər tərəfindən yazılıb. Halbuki iclasda xəbərdarlıq edilir ki, iclas canlı efirə gedir".

## Səxavət Soltanlı: "Cəmil Həsənli Müsavat partiyasından üzr istəməlidir"

Arif Hacılının digər müavini Səxavət Soltanlı da "Milli Şura" üzvlərini iclasda Müsavat partiyasının ünvanına səsləndirdikləri fikirlərə görə tənqid edib və belə məsələlərin yolverilməz olduğunu bildirib. "Cəmil Həsənli Müsavat partiyasından üzr istəməlidir", deyə tələb irəli sürən S.Soltanlının fikirlərini müsavatçılar da dəstəkləyiblər. Onlar qarşı tərəfi tərbiyəsizlikdə, məsuliyyətsizlikdə və s. məsələlərdə ittiham atəşinə tutaraq, "Milli Şura"nın müxalifət düşərgəsi üçün üz qarası olduğunu bildiriblər.

Xatırladaq ki, Müsavat partiyası 2013-cü ilin prezident seçkiləri ərəfəsində "Milli Şura"nın tərkibindən çıxaraq, bu qurumun Rusiyanın qaranlıq dairələri ilə iş birliyində olduğunu bəyan etmişdi. Həmçinin bildirilmişdi ki, qurum sifarişlər əsasında fəaliyyət göstərir və xarici qüvvələrə nökərçilik edir.

## Necə deyərlər, köhnə hamam, köhnə tas...

Digər tərəfdən, həmin zamanlarda quruma sədrlik edən Rüstəm İbrahimbəyovun seçkilərdə iştirakı mümkünsüzlüyü üzə çıxandan sonra, "Milli Şura" sədrliyinə iddialı olan əsas adamlardan biri də Müsavat partiyasının sabiq başqanı İsa Qəmbər olmuşdu. Ancaq AXCP sədri Ə.Kərimlinin və onun sifarşçilərinin təsiri ilə İ.Qəmbər həmin quruma sədr seçilməməklə yanaşı, həm də müxalifətin vahid namizədi də ola bilməmişdi. Onun iddialı olduğu yerə isə C.Həsənli "seçilmişdi". Bu faktın üzərindən kifayət qədər zaman keçsə də, tərəflər arasında savaş davam edir və "Milli Şura" funksionerlərinin və sədrinin müsavatçıları təhqirlərə məruz qoymalarının da təməlində həmin məsələnin də dayandığı şübhəsizdir. Necə deyərlər, köhnə hamam, köhnə tas...

**Rövşən RƏSULOV**

# Azərbaycan mədəniyyətində modernizm

***Modernizmin Qərbə xas mərkəzçiliyi (sentrizmi) aşağıdakıları nəzərdə tutur: dünya ölkələrinə cəlb edilmiş hər bir ölkədə siyasi, iqtisadi mədəni və texnoloji islahatlar aparılmalı, sekulyarlaşma (dinin dövlətdən ayrılması) baş verməli bu islahatlar liberal demokratiya dəyərlərinə əsaslanmalıdır.***

Müasir Avropa sivilizasiyası məhz modernizm və modern dövr əsasında formalaşmışdır. Müasir həyatın tərkib hissələri olan elm, sənaye, demokratiya, tərəqqi və cəmiyyətin mövcud olması üçün zəruri olan digər dəyərlərin hamısı, eləcə də Qərb sivilizasiyasına xas olan misilsiz yüksək həyat standartları və digər nailiyyətlər də modernin məhsullarıdır.

Modernizmdən sonrakı mərhələ postmodernizm adlanır. Elmi ədəbiyyatda bu məsələyədə müxtəlif yanaşmalar mövcuddur. "Postmodernizm" sözü əslində ilk dəfə memarlıqda işlədilmişdir, amma tezliklə başqa sahələrə yayılmış və bu gün eyni zamanda müəyyən estetik duyum tərzini, mədəni vəziyyəti, tənqid təcrübəsini, iqtisadi şəraiti və siyasi davranış üsulunu birlikdə ehtiva edir. Şübhəsiz ki, burada postmodernizmin maddi və mənəvi mədəniyyəti əks etdirdiyindən söhbət gedir. Modernizm elmi, siyasi, mədəni inkişaflara və sənaye inqilabına böyük ictimai dəyişikliklərə səbəb olan bir prosesdir. Modernizm özü də köhnəliyi inkar edir. Postmodernizm inkarın özünü də inkar edir. Modernizm Qərbdə XX əsrin əvvəllərində, postmodernizm isə XX əsrin ikinci yarısında, modernizmin davamı olaraq meydana çıxmışdır. "Modernizm indi, yeni başlayan mənasındadır. Postmodernizm isə "modernizmdən sonra gələn, müasir sonrası" mənasını verir.

XX əsrin axırlarından başlanan dövr Qərbdə postmodernizm adlanır. Mədəniyyət çox sürətlə dəyişən mühitin tələblərinə cavab vermədidir. Mədəniyyət adətən ləng dəyişir, lakin o son nəticədə, dəyişən mühitin çağırışına cavab verir. Sosial-iqtisadi sahədə baş verən dəyişikliklər fərdin həyat təcrübəsinə təsir edərək bu yolla fərdi səviyyədə əqidələrin, mövqelərin və dəyərlərin yenidən formalaşmasına kömək edir. Mədəniyyətlər birdən-birə dəyişmir. Yetkinliyə çatarkən insanlar adətən necə olmasından asılı olmayaraq dünyaya əvvəldən qazanılmış münasibəti saxlayırlar. Beləliklə, mühitdə baş verən əhəmiyyətli dəyişikliklər adətən daha çox şəxsi təşəkkül illərində yaranan yeni şəraitdə yaşayan nəsillərə təsir edir.

Postmodernist situasiya özünün və başqalarının mədəni dəyərlərini görmək və onlara malik olmağın yeni təcrübəsini irəli sürür, müxtəlif mədəniyyətlərin inteqrasiyasını stimullaşdırır, dünyaya bir bütöv baxışın yaradılmasına kömək edir, ümumbəşər mədəniyyətinin formalaşmasına imkan yaradır.

Postmodernistlər Qərbi ittiham etmir, modernizm ilə tradisionalizmi bir-birinə qarşı qoymur və universal ümumbəşəri dəyərlərin mövcudluğunu təkidlə sübut etməyə çalışırlar.

Iki növ postmodernizm olduğu göstərilir: konstruktiv və dekonstruktiv postmodernizm. Konstruktiv postmodernizm analitik fəlsəfənin irəli sürdüyü dil oyunları konsepsiyasıı lə sıx varislik əlaqəsindədir. Dekonstruktiv postmodernizm fransız poststrukturalizminin varisidir.

Fəlsəfi postmodernizm hermenevtikadan başlamış Frankfurt məktəbinin tənqidi nəzəriyyəsi və analitik fəlsəfəyə qədər bir sıra fəlsəfi cərəyanlardan kənarda mövcud ola bilməz. Postmodernizmin əlaqədə olduğu həmin cərəyanlar romantizm və klassizmdən başlayaraq kubofutrizm və postimpressionizmi əhatə edir.

Ümumdünya mədəniyyəti əslində bütün dünya xalqlarının mədəni inkişafının yekunu, onların yaratdığı ideya və dəyərlərin məcmusudur. Lakin bəzi şovinist və ya kosmopolit, avropasentrist baxışlar da mövcuddur ki, onlar öz dillərini, dinlərini və mədəniyyətlərini başqa xalqlara qəbul etdirməyə, dünyanın bütün "qeyri-sivil" hissəsini öz sivilizasiyanı birləşdirməyə çalışırlar... XX əsrin 50-60-cı illərində Qərb nəzəriyyəçiləri dünyanın qalan hissəsinə belə bir konseptual sxem təklif etdilər: birincisi, pan-Avropa dünyasının inkişafı Avropa inqilablarının, yəni demokratik həyatın dəyər və ənənələrinin kökünün kəsilməsinin nəticəsidir, ikincisi, demokratiyanın ən ali etalonu Qərb cəmiyyəti və ona xas olan təsisatlardır,deməli, üçüncüsü, Qərbə aid olmayan ölkələrdə cəmiyyətin demokratiklik dərəcəsi onların Qərb modelinə nə dərəcədə yaxınlaşmasının səviyyəsi ilə ölçülür. .

Şübhəsiz ki, antimodernistlərin fikrincə, istər modernizm, postmodernizm, neomodernizm, vesternləşmə, mədəni qloballaşma bir qayda olaraq avropasentrizmə xidmət edir. Avropa öz sivilizasiyasını romangerman mədəniyyətini qabaqcıl, mütərəqqi ümumdünya mədəniyyəti kimi təqdim edir. Bu isə birtərəfli yanaşmadır. Bəziləri Qərbin sivilizasiya parametrinə uyğun gəldiyini, Şərqin isə bir neçə sivilizasiyanın vəhdətindən ibarət olduğunu göstərirlər. "Bəşər tarixinin yaranışından indiyə qədər Qərb sivilizasiyası istisna olmaqla, hərfi mənada coğrafi termin ilə adlandırılan heç bir digər sivilizasiyaya rast gəlinməmişdir. Sivilizasiyaların birinci nəslindən müasir dövr mərhələsinədək yalnız Qərb sivilizasiyası bu mənada fərqləndirilmişdir. Çünki ondan başqa nə Şimal, nə Cənub, nə də Şərq adlı sivilizasiya mövcud deyil. Doğrudur, elmi ədəbiyyatlarda biz Şərq mədəniyyəti, bəzən isə hətta Şərq sivilizasiyası anlayışlarına rast gəlirik. Amma sırf sivilizasiya parametrləri üzrə Şərq vahid dəyərləri təmsil edən bir qrup təşkil etmir, müxtəlif aspektlərdən yanaşdıqda olduqca rəngarəngdir və yalnız coğrafi məfhum olaraq vahid kriteriya üzrə təsnifləşdirildikdə düzgün səciyyə daşıyır. Asiya ilə müqayisədə Avropa bəzi xarakterik xüsusiyyətləri nəzərə almasaq, vahid dini, birgə mədəni, tarixi xüsusiyyətləri daşıyan sivilizasiyanı təmsil edir. Asiyaya isə belə bir vahid sivilizasiya (Şərq sivilizasiyası) kimi yanaşmaq mümkün deyildir. Çünki Şərq bir-birindən köklü surətdə fərqlənən, müxtəlif maddi və mənəvi dəyərləri bölüşən, hətta öz aralarında harmoniyadan daha çox disharmoniya ilə seçilən bir neçə sivilizasiyanın vətənidir və onlar haqqında vahid dəyərlər sisteminin daşıyıcısı kimi danışmaq mümkünsüzdür. Əslində dünya xalqlarının əksəriyyətində Avropa mədəniyyətinə aludəçilik hökm sürür.

Qərb mədəniyyəti müəyyən mədəni-tarixi zərurət üzündən Şərq mədəniyyətindən doğan, bütün Yer üzünün mədəniyyət sisteminin yaranmasında ortaya çıxmış boşluğu doldurmaq üçün fəaliyyətdə olan bir dünyagörüşü, mədəniyyət sistemidir.

Qərb mədəniyyəti müəyyən mədəni-tarixi zərurət üzündən Şərq mədəniyyətindən doğan, bütün Yer üzünün mədəniyyət sisteminin yaranmasında ortaya çıxmış boşluğu doldurmaq üçün fəaliyyətdə olan bir dünyagörüşü, mədəniyyət sistemidir.

Təsadüfi deyildir ki, bütün dinlər məhz ilk dəfə Şərqdə yaranmışdır. Şərqlilər daha təbii yolla, uzun əsrlər boyu öz mədəniyyətlərini formalaşdırırdılar. Şərq mədəniyyəti təbiətə daha yaxındır. Şərq musiqisində, rəssamlığında, ədəbiyyatında, elmində, ayinlərində, adət ənənələrində təbiətdən əxz olunma, təbiətdən bəhrələnmə daha güclüdür. Şərq mədəniyyətinin mahiyyəti, əsas prinsipləri ahəng, harmoniya qanunları ilə formalaşır. Şərq mədəniyyətində günəş amili, günəş enerjisi daha güclüdür.

Şərqlə Qərbin sintezindən ibarət olan Azərbaycan mədəniyyəti ahəng harmoniya qanunlarına əsaslanır, mədəni potensialını qoruyur, milli və ümumbəşəri dəyərlər əsasında qarşılıqlı bəhrələnmək üçün fəaliyyət göstərir.

Azərbaycan olduqca unikal bir mədəniyyətə malikdir. Bu torpaqda uzun əsrlər boyu dünyanın ən aparıcı mədəniyyət sistemlərinin təbii, tarixi inteqrasiyası baş vermişdir. Bu torpaqda atəşpərəstlik, türk, Iran, Qafqaz, yəhudi, xristian, islam, Şərq, Qərb, slavyan, sosializm və s. kimi müasir dünya sivilizasiyasını formalaşdıran mədəniyyətlər çulğalaşmış, dünyanın inkişafı üçün görk olan mədəniyyət, inkişaf modelləri yaratmışdır. Bizim bu qədər möhtəşəm bir mədəni sərvətimiz vardır. Amma təəssüf ki, öz ziyalılarımız bu sərvəti lazımi qədər qiymətləndirə bilmirlər. Ölkəmizdə qloballaşma həyata keçirən qüvvələr də bu sərvəti lazımınca görə bilmirlər. Bu sərvətin qüdrətinin nədə olduğunu həmin qüvvələrə bu günkü Azərbaycan ziyalısı deməlidir.

Qərb mədəniyyəti, hətta bəzi hallarda ümumdünya mədəniyyətini əxz edən bəzi dünya xalqları heç də ahəngdar inkişaf edə bilməmişdir. Bəziləri isə dünya mədəniyyətini əxz etməklə yanaşı öz milli xüsusiyyətlərini də qoruyub saxlamışdır.

Dünyada mədəniyyəti və mənəviyyatı puç etmədən inkişaf etməyin mümkünlüyü kimi Asiya fenomeni yarandı. Bu hadisə məxsusi identiklik (mahiyyət) əsasında modernləşmə kimi qiymətləndirilməyə başlandı. Yaponlar birinci olaraq aşkar etdilər ki, kollektivçilik təsisatları və normaları Qərb nümunəsindən fərqli modernləşməni təmin etməyə qadirdir. Cənub-Şərqi Asiyanın (o cümlədən, sosialist Çininin və sosialist Vyetnamın təcrübəsi), Yaxın Şərq ölkələrinin təcrübəsi göstərdi ki, Qərb texnologiyalarından istifadə etməklə yanaşı milli-mədəni bənzərsizlik deyilən dəyərlərin hamısını - siyasi nənə və normaları, mənəvi adətləri və əxlaqi qoruyub saxlamaq mümkündür.

Hakimiyyətin təşkilinin optimal modeli və siyasi sistem çərçivəsində məsuliyyət; qrupp mənafelərinin fərdi mənafelərdən üstünlüyü; dövlətin üzvi şəkildə qavranılması - bu halda dövlət cəmiyyətin əsas mənafelərinin başlıca qarantı kimi çıxış edir; ümumi mənafelərə xidmət etməyin siyasi rəqabətdən üstün tutulması; rəislə onun tabeliyində olanın; idarə edənlə idarə edilənlərin qarşılıqlı məsuliyyəti" kimi başa düşülən ailə - "bazar iqtisadiyyatlı siyasi konservatizmin üzvi-etalist variantını" birləşdirən konsepsiya bundan ibarətdir.

Məhz ümumdünya ideya və dəyərlərinin təsiri ilə Azərbaycan mədəniyyətində öz ənənələri əsasında modernləşmə baş verir. Əsrlər boyu Azərbaycanda formalaşan milli psixoloji mentaliteti bütün xalqların mədəniyyətlərinə tolerant münasibət yaranmışdır. Azərbaycan xalqının tarixi yaddaşında üç dinin - zərdüştilik, xristianlıq və islam dinlərinin olması faktı da istər ölkə daxilində, istərsə də beynəlxalq səviyyədə tarazlaşdırılmış mədəniyyətlərarası kommunikasiyalar qurulması üçün mühüm amildir.

Deməli, Azərbaycanın ümumdünya mədəniyyətilə qarşılıqlı əlaqəsində onun çoxmillətli, çoxdilli, çoxdinli ölkə olması, mədəni müxtəlifliyə və mədəni paradiqmanın plüralizminə malik olması əsas cəhətlərdən sayılır. Azərbaycan mədəniyyətinin modernləşməsinə təsir edən dünya mədəniyyətinin dəyərləri milli mədəniyyətlərə xas olan və hər bir insanın mənəvi tərəqqisinə, sosial və mədəni həyatın harmonikləşdirilməsinə, cəmiyyətin sabit inkişafına şərait yaradan dəyərlərin cövhəridir. Bu mədəniyyət süni şəkildə yaradılmamışdır; o, dünyanın sosial-siyasi vəhdəti sayəsində, planetimizdə bəşəriyyətin zaman və məkan baxımından pərakəndə düşməsi problemini aradan qaldıran kommunikativ əlaqələrin intensivləşməsi meylləri sayəsində təbii şəkildə formalaşan mədəniyyətdir.

Azərbaycan mədəniyyətinin modernləşməsinə təsir edən ümumdünya mədəni irsi - postmodernist mədəniyyət ənənəvi və müasir mədəniyyətlərə xas olan cəhətləri özündə birləşdirir.

Ümumdünya mədəniyyətin coğrafi baxımdan pərakəndəliyinə baxmayaraq üç əsas tipii fərqləndirilir:

· Şərq və ya Cənub mədəniyyəti;
· Qərb və ya Şimal mədəniyyəti;
· Sivilizasiyalararası məkan və ya Avrasiya məkanı. Burada ənənəvi və modernist mədəniyyətə xas olan cizgilər birləşir.

Avrasiyaçılığın (bəzən ona neoavrasiyaçılıq da deyirlər) etnomədəni və sosio-mədəni əsasını müxtəlif xalqların çoxəsrlik qarşılıqlı əlaqəsi və birgə həyat fəaliyyəti təşkil edir. Artıq dünyada avrasiyaçılığın ümumi mədəniyyəti, mentaliteti formalaşmışdır. Avrasiya məkanı tarixən ənənəvi və liberal sivilizasiyalar arasında qərar tutmuşdur, daha dəqiq desək bu sivilizasiyaların əsas xüsusiyyətlərini özündə əks etdirir.

Bu amil Avrasiyanın özəl statusunu və keyfiyyətini şərtləndirmişdir. Burada türkdilli, slavyan, uqro-fin və s. xalqlar vahid sivill məkan daxilində yaşayır. Bu vahid sistem bütövlük, tarixi taleyin ümumiliyi, inteqrasiya və dialoq proseslərinin təməli, prinsipi kimi dəyər kəsb edir.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

## Son səhifə

15 may

# Formula 1 Azərbaycan Qran Prisinə alınmış biletlər hələ də qüvvədədir

***Koronavirus pandemiyası ilə əlaqədar təxirə salınmış Formula 1 üzrə 2020-ci il Azərbaycan Qran Prisinə alınmış biletlərlə bağlı məsələyə Bakı Şəhər Halqası (BŞH) aydınlıq gətirib. BŞH-dən SİA-ya verilən məlumata görə, alınan biletlər hələ də qüvvədədir. Lakin BŞH biletlərin qaytarılması üçün də şərait yaradıb. Belə ki, əgər kimsə bileti qaytarmaq istəyirsə, bilet@bakugp.az email vasitəsi ilə müraciət edə bilər. Qeyd edək ki, 2020-ci ildə Formula 1 Azərbaycan Qran prisinin keçiriləcəyi tarix hələki müəyyənləşdirilməyib. Formula 1 şirkəti çempionatın 2020-ci il üçün yeni təqvimini hələ elan etməyib.***




Bu istiqamətdə BŞH ilə Formula 1 şirkəti arasında daim əlaqələr davam etdirilir. Yarışın tarixi müəyyən olunan kimi bu barədə ictimaiyyətə məlumat veriləcək. Həmçinin qeyd olunub ki, hazırda yarışla bağlı Bakı şəhərində hər hansı tikinti işi aparılmır. Yarışın tarixi müəyyən olunduqdan sonra tikinti işlərinə başlanması mümkündür. Xatırladaq ki, Formula 1 üzrə 2020-ci il Azərbaycan Qran Prisinin 5-7 iyun tarixlərində keçirilməsi planlaşdırılırdı. Koronavirus pandemiyası səbəbindən yarış təxirə salınıb.

# İngiltərədə futbol nə vaxt başlayır?



***İngiltərə Premyer Liqası koronavirus pandemiyası üzündən dayandırılan 2019/20 mövsümünün bərpası üçün optimal tarix axtarır. SİA-nın xarici mətbuata istinadən məlumatına görə, çempionatın iyunun 12-də davam etdiriləcəyi gözlənilsə də, bu tarixin təxirə salınacaq.***

Çempionatın ən yaxşı halda iyunun 19-da bərpa olunacağı ehtimal olunur. Buna səbəb klubların məşqçi və kapitanlarının səsləndirdiyi fikirlərlə bağlıdır. Onlar mövsümün bərpa vaxtına qədər hazırlaşmağı çatdıra bilməyəcəklərindən ehtiyatlandıqlarını bəyan edib. Bunu nəzərə alan liqa rəhbərliyi tarixi dəyişdirməyi məqsədəuyğun sayır.

# "Futbolçu olaraq Messini çox sevirəm, Ronaldo da möhtəşəmdir"



***"Liverpul"un baş məşqçisi Yurgen Klopp "Kriştiano Ronaldo, yoxsa Lionel Messi" sualını cavablandırıb. İngiltərə mətbuata istinadən xəbər verir ki, alman mütəxəssis, Messini bir az daha çox sevdiyini etiraf edib.***

"Mənə görə Messi, ancaq Ronaldoya da böyük hörmətim var. Bu sualı belə cavablandıra bilərəm. İkisinə də qarşı oynamışam və hər ikisinə qarşı müdafiə olunmaq demək olar ki, mümkünsüzdür. "Möhtəşəm bir futbolçu təsvir edin" desəz, yəqin ki, Ronaldonu deyərəm. O, qüsursuz peşəkardır və bundan daha yaxşı ola bilməzdi. Qeyri-adi şeyləri sadələşdirən balaca bir Messi var. Buna görə də, futbolçu olaraq Messini daha çox sevirəm. Ronaldo da möhtəşəmdir".

# 26 cinayətin üstü "isti izlər"lə açılıb

Ötən gün daxili işlər orqanlarında qeydə alınan cinayət faktları və hadisələr haqqında statistik məlumatlar açıqlanıb. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, mayın 13-də törədilən 26 cinayətin üstü "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 6 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 44 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 1 nəfər, borclu şəxs qismində axtarışda olan 35 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 12, qanunsuz saxlanılan silah-sursatla bağlı 2 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 24 nəfər saxlanılıb.

# Kür çayında 67 yaşlı kişi batıb

Kür çayının Hacıqabul rayonu, Talış kəndi ərazisindən keçən hissəsində 1953-cü il təvəllüdlü Səlimov Qardaşəli Abbas oğlu batıb. Bu barədə SİA-ya Fövqəladə Hallar Nazirliyindən məlumat verilib.



Nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu axtarışlara cəlb olunub.

# Niyə uşaqlar COVİD-19-u yüngül keçirir?

"Uşaqlar COVID-19-u yetkinlərə nisbətən daha asan keçirir və onların immun sisteminin xüsusiyyətləri virusun onlara keçməsinə demək olar ki, malik deyil. Belə hala çox nadir və yalnız soyuqlama xəstəliyi kimi rast gəlmək mümkündür. SİA-nın xəbərinə görə, bunu immunoloq, professor Yakob Berkun söyləyib. O bildirib ki, dünyada xəstəliyə yoluxan 4 milyondan çox insan uşaqların xəstəlik mənbəyi olmadığını sübut edir: "Çünki, aparılan bir sıra araşdırmalar da təsdiq edir ki, ailələrdə xəstəlik mənbəyi əsasən böyüklər olur".

Həkimin sözlərinə görə, bunun əsas səbəbi uşaqların immuniteti ilə bağlı ola bilər: "immun sisteminin bir çox komponenti var. Lakin uşaqlarda immun sistemi yetərincə inkişaf etmədiyi üçün görünür, hələ inkişaf etməmiş hissə, onlara koronavirusla mübarizədə kömək edə bilir. Biz virusun xüsusi reseptorlar vasitəsilə hüceyrələrimizə daxil olma mexanizmini bilirik. Lakin uşaqlarda bu reseptorlar həm daha az, həm də hüceyrələrin içərisində olan siqnallar daha əzifdir. Ola bilsin ki elə bu səbəbdən də uşaqlarda virus bədənə, hüceyrələrə daha az nüfuz edir və infeksiya zəif hərəkət edir".

Təcrübəsini bğlüşən mütəxəssis vurğulayıb ki, pandemiya dövründə həkimlərin ən çox rastlaşdığı məsələ böyüklərin virusa yoluxduğu ailələrdə uşaqların demək olar ki xəstəliyə yoluxmamasıdır: "Yoluxduqları zaman belə xəstəlik uşaqlarda daha yüngül formada özünü göstərir".

***Nailə Məhərrəmova***

- Covid-19

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**